# AZƏRBAYCAN RESPUBLİKASI ALİ MƏHKƏMƏSİNİN BÜLLETENİ

2023
№ 1

Baş redaktor:
**R.Y.Rzayev**

Baş redaktorun müavinləri:
**Ç.İ.Əsgərov**
**Ş.Y.Yusifov**

Redaksiya heyəti:
**H.Q.Nəsibov**
**S.F.Hacıyev**
**X.S.Məmmədov**
**K.N.Abiyeva**
**Z.M.Quliyev**
**E.R.Vəliyeva**
**B.M.Məmmədli**
**E.E.Hətəmzadə**

Məsul katib:
**A.M.Məmmədli**

**Redaksiyanın ünvanı:**

Az 1025, Bakı şəhəri,
Xətai rayonu,
Yusif Səfərov küç.26
1193-cü məhəllə
Tel: 493-18-37
Faks: 493-18-37

**www.supremecourt.gov.az**

## MÜNDƏRİCAT

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivinin Fəxri xiyaban və Şəhidlər xiyabanına ziyarəti....2
Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans....3
Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin müraciəti....6
Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin açılış nitqi....8
Azərbaycan Respublikası Baş nazirinin təbriki....9
Azərbaycan Respublikası Milli Məclisinin təbriki....10
İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Siofra O'Lirinin konfrans iştirakçılarına videomüraciəti....12
Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş "Ali Məhkəmələrin ədalət mühakiməsində rolu: müsbət təcrübələr və müasir çağırışlar" mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin nitqi....14
Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin nitqi....19
Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədovun nitqi....21
Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin nitqi....24
Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Səbinə Əliyevanın nitqi....28
Belarus Respublikası Ali Məhkəməsinin sədri Valentin Sukalonun nitqi....30
Rumıniya Ali Kassasiya və Ədalət Məhkəməsinin sədri Korina-Alina Korbunun nitqi....33
Qazaxıstan Respublikası Ali Məhkəməsinin sədri Aslambek Merqaliyevin nitqi....35
Çex Ali Məhkəməsinin sədri Petr Anqialossinin nitqi....38
Qırğızıstan Respublikası Ali Məhkəməsinin sədri Zamirbek Bazarbekovun nitqi....40
Qətər Dövləti Ali Məhkəməsinin sədr müavini Ahmed Ali Al-Binalinin nitqi....43
Macarıstan Ali Məhkəməsinin sədr müavini Andras Patyinin nitqi....44
Özbəkistan Respublikası Ali Məhkəməsinin sədr müavini Xəlilillo Turaxujayevin nitqi....46
Türkmənistan Ali Məhkəməsinin sədr müavini Toynazar Xudaynazarovun nitqi....48
Rusiya Federasiyası Ali Məhkəməsinin sədri Pyotr Serkovun nitqi....49
Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin yekun nitqi....52
Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı....53
"Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı....55
Bir qrup hakim və məhkəmə əməkdaşlarının Ali Məhkəmənin yubiley medalı ilə təltif olunması....56
Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası....58
"Yüz ilin salnaməsi" kitabı....59
Ali Məhkəmədə "Açıq qapı" günləri....60
Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş futbol turniri....61
Azərbaycan Respublikasının Ali Məhkəməsi və ADA Universiteti arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu....62
Azərbaycan Respublikasının Ali Məhkəməsi və Bakı Dövlət Universiteti arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu....63

## Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivi Fəxri Xiyabanda və Şəhidlər Xiyabanında olub

2023-cü ildə Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 ili tamam olur. Eyni zamanda Ali Məhkəmənin 100 illik yubileyi çox əlamətdar bir ilə təsadüf edir. Bu il xalqımız Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycanın, eyni zamanda Azərbaycanda məhkəmə sisteminin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır. Bu münasibətlə fevralın 11-də Ali Məhkəmənin hakimləri və Aparatının əməkdaşları Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət edib, onun əziz xatirəsini yad ediblər. Həmçinin Şəhidlər Xiyabanına gələrək Vətənin azadlığı, xalqın xoşbəxtliyi uğrunda canından keçmiş şəhidlərimizin məzarları önünə gül dəstələri düzüblər.





## Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfrans keçirilib

2023-cü il fevralın 13-də Heydər Əliyev Mərkəzində Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş "Ali Məhkəmələrin ədalət mühakiməsində rolu: müsbət təcrübələr və müasir çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda 20 ölkənin ali məhkəmə sədri və rəhbərliklərindən ibarət nümayəndə heyəti və digər rəsmi şəxslər iştirak ediblər.

Əvvəlcə Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev konfrans iştirakçılarını salamlayıb, ölkəmizə təşrif buyurduqları üçün qonaqlara və həmkarlarına minnətdarlığını bildirib.

Sonra Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Fuad Ələsgərov dövlətimizin başçısı İlham Əliyevin beynəlxalq konfransın iştirakçılarına müraciət məktubunu oxuyub.

Azərbaycan Respublikası Milli Məclisinin beynəlxalq konfransın iştirakçılarına müraciətini parlament sədrinin birinci müavini Əli Hüseynli oxuyub.

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri xanım Siofra O'Lirinin konfrans iştirakçılarına videomüraciəti təqdim edilib.

Sonra konfransda Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş film nümayiş olunub.

Ali Məhkəmənin sədri Ramiz Rzayev "Azərbaycan Respublikası Ali Məhkəməsinin keçdiyi tarixi inkişaf yolu" mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, Ali Məhkəmənin 100 illik yubileyi çox əlamətdar bir ilə təsadüf edir. Bu il mayın 10-da xalqımız müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycanda məhkəmə sisteminin inkişafı Ümummilli Liderin fəaliyyəti ilə sıx bağlıdır.



Ali Məhkəmənin yaradılmasının tarixi haqqında danışan Ramiz Rzayev qeyd etmişdir ki, XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ictimai-siyasi həyatında ciddi dəyişikliklər baş verib, xalqımızın apardığı tərəqqi, demokratiya və azadlıq ideyaları uğrunda mübarizənin nəticəsi olaraq 1918-ci ilin 28 mayında şərq-islam dünyasında ilk demokratik respublika olan Azərbaycan Xalq Cumhuriyyəti yaradılıb.

Azərbaycan Xalq Cumhuriyyəti 1920-ci ilin mart ayında Ali Məhkəmənin yaradılması haqqında Əsasnamə layihəsi hazırlayaraq qəbul edilməsi üçün parlamentə təqdim edib. Lakin bolşeviklərin hakimiyyəti ələ keçirməsi Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən Ali Məhkəmənin təsis olunmasına imkan verməyib. 3 il sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin yeni məhkəmə quruluşunun yaradılması ilə əlaqədar 1923-cü il 13 fevral tarixli qərarı ilə Azərbaycan tarixində ilk dəfə Ali Məhkəmə yaradılaraq fəaliyyətə başlayıb.

70 illik Sovet dönəmində məhkəmə quruluşu dəfələrlə dəyişilsə də, Azərbaycan SSR Ali Məhkəməsi Respublikanın Ali Məhkəmə orqanı kimi mövcud olmaqla, dövrün şərtləri çərçivəsində ölkəmizdə məhkəmə və hüququn inkişafına öz töhfəsini verib.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan "Müstəqillik haqqında Konstitusiya Aktı"nı qəbul etməklə, SSRİ-nin tərkibindən ayrılıb və dövlət müstəqilliyini bərpa edib. Azərbaycan dövlətinin müstəqilliyinin bərpasından sonrakı dövrdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti ilə məhkəmə-hüquq sistemində mərhələli şəkildə islahatlar aparılıb.

Ali Məhkəmənin sədri vurğulayıb ki, müstəqil Azərbaycan Respublikası Ali Məhkəməsinin hüquqi statusu, məhkəmə sistemində yeri və rolu 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi

ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən olunub. Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin ali məhkəmə orqanı kimi təsbit olunması onun yüksək hüquqi statusundan irəli gəlir.

"Prezident İlham Əliyevin 2019-cu il aprelin 3-də imzaladığı "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanını isə ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanması, bu sahədə yeni yol xəritəsi kimi qəbul edirik. İslahatların yeni mərhələsinin hədəfləri isə belə müəyyənləşdirilib - müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədilə məhkəməyə müraciət etmə imkanları daha da genişləndirilməli, onların fəaliyyətində şəffaflıq artırılmalı, məhkəmə icraatının səmərəliliyi yüksəldilməli, məhkəmə qərarlarının tam və vaxtında icra edilməsi təmin olunmalı, süründürməçiliyin aradan qaldırılması üçün görülən tədbirlər gücləndirilməlidir", - deyə Ali Məhkəmənin sədri qeyd edib.

Vahid məhkəmə təcrübəsindən söz açan Ali Məhkəmənin sədri bildirib ki, məhkəmə praktikasının vahidliyinin və ardıcıllığının təmin edilməsinin hər bir ölkənin hüquq sistemi üçün böyük əhəmiyyəti vardır. Vahid məhkəmə təcrübəsinin mövcudluğu məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmalarının sabitliyinin və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq olunmasının təminatı kimi çıxış edir. Qanunun eyni cür tətbiqi hüququn ümumiliyini, qanun qarşısında bərabərliyi və hüquqi müəyyənliyi təmin edir. Hüquqi dövlətdə bu prinsiplərin hakim olması şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə olan inamını artırır, onlara öz hərəkətlərinin hüquqi nəticələrini öncədən görmə imkanı verir. Bundan başqa, vahid məhkəmə təcrübəsinin mövcudluğu oxşar məhkəmə işlərinin həllinin müəyyənləşməsini təmin etməklə mübahisələrin məhkəmədənkənar həllinə kömək edir. Bununla, həm də son nəticədə ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verilmiş olur. Odur ki, nəinki hüquq normaları birmənalı və aydın olmalıdır, həm də xüsusilə məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir. Yəni vətəndaşa hüquq tətbiq edənin hərəkətlərinin müəyyənləşəcəyinə dair əminlik verilməlidir.



Konfransda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev, ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri Fikrət Məmmədov, Baş prokuror Kamran Əliyev, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva çıxış edərək Ali Məhkəmənin keçdiyi tarixi inkişaf yolundan, məhkəmə-hüquq sahəsində əldə olunan nailiyyətlərdən danışıblar.

Sonra konfrans "Vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında Ali Məhkəmənin rolu" mövzusunda panel iclası ilə işini davam etdirib.

Ali Məhkəmə sədrinin müavini Çingiz Əsgərovun moderatorluğu ilə keçən panel iclasında ölkəmizdə vahid məhkəmə təcrübəsinin formalaşması istiqamətində görülən tədbirlərdən danışılıb. Sədr müavini bildirib ki, Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanında verilmiş tövsiyədən sonra qanunvericiliyə Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması məsələsini bilavasitə nizamlamağa yönələn yeni müddəalar daxil edilib. Bu müddəalar əsasında Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması ilə bağlı konkret sahələr üzrə mühüm qərardadlar, həmçinin Ali Məhkəmənin Plenumu tərəfindən bir sıra vacib qərarlar qəbul edilib.

İclasda Belarus Respublikası Ali Məhkəməsinin sədri Valentin Sukalo, Rumıniya Ali Məhkəməsinin sədri Korina-Alina Korbu, Qazaxıstan Respublikası Ali Məhkəməsinin sədri Aslambek Merqaliyev, Çex Respublikası Ali Məhkəməsinin sədri Petr Angialossi, Qırğız Respublikası Ali Məhkəməsinin sədri Zamirbek Bazarbekov, Qətər Dövlətinin Ali Məhkəməsi sədrinin müavini Ahmed Ali Al-Binali, İnsan

Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi Lətif Hüseynov və başqaları çıxış edərək vahid məhkəmə təcrübəsi ilə bağlı qənaətlərini bölüşüblər.






## Azərbaycan Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransın iştirakçılarına Azərbaycan Respublikası Prezidentinin müraciəti

Hörmətli konfrans iştirakçıları!

Sizi – Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunan "Ali məhkəmələrin ədalət mühakiməsində rolu: müsbət təcrübələr və müasir çağırışlar" mövzusunda beynəlxalq konfransın iştirakçılarını səmimi-qəlbdən salamlayır, konfrans çərçivəsində məhsuldar müzakirələr arzulayıram.

Müasir Azərbaycan Respublikasının hüquqi varisi olduğu Azərbaycan Xalq Cümhuriyyətində dövlətquruculuğu sahəsində əsaslı tədbirlər görülmüş, o cümlədən yeni məhkəmə-hüquq sisteminin təsis edilməsi ilə bağlı tarixi qərarlar qəbul edilmiş, birinci instansiya və apellyasiya instansiyası məhkəmə orqanları fəaliyyətə başlamışdır. 1920-ci ilin aprelində Xalq Cümhuriyyətinin süquta uğraması səbəbindən Azərbaycanda kassasiya instansiyası məhkəməsinin yaradılması yalnız ölkə tarixinin növbəti mərhələsində mümkün olmuşdur.



1923-cü ildə təsis edilmiş ali məhkəmə orqanı sovet dövrünün bütün çətin sınaqlarından keçmiş, məhkəmə sisteminin təkmilləşdirilməsində, hüququn və onun tətbiqi təcrübəsinin zənginləşdirilməsində, peşəkar milli hüquqşünas kadrların yetişdirilməsində iştirak etmişdir.

Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyasında hakimiyyət bölgüsü prinsipi müəyyənləşdirilmiş, Ali Məhkəmə başda olmaqla müstəqil, üçpilləli məhkəmə sistemi təsbit edilmişdir. Məhz Ulu Öndərin siyasi iradəsi nəticəsində, mütərəqqi hüquqi yanaşmalar və modellər nəzərə alınmaqla, müasir Azərbaycan məhkəmə sisteminin yaradılması məqsədilə fundamental islahatlar aparılmışdır.

Məhkəmə-hüquq sisteminin davamlı inkişafı daim dövlət siyasətimizin prioritetlərindən biri olmuşdur. Məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsi, hüququn aliliyinin təmin edilməsi, məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılması, yüksək hüquqi biliklərə malik hakim korpusunun yaradılması, məhkəmə fəaliyyətinin yeni informasiya texnologiyalarının tətbiqi yolu ilə təkmilləşdirilməsi bu inkişaf prosesinin mühüm istiqamətləridir. Qeyd edilən istiqamətlərdə əhəmiyyətli nailiyyətlərin əldə edilməsində Ali Məhkəmənin xüsusi rolu vardır. Ali Məhkəmə cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsi institutlarının formalaşdırılması sahəsində məqsədyönlü fəaliyyətini bundan sonra da davam etdirməli, insan hüquqlarının müdafiəsinə yönəlmiş yeni hüquqi mexanizmlərin müəyyənləşdirilməsinə, məhkəmələrdə hüquqi məsələlərin həllində vahid təcrübənin təmin edilməsinə töhfə verməlidir.

Müasir cəmiyyətlərin qarşılaşdığı yeni çağırışlar ədalət mühakiməsi institutlarının da fəaliyyətinə təsir göstərir. Pandemiyalar daxil olmaqla müxtəlif böhran vəziyyətlərində məhkəmələrin insanlar üçün əlçatanlığının, bununla belə məhkəmə prosesinin çevikliyinin və ədalətliliyinin təmin edilməsi, məhkəmələrin fəaliyyətində qabaqcıl informasiya-kommunikasiya texnologiyalarının və süni intellekt elementlərinin tətbiqi, eyni zamanda bu texnoloji yeniliklərdən insan hüquqlarına və etik prinsiplərə riayət olunmaqla istifadə edilməsi, ictimai münasibətlərin sürətlə dəyişməsi ilə əlaqədar hüququn təkamülü və onun

sabitliyinin qorunması məqsədləri arasında effektiv balansın təmin edilməsi kimi məsələlər belə çağırışlar sırasındadır.

Ümidvaram ki, bugünkü beynəlxalq konfrans çərçivəsində müasir çağırışların müzakirəsi ədalət mühakiməsinin məqsədlərinə nail olunmasına, bununla da cəmiyyətimizin tərəqqisinə dəyərli töhfə verəcəkdir.

Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimlərini və işçilərini 100 illik yubiley münasibətilə təbrik edir, peşə fəaliyyətində uğurlar arzulayıram!

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 13 fevral 2023-cü il**

## Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin açılış nitqi

Hörmətli xanımlar və cənablar!

Çox hörmətli qonaqlar!

Sizi Ulu Öndər Heydər Əliyevin adını daşıyan bu möhtəşəm mərkəzdə salamlayıram: Xoş gəlmisiniz! Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda iştirakınıza görə Sizə öz dərin təşəkkürümü bildirirəm.

Bu beynəlxalq konfrans Ali Məhkəmənin 100 illik yubileyinə həsr olunduğu üçün hamımız xüsusi bir bayram əhval-ruhiyyəsindəyik. Arzu edirəm ki, bu bayram sevinci hamınızı məhkəmə sistemində bundan sonrakı fəaliyyətinizdə və şəxsi həyatınızda daim izləsin.




Azərbaycan Respublikasının Ali Məhkəməsi 100 illik tarixi ərzində çox şərəfli bir inkişaf yolu keçib. Xüsusilə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra bu inkişaf dinamik xarakter alıb.

Ədalət mühakiməsinin məhkəmələr tərəfindən müstəqil və qərəzsiz həyata keçirilməsi hər bir demokratik cəmiyyətin əsas təməl daşlarından biridir. Məhkəmə hakimiyyəti təmsilçilərinin üzərinə isə yalnız bir vəzifə düşür - qanunun aliliyini təmin etmək, ədalətli və qərəzsiz olmaq, humanist prinsiplərə və sağlam düşüncə tərzinə əsaslanan qərarlar qəbul etməklə şərəfli hakim adını daim uca tutmaq.

Vahid məhkəmə təcrübəsinin yaradılması indi bütün ölkələrdə zərurətə çevrilib. İnanıram ki, konfransda bu istiqamətdə səmərəli müzakirələr aparılacaq.

Konfransın işinə uğurlar arzulayıram.

## Azərbaycan Respublikası Baş nazirinin təbriki

**Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri**
**Ramiz Yaqub oğlu Rzayevə**

Hörmətli Ramiz müəllim!

Sizi Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Azərbaycanın məhkəmə-hüquq sistemi böyük bir yol keçib. Bu inkişafın ötən əsrin 70-80-ci illərini əhatə edən mərhələsi xüsusilə əlamətdardır. Ulu Öndər Heydər Əliyevin həmin dövrdə elan etdiyi “Qoy ədalət zəfər çalsın!” prinsipi cəmiyyətin digər sahələri kimi, məhkəmə-hüquq sisteminin də yeni tələblər səviyyəsində qurulmasını nəzərdə tuturdu.

Ümummilli Liderimizin Azərbaycana rəhbərliyinin ikinci dövründə də ədalət mühakiməsinin təmin olunması diqqət mərkəzində saxlanılıb. Ulu Öndərin rəhbərliyi ilə hazırlanmış və 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası Azərbaycan xalqının hüquqi, demokratik, dünyəvi dövlət qurmaq niyyətini bəyan etmiş və insan hüquqlarının təmin edilməsini dövlətin ali məqsədi kimi təsbit etmişdir. Eyni zamanda müstəqil Azərbaycan Respublikası Ali Məhkəməsinin hüquqi statusu, məhkəmə sistemində yeri və rolu da Konstitusiyada müəyyən olunmuşdur.

Ümummilli Liderin dövlətçilik konsepsiyasını uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə məhkəmə sisteminin inkişaf etdirilməsi və müasirləşdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Bu islahatlar nəticəsində Ali Məhkəmə səmərəli hüquqi təsisat kimi formalaşmış, dövlət hakimiyyəti sistemində özünəməxsus yer tutmuşdur.

Əminəm ki, Sizin rəhbərliyinizlə Ali Məhkəmə bundan sonra da Azərbaycan Respublikasında ədalət mühakiməsinin həyata keçirilməsi, insan hüquq və azadlıqlarının qorunması sahəsində səmərəli fəaliyyət göstərəcək, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəkdir.

Bu əlamətdar yubiley münasibətilə Sizə, həmçinin Ali Məhkəmənin kollektivinə bir daha təbriklərimi çatdırır, fəaliyyətinizdə uğurlar arzulayıram.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**
**Bakı şəhəri, 13 fevral 2023-cü il**

## Azərbaycan Respublikası Milli Məclisinin təbriki

Hörmətli Ramiz müəllim,

Hörmətli konfrans iştirakçıları,

Sizi Azərbaycan Parlamentinin spikeri xanım Sahibə Qafarovanın adından salamlayır və Milli Məclisin konfrans iştirakçılarına ünvanlanan müraciətini çatdırıram.

Azərbaycan Ali Məhkəməsinin 100 illiyi tədbiri müasir Azərbaycan dövlətçiliyi tarixinin mühüm hadisələrindən biridir.

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilmiş 1995-ci il Konstitusiyasında Ali Məhkəmənin də müstəsna yeri vardır. Təsadüfi deyil ki, Konstitusiyada Azərbaycan Respublikasının Milli Məclisində qanunvericilik təşəbbüsü hüququ Ali Məhkəməyə də mənsubdur.




Məhz buna görə də sonrakı illərdə ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatlarında Ali Məhkəmənin fəal iştirakı olmuşdur. Bütün bu illər ərzində Parlament ilə Ali Məhkəmə arasında qarşılıqlı səmərəli əməkdaşlıq mühiti mövcuddur. Məhkəmə- hüquq islahatları ilə bağlı bir sıra qanun layihələri hazırlayan işçi qruplarına məhz Ali Məhkəmə rəhbərlik etmiş, həmçinin qanun layihələrinin Parlament komitələrinin müzakirəsində yaxından iştirak etmiş, səmərəli rəy və təkliflər vermişdir.

Ali Məhkəmə qanunvericilik təşəbbüsü hüququndan istifadə edərək bir neçə qanun layihəsini də parlamentə təqdim etmiş və qəbul edilmişdir.

Hörmətli konfrans iştirakçıları,

Konstitusiya ilə Azərbaycan Respublikası Prezidentinin təqdimatına əsasən Ali Məhkəmənin hakimləri Milli Məclis tərəfindən təyin edilir. Bu təqdimatlara baxılarkən həm komitə, həm plenar iclasda Ali Məhkəmə və bütövlükdə məhkəmə-hüquq sistemində görülən işlər, problemlər və islahatlar da bir daha müzakirə olunur. Sözsüz ki, bu fikir mübadiləsi məhkəmə-hüquq islahatlarının mütərəqqi məqsədlərinə xidmət edir. Təqdirəlayiq haldır ki, qanunvericiliyə müvafiq olaraq Milli Məclisin deputatı da Məhkəmə-Hüquq Şurasında təmsil olunur. Bu da öz növbəsində Parlamentin, Ali Məhkəmə də daxil olmaqla bütövlükdə məhkəmə-hüquq sisteminin fəaliyyətindən məlumatlılığını təmin edir.

Hörmətli konfrans iştirakçıları,

Prezident İlham Əliyevin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanından sonra və görülmüş işlər nəticəsində ölkəmizdə məhkəmə sistemi keyfiyyətcə yeni mərhələyə daxil olmuşdur. Bu islahatların qanunvericilik hissəsi, xüsusən də "Məhkəmələr və hakimlər haqqında" qanuna, mülki və cinayət qanunvericiliyinə edilmiş mütərəqqi dəyişikliklər, habelə Ali Məhkəmənin vahid məhkəmə təcrübəsi formalaşdırmaq mexanizminin qanunvericilikdə təsbit edilməsi bu islahatlara ciddi töhfə vermişdir.

27 dekabr 2022-ci il tarixdə isə Azərbaycan Respublikasının Milli Məclisində cənab Prezident tərəfindən təqdim olunmuş "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)" yubiley medalının təsis edilməsi ilə əlaqədar" qanun da qəbul edilmişdir. Bu Qanuna əsasən yubiley medalı ilə məhkəmə sistemində öz vəzifələrini nümunəvi yerinə yetirən şəxslərin, qüsursuz fəaliyyəti ilə fərqlənən hakimlərin,

məhkəmələrin aparatlarında qulluq keçən dövlət qulluqçularının, məhkəmə sisteminin inkişafına töhfə vermiş şəxslərin təltif olunması nəzərdə tutulmuşdur. Fürsətdən istifadə edərək yubiley medalına layiq görülmüş həmkarlarımız adından Ali Məhkəmə rəhbərliyinə təşəkkürümüzü çatdırırıq.

Hörmətli konfrans iştirakçıları,

Əminik ki, bundan sonra da Azərbaycan Respublikasının Ali Məhkəməsi və bütövlükdə məhkəmə sistemi ilə Parlament əlaqələri səmərəli şəkildə davam edəcəkdir.

Sizi bir daha Ali Məhkəmənin 100 illik yubileyi münasibəti ilə təbrik edir və fəaliyyətinizdə uğurlar arzulayırıq.

**Əli Hüseynli**
**Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini**
**Bakı şəhəri, 13 fevral 2023-cü il**

## İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri Siofra O'Lirinin konfrans iştirakçılarına videomüraciəti

Hörmətli cənab sədr Ramiz Rzayev, hakimlər və hörmətli qonaqlar!

İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin sədri kimi öz adımdan və Məhkəmənin bütün hakimləri adından Azərbaycan Ali Məhkəməsinin 100 illiyi münasibətilə ən xoş arzularımı və təbriklərimi çatdırmaqdan məmnunam.

Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlıq 22 ildir ki davam edir və bu müddətdə böyük tərəqqiyə nail olunub. Əsrin dörddə birinə yaxın müddətdə Azərbaycanla bağlı 274 qərar qəbul edilib, o cümlədən onların 23-ü son ildə qəbul olunub. Bildiyiniz kimi, Avropa Şurası Nazirlər Komitəsinin gündəliyində bir sıra vacib məsələlər vardır. Təxminən 2000-ə yaxın iş bizim icraatımızdadır.

Bildiyiniz kimi, insan hüquqlarının müdafiəsi üzrə Avropa sisteminin mühüm xüsusiyyəti onun subsidiar (yardımçı) xarakter daşımasıdır. Sizlərin yurisdiksiyanızda yaranan insan hüquqları problemləri ilə bağlı başlıca məsuliyyət dövlətlərin və sizlərin – milli hakimlərin üzərinə düşür.

Geniş Avropa hakimləri toplumunun bir hissəsi olaraq ölkədaxili səviyyədə sizin gördüyünüz işin vacibliyini vurğulamaq istərdim. Bu, subsidiarlıq prinsipinin praktikada tətbiqidir. Məhkəmənin icraatında olan bir çox işlər Şuranın demokratiyanın, qanunun aliliyinin və fundamental hüquqların müdafiəsindən ibarət əsas missiyasının mühüm tərkib hissəsidir və bu işlər sizin üzərinizə düşən mühüm rolu vurğulayır.

Sizin Ali Məhkəmədəki işiniz aşağı məhkəmələr üçün ölkədaxili məhkəmə təcrübəsinin şərhi və uzlaşdırılması kimi ümumi səlahiyyətləri özündə ehtiva edir. Bu, məhkəmə təcrübəsinin inkişafına xidmət edir.

Son illərdə siz Avropa Məhkəməsinin bir sıra qərarlarının ölkədaxili səviyyədə icrasında getdikcə daha çox nəzərəçarpan rol oynayırsınız. Siz bu rolu işlərin ölkədaxili hüquq sistemində yenidən açılması və həmin işlərə "İnsan hüquqları haqqında" Avropa Konvensiyasının işığında yenidən baxırsınız. Bu iş mühüm əhəmiyyətə malikdir, belə ki, Avropa Məhkəməsinin qərarlarının icrası Konvensiya sistemi üzrə dövlətin daşıdığı öhdəliyin ayrılmaz və mütləq aspektidir. Azərbaycan Respublikasının Ali Məhkəməsi kimi yüksək məhkəmə orqanları ilə dialoq Ali Məhkəmənin işinin mühüm aspektlərindən biridir. Yanvarın 27-də Ali Məhkəmə özünün 100 illiyini Avropa Şurasının qırx altı üzv dövlətinin yüksək instansiya məhkəmələrinin sədrləri ilə görüşməklə qeyd etdi. Hörmətli qonaqlarımızın arasında sədr Ramiz Rzayevi salamlamaqdan çox məmnun olduq. Milli məhkəmələrlə ənənəvi dialoqumuz bir sıra dayaqlara söykənir, bu dialoqun təməl daşı Konvensiyanın 16 saylı Protokolunda nəzərdə tutulan məsləhət rəyi mexanizmidir. Bu, ölkədaxili yüksək instansiya məhkəməsinin sorğusu ilə Avropa Məhkəməsinin məsləhət rəyi təqdim etməyinə imkan verir. Bu Protokol Azərbaycan tərəfindən 2021-ci ildə imzalanmışdır. Bu il 16 saylı Protokolun qüvvəyə minməsindən beş il sonra ilin ikinci yarısında konfrans təşkil edəcək və nəticələrə yekun vuracağıq və sizin Ali Məhkəmə də daxil olmaqla, bütün yüksək instansiya məhkəmələrinin sədrləri dəvət ediləcək. Həqiqətən 44 müxtəlif dövlətlərdən olan 103 məhkəmənin şəbəkəsinə çevrilmiş ali məhkəmələr şəbəkəsi bir sütundur ki, sizin məhkəmənin də onun üzvü olmağından olduqca məmnunuq.

Dialoqumuza və Konvensiyanın tətbiqinə şərait yaradan digər bir alət biliklərin paylaşılması platformasıdır. 2022-ci ilin oktyabrında biz platformanı kənar istifadəçilər üçün açıq edərək Konvensiyaya və presedent hüququna dair biliklərin artırılması üçün bir sıra alətləri əlçatan etdik. Çox ümid edirik ki, bu yeni alət sizin üçün və milli hakimlər qismində işiniz üçün faydalı olacaq.

Hörmətli sədr, hörmətli hakimlər!

Bu əlamətdar hadisəni qeyd etmək üçün beynəlxalq konfransda şəxsən sizinlə birlikdə olmadığıma təəssüflənirəm. Bununla belə, Avropa Məhkəməsi sizin milli hakiminiz Lətif Hüseynov vasitəsilə layiqincə təmsil olunacaqdır. Müzakirələrinizdə uğurlar arzulayıram.


EUROPEAN
OF HUMAN RIGHTS

# Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş “Ali Məhkəmələrin ədalət mühakiməsində rolu: müsbət təcrübələr və müasir çağırışlar” mövzusunda keçirilən beynəlxalq konfransda Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin nitqi

Hörmətli xanımlar və cənablar!

Dəvətimizi qəbul edərək ölkəmizə təşrif buyurmuş çox hörmətli qonaqlar və həmkarlar, dəyərli media nümayəndələri!

Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi çox əlamətdar bir ilə təsadüf edir. Bu il mayın 10-da xalqımız müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycanda məhkəmə sisteminin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır.

Hörmətli həmkarlar,

Çıxışıma Azərbaycan xalqının ədalətli mübarizəsi haqqında qısa məlumat verməklə davam etmək istəyirəm. Bilirsiniz ki, Ermənistanın apardığı işğalçılıq siyasəti nəticəsində torpaqlarımızın 20 faizini təşkil etmiş Qarabağ bölgəmiz və onun ətrafında yerləşən 7 rayonumuz 30 ilə yaxın dövr ərzində işğal altında qalmış, on minlərlə insan etnik mənsubiyyətinə görə öldürülmüş, bir milyona yaxın vətəndaşımız yaşadıqları doğma yerlərdən didərgin salınaraq qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş, şəhər və kəndlərimiz, tarixi abidələrimiz tamamilə dağıdılmış, milli sərvətlərimiz talan edilmişdir.

2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən 44 günlük Vətən müharibəsində Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz böyük şücaət göstərərək, torpaqlarımızı düşmən işğalından azad etmişdir. Azərbaycan dövləti müharibədən dərhal sonra işğal zamanı tamamilə dağıdılmış şəhər və kəndlərdə bərpa və quruculuq işlərinə başlamış, həmin işlər bu gün də uğurla davam etdirilir.

Hörmətli həmkarlar,

Bu gün biz Azərbaycan Respublikasında Ali Məhkəmənin yaradılmasının 100 illik yubileyini qeyd edirik.

XX əsrin əvvəllərindən başlayaraq Azərbaycanın ictimai-siyasi həyatında ciddi dəyişikliklər baş vermiş, xalqımızın apardığı tərəqqi, demokratiya və azadlıq ideyaları uğrunda mübarizənin nəticəsi olaraq 1918-ci ilin 28 mayında şərq-islam dünyasında ilk demokratik respublika - Azərbaycan Xalq Cumhuriyyəti yaradılmışdır.

Azərbaycan Xalq Cumhuriyyəti Nazirlər Şurası tərəfindən 1918-ci il noyabrın 14-də Azərbaycan məhkəmə tarixində ilk dəfə olaraq **“Azərbaycan Məhkəmə Palatası haqqında” Əsasnamə** qəbul edilmişdi. Azərbaycan Məhkəmə Palatası mülki və cinayət departamentlərindən ibarət olmuş, bəzi mühüm işlər üzrə birinci instansiya, əsasən isə apellyasiya instansiyası məhkəməsi kimi fəaliyyət göstərmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin 1918-ci il dekabrın 26-da qəbul etdiyi **“Ədliyyə sahəsində Deklarasiya”nın** ölkədə məhkəmə hakimiyyətinin təşkilində və formalaşmasında böyük əhəmiyyəti olmuşdur. Məhz həmin Deklarasiya ilə məhkəmə hakimiyyətinin təşkili və fəaliyyət prinsipləri müəyyən edilmiş, ədalət mühakiməsinin yalnız məhkəmələr tərəfindən, vətəndaşların məhkəmə və qanun qarşısında bərabərliyi prinsipi əsasında həyata keçirilməsi, hakimlərin müstəqilliyi bəyan edilmişdir.

1920-ci ilin mart ayında “**Ali Məhkəmənin yaradılması haqqında Əsasnamə layihəsi”** hazırlanaraq qəbuledilməsi üçün parlamentə təqdim edilsə də, bolşeviklərin hakimiyyəti ələ keçirməsi Azərbaycan Xalq Cumhuriyyəti tərəfindən Ali Məhkəmənin təsis olunmasına imkan vermədi.

3 il sonra **Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsinin yeni məhkəmə quruluşunun yaradılması ilə əlaqədar qəbul etdiyi 1923-cü il 13 fevral tarixli 8 saylı qərarla Azərbaycan tarixində ilk dəfə Ali Məhkəmə yaradılaraq fəaliyyətə başlamışdır.**

70 illik sovet dönəmində məhkəmə quruluşu dəfələrlə dəyişilsə də, Azərbaycan SSR Ali Məhkəməsi Respublikanın Ali Məhkəmə orqanı kimi mövcud olmaqla, dövrün şərtləri çərçivəsində ölkəmizdə məhkəmə fəaliyyətinin və hüququn inkişafına öz töhfəsini vermişdir.

1991-ci ilin oktyabr ayının 18-də Azərbaycan "Müstəqillik haqqında Konstitusiya Aktı"nı qəbul etməklə, SSRİ-nin tərkibindən ayrılmış və dövlət müstəqilliyini bərpa etmişdir.

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra onun rəhbərliyi ilə Azərbaycan Respublikasında dövlət quruculuğu işinə başlanılmış və 1995-ci ildə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edilmişdir. Konstitusiyamız demokratik quruluşa təminat vermiş, insan hüquqlarının qorunmasını dövlətin ali məqsədi kimi bəyan etmiş, qanunların aliliyini təmin edən hüquqi və dünyəvi dövlət quruculuğu üçün uyğun mexinzimlər yaratmış, xüsusən də məhkəmə hakimiyyətinin müstəqilliyini təsbit edərək, hakimlərin işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və yalnız qanunlara tabe olmaqla baxacaqlarını müəyyən etmişdir.

Yeni təsis edilmiş Hüquqi İslahatlar Komissiyası tərəfindən qısa müddət ərzində məhkəmə hakimiyyətinin fəaliyyəti üçün zəruri olan bütün normativ hüquqi bazanın formalaşdırılmasına nail olunmuşdur. Elə 1997-ci ildə qəbul edilmiş "Məhkəmələr və hakimlər haqqında" Qanunla Azərbaycan Respublikasında məhkəmələrin təsis olunması prinsipləri, ədalət mühakiməsinin həyata keçirilməsinə dair əsas müddəalar, ölkəmizdə məhkəmə sistemi, hakimlərin statusu, müstəqilliyi ilə bağlı məsələlər təsbit olunmuşdur. Xüsusilə qeyd etməliyəm ki, məhkəmə sisteminin yenidən qurulması işi və bu sahədə həyata keçirilən fəaliyyət beynəlxalq hüququn norma və prinsiplərini nəzərə almaqla həyata keçirilmiş, bu prosesdə beynəlxalq təşkilatlar və qabaqcıl təcrübəyə malik ölkələrlə sıx əməkdaşlıq edilmişdir. Həmin dövrdə görülmüş işlərə nəzərə salarkən Ulu Öndər Heydər Əliyev bəyan etmişdir ki, **"...biz Azərbaycanın məhkəmə sistemini tamamilə müasir səviyyəyə qaldırdıq və demokratik prinsiplər əsasında yaratdıq".**

Hazırda ölkəmizdə üç pilləli məhkəmə sistemi mövcuddur, məhkəmələrə çatımlılığı təmin etmək üçün regionlarda yaradılmış apellyasiya instansiyası və ixtisaslaşmış ağır cinayətlər, kommersiya və inzibati məhkəmələr fəaliyyət göstərir. 2011-ci ildən fəaliyyət göstərməyə başlamış inzibati məhkəmələr isə dövlət orqanlarının qərar və hərəkətlərindən verilmiş şikayətlərə baxılması ilə bağlı uğurlu bir mexanizm kimi hüquq sistemimizdə öz layiqli yerini tutmuşdur.

Azərbaycan Respublikası 2001-ci il yanvarın 25-də Avropa Şurasına daxil olmuş, ölkəmiz "İnsan Hüquqlarının və Əsas Azadlıqların Müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşularaq İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin yurisdiksiyasını tanımışdır. Bu gün ölkəmizdə Konvensiya və Avropa Məhkəməsinin presedent hüququ daxili qanunvericiliyimizin tərkib hissəsi kimi qəbul edilir və hüquq tətbiqetmə təcrübəsində məhkəmələr tərəfindən rəhbər tutulur.

Hörmətli konfrans iştirakçıları,

Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin siyasətinin əsas istiqamətlərindən birini də məhkəmə-hüquq sistemində aparılan davamlı islahatlar təşkil edir. Əldə olunmuş uğurlar onun qətiyyətli siyasi iradəsi və davamlı diqqətinin nəticəsidir.

2014-cü ildə məhz cənab Prezidentin "Elektron məhkəmə informasiya sisteminin yaradılması haqqında" Sərəncamı ilə nəzərdə tutulmuş işlərin ardıcıl həyata keçirilməsi nəticəsində bu gün ölkəmizdə məhkəmə fəaliyyətinin elektronlaşması sahəsində ciddi uğurlar əldə edilmişdir. Məhkəməyə müraciət anından məhkəmə qərarlarının icrasının tamamlanmasına qədər olan bütün prosesi əhatə edən elektron sistemin tətbiqi ədalət mühakiməsinə ictimai etimadı artırmış, vətəndaşların məhkəmələrə müraciəti imkanlarını asanlaşdıraraq, işlərə baxılmasını tezləşdirmişdir. Sistem bütün məhkəmə instansiyalarını vahid şəbəkədə birləşdirir, qanunvericiliyin tələblərinə uyğun çoxsaylı hesabatlar hazırlayır və məhkəmə qurumlarının fəaliyyətini qiymətləndirməyə yardım edir.

Ölkə başçısının "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" 2019-cu il 3 aprel tarixli Fərmanını isə biz ölkəmizdə məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanması, bu sahədə çoxşaxəli yol xəritəsi kimi qəbul edirik. Müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesini sürətləndirmək məqsədini daşıyan yeni islahatlar paketinin əsas hədəflərini diqqətinizə çatdırmaq istərdim. Bunlara məhkəməyə müraciət imkanlarının genişləndirilməsi, məhkəmələrin fəaliyyətində şəffaflığın artırılması, hüquqi məsələlərə

yanaşmanın sabitliyini təmin etməklə məhkəmə icraatının effektivliyinin yüksəldilməsi, məhkəmə qərarlarının tam və vaxtında icrasının təmin edilməsi, süründürməçiliyin aradan qaldırılması və digər mühüm məsələlər aiddir.

Qeyd edilən hədəflərə çatılması üçün ötən 3 il ərzində qanunvericilik aktlarına çoxsaylı əlavələr və dəyişikliklər edilmiş, o cümlədən vahid məhkəmə təcrübəsinin yaradılması və inkişaf etdirilməsi istiqamətində irimiqyaslı əməli işlər görülmüşdür.

Bugünkü yubiley konfransının mövzusunu seçərkən də biz, məhz məhkəmə icraatının effektivliyinin təmin olunması baxımından mühüm hesab olunan hüquqi məsələlərə yanaşmanın sabitliyini təmin edən vahid məhkəmə təcrübəsinin bərqərar olunmasında Ali Məhkəmənin rolunu nəzərə almışıq. Niyyətimiz vahid məhkəmə təcrübəsinin yaradılması sahəsində gördüyümüz işlərlə bağlı sizləri məlumatlandırmaqla yanaşı, əslində bütün ölkələrə xas olan problem olduğunu düşündüyümüz bu məsələ ilə bağlı həm də sizin təcrübələri öyrənmək, hamımızı narahat edən problem və çağırışlar ətrafında müzakirələr aparmaq, həll yollarını və vasitələrini birgə müəyyən etməkdir.

Fikrimizcə, məhkəmə praktikasının vahidliyinin və ardıcıllığının təmin olunmasının hər bir ölkənin hüquq sistemi üçün böyük əhəmiyyəti vardır. Vahid məhkəmə təcrübəsinin mövcudluğu məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmalarının sabitliyinin və ədalət mühakiməsi həyata keçirilərkən maddi və prosessual hüquq normalarının eyni cür tətbiq edilməsinin təminatı kimi çıxış edir. Qanunun eyni cür tətbiqi hüququn ümumiliyini, qanun qarşısında bərabərliyi və hüquqi müəyyənliyi təmin edir. Hüquqi dövlətdə bu prinsiplərin hakim olması şəxslərin ədalət mühakiməsinə və məhkəmələrə olan inamını artırır, onlara öz hərəkətlərinin hüquqi nəticələrini öncədən görmə imkanı verir. Bundan başqa, vahid məhkəmə təcrübəsinin mövcudluğu oxşar məhkəmə işlərinin həllinin müəyyənləşməsini təmin etməklə mübahisələrin məhkəmədən kənar həllinə kömək edir, bununla həm də son nəticədə ədalət mühakiməsinin səmərəliliyinin və keyfiyyətinin artırılmasına töhfə verilmiş olur. Odur ki, nəinki hüquq normaları birmənalı və aydın olmalıdır, həm də məhkəmə təcrübəsində vahid qaydada tətbiq edilməlidir, yəni vətəndaşa hüquq tətbiq edənin hərəkətlərinin müəyyənləşə biləcəyinə dair əminlik verilməlidir.

Yüksək məhkəmələrin işi ayrı-ayrı mübahisələri həll etməklə yanaşı, hüququn tətbiqi ilə bağlı vahid məhkəmə təcrübəsi yaratmaq və onun davamlı inkişafını təmin etməkdir. Ona görə də, hüquq tətbiqetmədə mövcud olan ziddiyyətləri həll etmək ilk növbədə Ali Məhkəmənin işi kimi qəbul edilir. Məhz Ali Məhkəmə uyğunsuzluqları aradan qaldırmaq üçün məhkəmə təcrübəsinin vahidliyini təmin etməli və bununla da, məhkəmə sisteminə ictimai etimadı qoruyub saxlamalıdır. Ziddiyyətli məhkəmə qərarlarının davamlı mövcudluğu məhkəmə sisteminə inamın azalmasına səbəb ola biləcək hüquqi qeyri-müəyyənlik vəziyyəti yarada bilər. Məhkəmə sistemi daxilində hüquqi məsələlərin həllində vahidliyin təmin edilməsi üçün müvafiq hüquqi mexanizmlərin olması isə ali məhkəmələrin fəaliyyəti ilə bağlı xüsusilə aktualdır.

Azərbaycanda biz son illər ərzində bu sahədə yeni hüquqi mexanizmlərin yaradılmasından tutmuş, məhkəmənin praktik fəaliyyətinin yeni yanaşmalar tətbiq etməklə təkmilləşdirilməsinə qədər bir sıra əhəmiyyətli işlər görmüşük. Konfransın gedişində biz bu barədə sizlərə ətraflı məlumat verəcəyik. Ali Məhkəmə olaraq, biz, həmçinin qanunyaradıcı fəaliyyətdə də yaxından iştirak edirik, təcrübədə qarşılaşdığımız bir çox problemləri həll etmək üçün qanunvericiliyə edilmiş bir sıra mühüm dəyişikliklər məhz bizim təşəbbüsümüz əsasında baş vermişdir.

Hörmətli həmkarlar,

Müasir cəmiyyətlərin qarşılaşdığı yeni çağırışlar və ehtiyaclar ali məhkəmələrdən də yeni yanaşmalar tələb edir. Onlar insan hüquqlarının müdafiəsinə yönəlmiş ən qabaqcıl standartların milli sistemlərə gətirilməsində, eləcə də hüququn üstünlüyünü təmin edəcək mexanizmlərin işlək və səmərli olmasında mühüm rol almalıdırlar. Bunun üçün isə ali məhkəmələr tarixi inkişaf perspektivində qazanılmış uğurları qorumaqla yanaşı, həm də ortaya çıxan yeni çağırışları nəzərə almaqla özlərini davamlı yeniləməli, ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı yaranan problemlərə həllər tapmalı, eləcə də yeni problemlərə uyğun məhkəmə siyasəti formalaşdırmalıdırlar.

**Məhkəmələrə olan cəmiyyətdəki etimadı möhkəmləndirmək və daim artırmaq** əsas hədəflərimizdən biridir. Hamıya bəlli olan gerçəklik ondan ibarətdir ki, cəmiyyətin ədalət mühakiməsinə olan etimadı öz-özünə yaranacaq bir hal deyildir. Bu, məhkəmələrin ardıcıl və məqsədyönlü əməyinin nəticəsi olaraq yaranan bir vəziyyətdir. Bu işdə heç şübhəsiz ki, ali məhkəmələrin rolu həlledicidir.

Ədalət mühakiməsinin həyata keçirilməsinin əsas prinsiplərindən biri olan şəffaflıq yalnız məhkəmə zallarına və qərarlara çatımlılığın təmin edilməsi kimi başa düşülməməlidir. Şəffaflıq artıq bizdən həm də onu tələb edir ki, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılmasına yönəlmiş həyata keçirilən bütün məhkəmə fəaliyyəti barədə məlumatlar da cəmiyyətlə bölüşülməlidir. Bu, insanların məhkəmə sisteminə etimadının möhkəmləndirilməsinə xidmət edir.

**Ali Məhkəmənin qərarlarına cəmiyyətin çatımlılığı da təmin edilməlidir.** Qərarların dərc edilməsi və yayılması nəinki hakimlərin, vəkillərin və hüquqşünasların, həm də cəmiyyətin bütün digər təbəqələrinin Ali Məhkəmənin fəaliyyəti haqqında məlumat əldə etməsinə və onları incələməsinə şərait yaradır. Qərarların dərc edilməsi xüsusilə vahid məhkəmə təcrübəsinin yaradılmasının, məhkəmə qərarlarının ardıcıllığının və proqnozlaşdırıla bilən olmasını təmin etmənin güclü bir vasitəsidir. Bununla, hüququn məhkəmələr tərəfindən tətbiqi təcrübəsi ardıcıl hala gəlir, sistemli pozuntular aradan qaldırılır, məhkəmələrin fəaliyyətində eyni faktiki halları olan işlərə münasibətdə fərqli yanaşmanın qarşısı alınır. Qeyd etmək istəyirəm ki, biz ölkəmizdə Ali Məhkəmənin bütün qərarlarının anonimləşdirilmiş qaydada dərc edilməsini təmin edirik.

Aydındır ki, **sosial media** həyat və fəaliyyətimizdə müəyyən rola malikdir. Sosial media bizə müxtəlif üstünlüklər təmin etməklə yanaşı, məhkəmə fəaliyyəti ilə əlaqədar müstəqillik, qərəzsizlik və dürüstlük prinsiplərinin pozulmasına gətirib çıxara biləcək risklər də yaradır. Xüsusilə də məhkəmə fəaliyyətinə cəmiyyətin və ya ayrı-ayrı qrupların sosial media vasitəsilə müdaxilə və təsir etməsi yəqin ki, hər bir ölkənin qarşılaşdığı problemdir. Sosial mediadan bu qaydada istifadə yolverilməzdir və məhkəmə fəaliyyətinə müdaxilə qanunla nəzərdə tutulmuş məsuliyyətə səbəb olmalıdır. Söz və ifadə azadlığının hər bir cəmiyyətdə ən təməl hüquqlardan biri olduğunu hamımız qəbul edirik. Lakin sosial mediadan istifadə məhkəmələrə olan etimadı zədələyəcək formada olmamalı, icraatda olan məhkəmə işlərinə müdaxilə və təsir şəklində aparılmamalı, yekunlaşmış məhkəmə icraatları üzrə çıxarılmış qərarların qanuniliyi və ədalətliliyi istehza predmetinə çevrilməməlidir.

Hüququn aliliyinin və məhkəmələrə etimadın təmin edilməsi fikrimizcə, **hüquq təhsili ilə** də sıx bağlı bir məsələdir. Məktəblərdə, xüsusilə də universitetlərdə əsas hüquq prinsipləri və məhkəmə fəaliyyəti haqqında proqramların tədris olunması ümumən məhkəmə sistemi və onun fəaliyyəti haqqında dürüst məlumatların cəmiyyətə ötürülməsini təmin etməklə yanaşı, həm də məhkəmə fəaliyyəti haqqında yanlış qənaətlərin formalaşmasının qarşısını alır. Bu baxımdan, Ali Məhkəmə hüquq fakültələri ilə sıx əlaqə qurur, gələcəyin hüquqşünaslarının tədris proqramlarına fəal dəstək verir.

Hörmətli xanımlar və cənablar,

Dünyanın harasında yaşamasından, fərqli mədəniyyətə sahib olmağımızdan və müxtəlif tarixi inkişaf yolu keçməyimizdən asılı olmayaraq, bu gün biz hamımız bütöv bir ailənin fərdlərini təşkil edirik. Birlikdə sülh şəraitində təhlükəsiz yaşamaq, ədalətin və hüququn aliliyini təmin etmək, rifah içində inkişaf edə bilmək üçün ortaq bir hüquq mədəniyyətinə ehtiyacımız vardır. Bu mədəniyyət ədalətin və insan hüquqlarının əsas dəyər kimi qəbul edilməsini, onların hamı üçün bərabər şəkildə təmin olunmasını, eyni zamanda demokratik idarəçiliyin və hüququn üstünlüyünün bərqərar olunmasını tələb edir. Bizim inancımıza görə sözügedən dəyərlər ayrılıqda heç bir dövlətə, coğrafiyaya və idelogiyaya aid deyil, onlar min illər ərzində qazanılmış bütün bəşəriyyətin ortaq mirasıdır.

Bu gün ali məhkəmələr yalnız kassasiya qaydasında işlərə baxan məhkəmə orqanı deyil. Onlar ümumi məhkəmə sisteminin son instansiyası olmaqla ədalət mühakiməsinin həyata keçirilməsi ilə bağlı mövcud problemlərin ən yaxşı hiss olunduğu və göründüyü yerlərdir. Ali Məhkəmə hər bir ölkədə ədalət mühakiməsinin fəaliyyəti ilə bağlı ən doğru və zəngin məlumatlara sahibdir, ona görə də, həm də ən düzgün təsbitləri edəcək orqanlardan biridir. Hesab edirik ki, ədalət mühakiməsinin keyfiyyətinin və səmərəliliyinin artırılması sahəsində görülməli işlərdə Ali Məhkəmə yaxından iştirak etməlidir. Ali Məhkəmənin bu rolu ondan daim məhkəmə-hüquq sistemindəki islahatların aparıcı qüvvəsi olmağı tələb edir. Buraya qanunvericilik sahəsində mövcud olan problemləri aradan qaldırmaq üçün müvafiq təkliflərin verilməsi, vahid məhkəmə təcrübəsinin təmin edilməsi, məhkəmə sisteminin keyfiyyətli və səmərəli fəaliyyət göstərməsini təmin etməyə yönəlmiş əməli işlərin görülməsi və fəal beynəlxalq əməkdaşlıq qurmaqla ən yaxşı təcrübələrin və yüksək standartların milli sistemlərə gətirilməsinə nail olmaq daxildir.

Hörmətli həmkarlar !

Bildiyiniz kimi, keçən həftə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Ali Məhkəmənin hakimləri və əməkdaşları dövlət orden və medalları ilə təltif ediliblər. Mən bununla əlaqədar öz həmkarlarımı təbrik edirəm.

Eləcə də məhkəmə hakimiyyətinin müstəqilliyinin təmin edilməsinə, məhkəmə sisteminə diqqətin bariz nümunəsi kimi, 100 illiyi ərəfəsində Azərbaycan Respublikası Ali Məhkəməsinin hakim və əməkdaşlarına yüksək dövlət təltiflərini verdiyinə, bugünkü beynəlxalq konfransın keçirilməsinə göstərdiyi dəstəyə və konfrans iştirakçılarına ünvanladığı müraciətə görə Ali Məhkəmə adından Azərbaycan Respublikasının Prezidenti möhtərəm İlham Əliyevə minnətdarlıq bildirir, ona cansağlığı, bölgədə və dünyada sülhün bərqərar olunması, tərəqqi naminə fəaliyyətində uğurlar arzu edirik.

Diqqətinizə görə təşəkkür edirəm!

## Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayevin nitqi

Hörmətli Sədr Ramiz Rzayev,
Hörmətli həmkarlar,
Xanımlar və cənablar,
Hörmətli xaricdən gələn dəyərli qonaqlar!

İlk öncə Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə başda sədr Ramiz Rzayev olmaqla, Ali Məhkəmənin bütün kollektivini, eləcə də Ali Məhkəmədə ötən illər ərzində çalışan çoxsaylı ləyaqətli, ədalətli hakim və hüquq işçilərini Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi adından təbrik etmək istərdim.




Məlum olduğu kimi, hüquqi dövlətin inkişaf etməsində xüsusi yer məhkəmə hakimiyyətinə məxsus olmaqla, məhkəmələr, o cümlədən Ali Məhkəmə, bu missiyanı böyük məsuliyyətlə həyata keçirir. Ali Məhkəmə qəbul etdiyi qərarları ilə cəmiyyətdə qanunçuluğun və hüququn aliliyinin təmin edilməsinə öz əhəmiyyətli töhfəsini verir. Bu töhfə öz növbəsində vətəndaş cəmiyyətinin inkişafında və sosial ədalətin bərpa edilməsində mühüm rol oynayır və özəlliklə vurğulanmalıdır ki, Ali Məhkəmə bu prosesdə xüsusi yer tutur.

Hörmətli Konfrans iştirakçıları,

İnsan hüquqlarının müdafiəsi bu il 100 illik yubileyi dövlət səviyyəsində və bütün xalqımız tərəfindən qeyd ediləcək Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin əsaslarından biri olub. Belə ki, Ulu Öndər Heydər Əliyev hüquqi dövlət quruculuğunun əsas şərti kimi məhz insan hüquq və azadlıqlarının müdafiəsi zərurətini hər zaman vurğulayıb.

Təsadüfi deyil ki, Azərbaycan Respublikası Konstitusiyasının da ən geniş fəsli bütövlükdə əsas insan və vətəndaş hüquq və azadlıqlarına həsr edilmişdir.

Belə ki, müasir cəmiyyətdə insan hüquq vəazadlıqlarının təminatı mexanizmlərinin mövcudluğu olduqca mühüm əhəmiyyət kəsb edir.

Bu hüquq və azadlıqların etibarlı şəkildə təmin edilməsində müstəsna rol əlbəttə ki, məhkəmə müdafiəsinə məxsusdur. Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən və müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul edildikdən sonra ölkənin hüquq, eyni zamanda məhkəmə sistemində köklü islahatlar aparılmışdır. Ölkəmizdə ardıcıl olaraq fundamental dəyişikliklər həyata keçirilərək, məhkəmə-hüquq sistemi demokratik prinsiplər əsasında yenidən qurulmuşdur və bu gün məhkəmə sisteminin təkmilləşdirilməsi prosesi davam edir. Burada əsas prioritet məsələlər məhkəmə icraatının keyfiyyətinin artırılması, insan hüquq və azadlıqlarının daha effektiv şəkildə müdafiə edilməsidir. Məhkəmə-hüquq sisteminin inkişaf etdirilməsindən bəhs edərkən ilk öncə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanan “Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında” 2019-cu il 3 aprel tarixli Fərmanı xüsusilə vurğulamaq lazımdır. Bu Fərman dövlət başçısı tərəfindən daim diqqət mərkəzində saxlanılan məhkəmə-hüquq islahatlarının mühüm tərkib hissəsidir.

Xanımlar və cənablar,

Bugünkü konfrans Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında roluna həsr edilib. Ali Məhkəmənin məhkəmələrin praktikasının təkmilləşdirilməsi ilə bağlı vəzifəsi Azərbaycan Respublikası Konstitusiyasının 131-ci maddəsində öz əksini tapıb. Qanunvericiliyə edilmiş müvafiq dəyişikliklərdən sonra vahid məhkəmə təcrübəsini formalaşdırmaq vəzifəsinin həyata keçirilməsi proseduru daha da təkmilləşdirilmişdir.

Bəzi hallarda qanunvericiliyə edilən dəyişikliklər hüquqtətbiqetmə təcrübəsində müəyyən sualların ortaya çıxmasına səbəb ola bilər. Bu təbii bir haldır, çünki yeni norma məhz hüquqtətbiqetmə prosesi çərçivəsində təkmilləşdirilir və vahid məhkəmə təcrübəsinin formalaşması həmin normanın yekdil formada dərk edilməsinə zəmin yaradır. Əks halda hüquq normasının məhkəmələr tərəfindən fərqli tətbiqi oxşar mübahisələr üzrə fərqli qərarların qəbul edilməsi ilə nəticələnir, bu isə hüquq və azadlıqların məhkəmə qaydasında müdafiəsinin səmərəliliyini azaldır. Məhkəmələr tərəfindən hüquq normasının eyni qaydada tətbiqi vahid məhkəmə təcrübəsinin formalaşmasına xidmət etməklə yanaşı, həmçinin işlərin çevik şəkildə baxılması, daha əsaslandırılmış qərarların qəbul edilməsi, davamlı məhkəmə çəkişmələrinin qarşısının alınması, eyni zamanda vətəndaşların bu qərarlara etimadla yanaşması üçün əsas yaradır.

Beləliklə, məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi olduqca mühüm bir məsələdir. Fikrimcə, hüquqtətbiqedici orqanların birgə fəaliyyəti nəticəsində buna nail olmaq mümkündür. Bu mənada Konstitusiya Məhkəməsi ilə digər dövlət orqanları, o cümlədən Ali Məhkəmə arasındakı əməkdaşlıq xüsusi əhəmiyyət kəsb edir.

Hörmətli Konfrans iştirakçıları,

Dünyada müşahidə edilən kifayət qədər mürəkkəb proseslərə baxmayaraq, bizim dövlətimiz gündən-günə güclənərək olduqca şanlı dövrünü yaşayır. Ötən dövr ərzində ən mühüm hadisə isə şübhəsiz ki, torpaqlarımızın işğaldan azad edilməsi oldu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun erməni işğalçıları üzərində qazandığı hərbi-siyasi zəfər xalqımızın çoxəsrlik tarixinin ən mühüm hadisəsidir. 44 gün davam edən və işğal altındakı torpaqlarımızın azad edilməsi ilə nəticələnən Vətən müharibəsində Azərbaycan Ordusu tarixi qələbə qazandı, döyüş meydanında böyük şücaət nümayiş etdirdi. Azərbaycan əsgəri nümunəvi igidliyi ilə dövlətimizin ərazi bütövlüyünü cəsarətlə və şərəflə qorudu.

Dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi iradə və qətiyyəti, Ordumuzun gücü və xalqımızın ölkə Prezidenti ətrafında bir məqsəd naminə səfərbərliyi Azərbaycanın parlaq qələbəsini təmin etdi.

Qazanılan Qələbə bütün cəmiyyətimiz kimi, onun ayrılmaz tərkib hissəsi olan məhkəmələri də ruhlandıraraq, azad olunmuş ərazilərdə Konstitusiyanın birbaşa qüvvəsinin təmin edilməsi, qanunçuluğun bərqərar olunması, insan hüquq və azadlıqlarının bərpa edilməsində daha da məsuliyyətlə çalışmağa sövq edir.

Bununla belə, torpaqlarımızın işğaldan azad edilməsi vətəndaşlarımızın Konstitusiyada təsbit edilmiş bir sıra hüquqlarının bərpası üçün zəmin yaratsa da, Ermənistanın hərbi-siyasi rəhbərliyi tərəfindən minaların xəritələrinin verilməməsi həmin hüquqların praktiki müstəvidə həyata keçirilməsinə əngəl yaradır.

Dünya ictimaiyyəti, beynəlxalq hüquq üzrə mütəxəssislər sülh və azadlıq naminə Ermənistan hökumətinin bu mövqeyinə birmənalı qiymət verməlidirlər.

Biz bu gün işğaldan azad edilmiş ərazilərin yüksək sürətlə yenidən qurulması prosesinin şahidiyik. Realizə edilən bütün genişmiqyaslı layihələr bu rayonların dirçəlməsinə, burada əhalinin məskunlaşmasına xidmət edir, eyni zamanda həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün əsas yaradır.

Hörmətli həmkarlar,

Qeyd etdiyim kimi, məhkəmələrin fəaliyyətini bir-birindən təcrid edilmiş şəkildə təsəvvür etmək qeyri-mümkündür. Yalnız birgə fəaliyyət, əməkdaşlıq sayəsində effektiv nəticələr əldə etmək mümkündür. Ölkəmizin Ali Məhkəməsi və digər dövlət orqanlarının, o cümlədən ölkə məhkəmələrinin qarşılıqlı əməkdaşlığı nəticəsində bu günə qədər Konstitusiya Məhkəməsi tərəfindən hüquqtətbiqetmə baxımından əhəmiyyətli hüquqi mövqelər formalaşdırılmışdır. Zənnimcə, vahid məhkəmə təcrübəsinin formalaşdırılması baxımından bu cür birgə səylər gələcəkdə də davam etdirilməlidir.

Mən bir daha sədr Ramiz Rzayev başda olmaqla, Ali Məhkəmənin bütün hakimlərini, əməkdaşlarını əlamətdar yubiley münasibəti ilə ürəkdən təbrik edir, dövlət başçısı tərəfindən yüksək dövlət təltiflərinə layiq görülmələri münasibəti ilə təbrik edir, qanunçuluğun və ədalətin təmin edilməsi şərəfli missiyasının həyata keçirilməsində yeni-yeni uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

## Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikasının ədliyyə naziri, Məhkəmə-Hüquq Şurasının sədri cənab Fikrət Məmmədovun nitqi

Hörmətli konfrans iştirakçıları,

İlk növbədə Ali Məhkəmənin kollektivini və məhkəmə hakimiyyətinin bütün təmsilçilərini bu əlamətdar yubiley münasibətilə ədliyyə işçiləri adından ürəkdən təbrik edirəm.

Bu yubiley həm də onunla əlamətdardır ki, o Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü il dönümündə - “Heydər Əliyev İli”ndə qeyd olunur.

Ulu Öndərin "tariximizin hər səhifəsi bizim üçün əzizdir" fikrinə sadiq qalaraq məhkəmə sistemimizin inkişafı yolunda bəzi mühüm məsələlərə nəzər salmaya bilmərik.

Hələ qədim dövrlərdə Azərbaycanda yaranmış dövlətlərdə məhkəmələrin fəaliyyətində müstəqillik, tərəflərin bərabərliyi və çəkişmə kimi mühüm prinsiplərin elementləri, xüsusilə də çoxpillələlik institutu mövcud olmuşdur.




Eyni zamanda hakimlər üçün tələblərə, onların təminatına xüsusi əhəmiyyət verilmişdir.

Orta əsrlərdə “Qazan xan islahatları” kimi məşhurlaşan hüquq islahatı Azərbaycanda məhkəmələrin müstəqilliyinin təmin olunmasına, onların kənar müdaxilədən qorunmasına, işlərə baxılarkən ədalətin gözlənilməsinə yönəlmişdi.

1918-ci ildə müsəlman Şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyətində demokratik hüquq sisteminin formalaşması, mütərəqqi məhkəmə islahatının aparılması üçün önəmli addımlar atılmış, lakin təəssüf ki, ölkənin işğalı bu taleyüklü işlərin başa çatdırılmasına, ali məhkəmə orqanının yaradılmasına imkan verməmişdi.

Və düz 100 il əvvəl məhz bu gün Azərbaycanda ali məhkəmə orqanı bərqərar olmuşdur.

Sovet hakimiyyəti illərində keşməkeşli yollar qət edən məhkəmə-hüquq sistemimizin dayanıqlı fəaliyyəti Ümummilli Lider Heydər Əliyevin 1969-cu ildə Azərbaycan rəhbərliyinə gəlişi dövrünə təsadüf edir.

Ədalət, qanunçuluq və hüquq qaydalarının təminatını hər zaman üstün tutan Heydər Əliyev “ədaləti ədalətsizliklə bərpa etmək olmaz” deyərək qanunun aliliyini əsas meyar saydı.

Cinayətkarlığa, korrupsiyaya qarşı SSRİ məkanında ilk dəfə aşkar və cəsarətli çıxış edərək barışmaz münasibət göstərdi, vətəndaş məmnunluğunu təmin etdi.

Ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra xalqın tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev demokratik, hüquqi dövlətin təməlini qoydu və mütərəqqi hüquqi islahatlar həyata keçirildi.

Yeni, müasir qanunlar və məcəllələr qəbul olundu, üçpilləli müstəqil məhkəmə sistemi və bu hakimiyyətdə mühüm rol oynayan Ali Məhkəmə formalaşdırıldı.

Məhkəmələrə insan haqlarının qorunması ilə bağlı müstəsna səlahiyyətlər verildi, Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu. Humanizm prinsiplərinə sadiqlik göstərilərək şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv olundu.

Həmçinin Ali Məhkəmə demokratik cəmiyyətə xas olmayan nəzarət funksiyalarından azad edildi və onun sırf kassasiya instansiyası kimi yalnız hüquqi məsələləri araşdırması və prosesdə vəkilin mütləq iştirakı təsbit olundu.

Dövlətçilik tariximizdə ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə hakim seçimi keçirilərək təyinatlar aparıldı. Əvvəlki hakim korpusu 60% təzələndi. Bundan dərhal sonra ABŞ-da olarkən Ümummilli Liderin səsləndirdiyi fikirləri biz bir az əvvəl nümayiş etdirilən filmdə də seyr etdik.

Hörmətli tədbir iştirakçıları,

Ölkə Prezidenti cənab İlham Əliyev Azərbaycanın rəhbərliyinə gəldiyi ilk günlərdən məhkəmə hakimiyyətinin müasir çağırışlara uyğun inkişafı, məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və şəffaflığın artırılması, onun cəmiyyətdə nüfuzunun yüksəldilməsi üzrə tövsiyə və tapşırıqlar vermiş, bu istiqamətdə mütərəqqi islahatlara başlanılmışdır.

İslahatlar zamanı Avropa Şurası ilə əməkdaşlıqda məhkəmə fəaliyyətini tənzimləyən mövcud qanunvericilik mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla demək olar ki, hər il təkmilləşdirilmiş, yeni qanunlar qəbul edilmişdir.

Mühüm institusional tədbirlər görülərək məhkəmə hakimiyyətinin müstəqil özünüidarə orqanı olan Məhkəmə-Hüquq Şurası və həmçinin Hakimlərin Seçki Komitəsi yaradılmış, hakimliyə namizədlərin beynəlxalq aləmdə təqdir olunan ən mütərəqqi və şəffaf seçimi qaydası müəyyən olunmuşdur.

Eyni zamanda məhkəmə hakimiyyətinin müstəqilliyinin əlavə təminatları yaradılmış, onun fəaliyyətinə müdaxilələrin Məhkəmə-Hüquq Şurası tərəfindən qarşısının alınması mexanizmləri müəyyən edilmiş, məhkəmə büdcələri təsdiq olunarkən Şura ilə razılaşdırılması, habelə hakimlərin əmək haqqının azaldılmasının qanunla qadağan olunması təsbit edilmiş, digər tədbirlər görülmüşdür.

Vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılması məqsədilə məhkəmə sistemi təkmilləşdirilmiş və 40-dək yeni məhkəmə, o cümlədən bütün bölgələrdə apellyasiya məhkəmələri, inzibati ədliyyə institutu yaradılmışdır. Mövcud məhkəmə infrastrukturu Dünya Bankının iştirakı ilə müasirləşdirilərək paytaxtda və bölgələrdə 35 məhkəmə üçün yüksək texnoloji - hi-tech bina və komplekslər inşa olunaraq istifadəyə verilmişdir.

Bu məhkəmələrin əksəriyyətinin ölkə Prezidenti tərəfindən açılışının şəxsən həyata keçirilməsi məhkəmə hakimiyyətinə dövlətimizin verdiyi müstəsna dəyərin bariz təzahürüdür.

Eyni zamanda məhkəmələrə əlçatanlığın yaxşılaşdırılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə məhkəmə fəaliyyəti elektronlaşdırılmış, insanların məhkəməyə müraciət etdiyi andan məhkəmə qərarının icrasına qədər bütün prosesi əhatə edən "Elektron məhkəmə" informasiya sistemi yaradılmışdır.

Artıq məhkəmələrin 80%-ə qədərində tətbiq edilən bu sistemin yaxın aylarda ölkənin bütün məhkəmələrini əhatə etməsi nəzərdə tutulur.

Qeyd olunmalıdır ki, məhkəmə islahatlarımız beynəlxalq aləmdə də təqdir olunur. Ölkəmiz bu sahədə nailiyyətlərinə görə Avropa Şurasının "Ədliyyənin Kristal Tərəzisi" mükafatına layiq görülmüş, Dünya Bankı ilə birgə həyata keçirilən ədliyyə sisteminin müasirləşdirilməsi üzrə layihələrimiz ən uğurlu layihələr kimi müxtəlif nominasiyaların qalibi olmuşdur. Öz şəffaflığı ilə fərqlənən hakimlərin seçimi prosedurumuz isə Avropa Şurası və Avropa İttifaqı tərəfindən örnək kimi dəyərləndirilərək digər dövlətlərə ondan bəhrələnmək tövsiyə edilmişdir.

Məhkəmə fəaliyyəti ilə bağlı bütün məsələlərin tənzimlənməsində Azərbaycan Respublikasının Ali Məhkəməsi fəal iştirak edir.

Belə ki, Ali Məhkəmənin sədri, habelə məhkəmənin 2 hakimi Məhkəmə-Hüquq Şurasının, daha 2 hakimi isə Hakimlərin Seçki Komitəsinin üzvü olmaqla bu sahədə qərarların qəbulunda birbaşa iştirak edirlər. Komitənin ilk sədri də məhz Ali Məhkəmənin hakimi seçilmişdir.

Bununla yanaşı, hakimlərin məsuliyyət hissinin artırılmasında Ali Məhkəmə mühüm rola malik olmaqla, məhkəmə səhvlərinin profilaktikasında prinsipial və təsirli mövqe göstərir, kobud pozuntulara qarşı intizam icraatını təşviq edir, digər tədbirlər görür.

Məhkəmə islahatları daim davam edən prosesdir. Ali Məhkəmənin binasının təməlinin qoyulması mərasimində möhtərəm cənab Prezident demişdir ki, bu islahatların əvvəli var, amma sonu yoxdur.

Bununla əlaqədar dövlət başçısının 3 aprel 2019-cu il tarixdə imzaladığı Fərmanla məhkəmə islahatlarımız müasir çağırışlara uyğun olaraq yeni mərhələyə keçmişdir.

Hörmətli məruzəçi Ramiz müəllim Fərmanın icrası üzrə görülmüş işlərə toxundu. Təkrarçılığa yol verməmək üçün istərdim bu sahədə qısa müddətdə görülmüş nəhəng işlərdən yalnız bəzi məqamların üzərində dayanım.

Belə ki, institional tədbirlər çərçivəsində 13 regional məhkəmə, o cümlədən bölgələrdə ayrıca inzibati və kommersiya məhkəmələri yaradılmış, özəl ekspertiza təsbit olunmuş, mediasiya institutu fəaliyyətə başlamışdır.

Sadələşdirilmiş və yazılı icraatın genişləndirilməsi, proseslərdə video-konfransın və elektron icraatın tətbiqi, məhkəmə rüsumlarının differensiasiyası ədalət mühakiməsinin səmərəliliyinə müsbət təsir göstərmişdir.

Eyni zamanda Fərmana uyğun olaraq hakimlərin fəaliyyətinin müasir tələblərə cavab verən yeni, şəffaf qiymətləndirmə qaydaları müəyyən edilmişdir. Və bu prosesdə Ali Məhkəmə əhəmiyyətli rol oynayır, hər bir hakimin fəaliyyətini ətraflı və prinsipial təhlil etməklə rəylər verir. Məhkəmə-Hüquq Şurasının üzvü olan Ali Məhkəmənin hakimləri qiymətləndirmə prosesində bilavasitə və fəal iştirak edirlər.

Fərmanla həmçinin hakimlərimizin sayı 200 vahid artırılmış, bu ştatların tezliklə komplektləşdirilməsi məqsədilə hakimlərin seçimi davamlı xarakter almış və artıq 123 nəfər birinci instansiya məhkəmələrinin hakimi təyin edilmişdir. Onların yarıya qədərini qadınların təşkil etməsi xüsusi qeyd olunmalıdır. Bu isə daha təcrübəli hakimlərin irəli çəkilməsinə imkan yaratmış və nəticədə Ali Məhkəmənin tərkibi 70% təzələnmişdir.

Ali Məhkəmə həm də məhkəmə sistemi üçün böyük kadr ehtiyatı rolu oynayır. Belə ki, Ali Məhkəmənin hakimləri apellyasiya instansiyası məhkəmələrinin, habelə mühüm birinci instansiya məhkəmələrinin sədrləri vəzifəsinə təyinat almışlar.

Hörmətli konfrans iştirakçıları,

Bu gün əsas vəzifələrimizdən biri ədalət mühakiməsi sistemini Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində böyük qələbəmizlə azad edilmiş torpaqlarımızda təmin etməkdir.

İşğal dönəmində büsbütün dağıdılaraq minalanmış ərazilərimizdə dövlət başçısının rəhbərliyi ilə infrastruktur təzədən qurulur, o cümlədən qədim abidələrimiz, mədəni irsimiz respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın bilavasitə iştirakı ilə bərpa edilir.

Həmin bölgədə bütün infrastruktur bərpa olunduqdan və soydaşlarımız öz torpaqlarına qayıtdıqdan sonra, sözsüz ki, yeni yaradılan məhkəmə və ədliyyə qurumlarımız da fəaliyyətə başlayacaqdır.

Sonda mən bir daha əlamətdar yubiley və ölkə Prezidentinin yüksək etimadı ilə təltif olunmaları münasibətilə Ali Məhkəmənin kollektivini səmimi qəlbdən təbrik edir, insan hüquqlarının etibarlı müdafiəsi və ədalət mühakiməsinin səmərəli həyata keçirilməsi naminə şərəfli fəaliyyətlərində yeni-yeni nailiyyətlər arzulayıram.

Diqqətinizə görə minnətdaram!

## Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin nitqi

Hörmətli həmkarlar,

Xanımlar və cənablar,

Ölkəmizin məhkəmə-hüquq sistemində özünəməxsus yer tutan Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyi münasibətilə Baş Prokurorluğun kollektivi adından həmkarlarımı ürəkdən təbrik edir və konfransın işinə uğurlar arzu edirəm.

Dəyərli həmkarlar,

Yarandığı gündən bəri uzun bir tarixi inkişaf yolu qət edən Azərbaycan Respublikasının məhkəmə-hüquq sistemi ölkəmiz dövlət müstəqilliyini bərpa etdikdən sonra məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində beynəlxalq standartlara cavab verən müasir məzmun əldə etmişdir.




Hakimiyyətlərin bölünməsi prinsipinə uyğun olaraq ədalət mühakiməsinin Azərbaycan Respublikasının məhkəmələri tərəfindən həyata keçirilməsinin təsbit olunması, 3 pilləli məhkəmə sisteminin təsis edilməsi, prokurorluğun hakimiyyətin məhkəmə qoluna aid olmaqla vahid mərkəzləşdirilmiş qurum kimi formalaşdırılması və məhkəmələrə, habelə prokurorluğa ədalət mühakiməsi sistemində önəmli rolların ayrılması bu sistemin gələcək inkişaf vektorlarını müəyyən etmişdir.

Konstitusion status əldə edən prokurorluğun əsas fəaliyyət istiqamətləri, o cümlədən cinayət mühakimə icraatında iştirakı bilavasitə Ali Qanunla və cinayət prosessual qanunvericiliyi ilə müəyyən olunmuşdur.

Bunlar,

- **İstintaqın aparılması**
- **Digər qurumların istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə prosessual rəhbərlik**
- **Məhkəmələrdə dövlət ittihamının müdafiə edilməsi**
- **Cəzaların məqsədinə nail olunmasında iştirak**
- **Digər (mülki iddia qaldırılması, ekstradisiya, hüquqi yardım və sair)**

**İbtidai istintaqın aparılması funksiyasına dair**

Prokurorluq orqanlarının istintaq aidiyyəti haqqında danışarkən ilk növbədə qeyd olunmalıdır ki, prokurorluğun istintaq aidiyyəti bilavasitə cinayət-prosessual qanunvericilik ilə təsbit olunmuşdur.

İbtidai istintaqı prokurorluq tərəfindən aparılan işləri şərti olaraq əmələ və subyektə görə təsnifatlandıra bilərik.

Belə ki, sülh və insanlıq əleyhinə, müharibə cinayətləri, həyat və sağlamlıq əleyhinə olan xüsusilə ağır və ağır cinayətlər, korrupsiya və qulluq mənafeyi əleyhinə, cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılması və bir sıra digər cinayətlərə dair işlər üzrə ibtidai istintaqın aparılması prokurorluğa həvalə olunmuşdur.

Eyni zamanda konkret vəzifəli şəxslər (yüksək vəzifəli şəxslər, hakimlər, hüquq mühafizə orqanlarının vəzifəli şəxsləri və sair), habelə hərbi qulluqçular barədə cinayət işlərinin ibtidai istintaqının aparılması da prokurorluq orqanlarının səlahiyyətindədir.

Prokurorluq qanunvericiliklə ona həvalə edilmiş bu səlahiyyətini Baş Prokurorluğun İstintaq idarəsi, Hərbi Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, habelə Respublikanın inzibati-ərazi bölgüsünə müvafiq olaraq rayon (şəhər) prokurorluqları vasitəsilə həyata keçirir.

Nümunə üçün göstərmək olar ki, ötən 2022-ci il ərzində prokurorluq orqanları tərəfindən 914 cinayət işi üzrə ibtidai istintaq yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilmişdir ki, bu da həmin il üzrə məhkəmələrə göndərilmiş işlərin 5,8 %-ni təşkil etmişdir.

**Digər qurumların istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət funksiyasına dair**

Azərbaycan Respublikasının hüquq sistemində prokurorluq da daxil olmaqla 8 ayrı qurum tərəfindən ibtidai istintaqın aparılması nəzərdə tutulmuşdur. Prosessual qanunvericilik cinayət əməlləri barədə ilkin araşdırmadan başlayaraq cinayət işinin məhkəməyə göndərilməsinədək həyata keçirilən ibtidai araşdırma prosesinin prokurorun ibtidai araşdırmaya prosessual rəhbərliyi ilə həyata keçirilməsini təsbit edir. Qısa ifadə etsək, bütün bu qurumların istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyəti prokuror nəzarəti ilə həyata keçirilir və bu qurumlar tərəfindən ibtidai istintaqı yekunlaşdırılmış bütün cinayət işləri üzrə ittiham aktları müvafiq prokuror tərəfindən təsdiq etdikdən sonra məhkəməyə göndərilir.

Nümunə üçün ötən 2022-ci ildə ibtidai istintaqı yekunlaşdırılmış 15772 cinayət işi üzrə ittiham aktları müvafiq prokurorlar tərəfindən təsdiq edildikdən sonra baxılması üçün məhkəmələrə göndərilmişdir. Həmin cinayət işlərinin 5,8%-i prokurorluq orqanları, 89,7%-i daxili işlər orqanları, 4,5%-i isə digər istintaq qurumları tərəfindən istintaq olunmuş cinayət işləri olmuşdur.

**Məhkəmələrdə dövlət ittihamının müdafiəsi fəaliyyətinə dair**

Dəyərli həmkarlar,

Məhkəmələrə ittiham aktı ilə daxil olmuş bütün cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi dövlət ittihamçıları (prokurorlar) tərəfindən həyata keçirilir. Baş Prokurorluq üzrə bu fəaliyyət bütün instansiya məhkəmələrində baxılan işlər üzrə mərkəzləşdirilmiş qaydada təşkil olunmuşdur. Dövlət ittihamçıları məhkəmə prosesi zamanı tərəf kimi çıxış edir, ittiham tərəfinin sübutlarını məhkəməyə təqdim edir, ittihamı müdafiə edir və ya əsaslar olduqda cinayət təqibindən imtina edir, əməlin daha yüngül maddəyə tövsif edilməsini təklif edir, habelə təqsirləndirilən şəxsə layiqli cəza təyin edilməsini tələb edir, təklifləri nəzərə alınmadıqda isə protest vermək səlahiyyətindən yararlanırlar. Yalnız xüsusi ittiham qaydasında olan işlər **(Cinayət Məcəlləsi üzrə cəmi 4 maddə)** üzrə ittihamın müdafiəsi dövlət ittihamçıları tərəfindən deyil, xüsusi ittihamçılar (bilavasitə zərərçəkmiş şəxslər) tərəfindən həyata keçirilir ki, bu kateqoriya işlər il ərzində ümumi məhkəmələrə daxil olan işlərin cəmi 2% hissəsini təşkil edir.

Prokurorluq orqanlarının məhkəmələrdə baxılan cinayət işləri üzrə dövlət ittihamını müdafiəsi zamanı aşağıdakı 2 əsas istiqamətə önəm verilir:

- **Konkret cinayət işləri üzrə ədalətli, qanuni və əsaslı hökmlərin qəbul edilməsinə nail olunması**
- **Ümumilikdə hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına nail olunması**

Bu fəaliyyət zamanı dövlət ittihamçıları tərəfindən məhkəmənin hökm və digər yekun qərarlarından protestlərin verilməsi xüsusi əhəmiyyət daşıyır.

Təhlillər göstərir ki, 2022-ci il ərzində yuxarı instansiya məhkəmələri tərəfindən dövlət ittihamçılarının vermiş olduğu 563 apellyasiya protesti təmin edilmişdir ki, bu da verilmiş protestlərin 51,3%-nin təmin olunması deməkdir. Kassasiya protestləri üzrə bu göstəricilər müvafiq olaraq 157 və ya 24,5% təşkil edir.

Verilmiş apellyasiya və kassasiya protestləri əsasən əməlin tövsifi, cəza siyasəti, qanunun tətbiqi və hüquqi məsələlər üzrə olmaqla hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması işində önəmli rola malikdir.

**Prokurorluğun digər səlahiyyətlərinə dair**

Qeyd olunanlarla yanaşı, qanunvericilik prokurorluğa bir sıra digər səlahiyyətlər də həvalə etmişdir. Məhkəmələr tərəfindən təyin edilmiş cəzaların məqsədlərinə nail olunmasında iştirak, iddiaların qaldırılması, mülki və kommersiya mübahisələrinə dair işlərə baxılmasında iddiaçı qismində iştirak, inzibati xətalara dair işlərin başlanması və bu işlər üzrə qərar və qərardadlardan protestlərin verilməsi, ekstradisiya və hüquqi yardım məsələləri və bir sıra digər səlahiyyətləri nümunə kimi göstərmək mümkündür.

Hörmətli həmkarlar,

Müasir həyatımızda baş verən ictimai-siyasi proseslərin inkişaf səviyyəsi və sürəti, texnoloji, o cümlədən informasiya texnologiyaları sahəsində davamlı inkişaf məhkəmə-hüquq sistemi qarşısında yeni çağırış və vəzifələr müəyyən edir. Bu çağırışlara effektiv və çevik cavabların verilməsi üçün ilk növbədə ədalət mühakiməsi sistemimizin səmərəliliyinin artırılmasına çalışmalıyıq.

Bu baxımdan sözün həqiqi mənasında "yol xəritəsi" adlandırıla biləcək Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev tərəfindən 3 aprel 2019-cu il tarixdə imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərman xüsusi önəm kəsb edir. Həmin Fərmandan irəli gələn tədbirlərin ardıcıl həyata keçirilməsi məhkəmə-hüquq sahəsində yeni mərhələnin başlanğıcı olmaqla ən müasir beynəlxalq standartlara cavab verən və cəmiyyətdə yüksək nüfuza malik olan şəffaf ədalət mühakiməsi sisteminin formalaşdırılması ilə nəticələnəcək.

Ötən illər ərzində bu istiqamətdə istər qanunvericilik, istərsə də institusional səviyyələrdə önəmli islahatlar həyata keçirilmişdir. Lakin nəzərə almaq lazımdır ki, ictimai həyat olduqca mürəkkəb və dinamikdir. Yeni ictimai münasibətlər yaranır və ya mövcud ictimai münasibətlərin tənzimlənməsi zamanı əvvəllər rast gəlinməyən yeni aspektlər ortaya çıxır. Odur ki, həm yeni normayaratma fəaliyyəti, həm də mövcud normaların yeni baxışla şərhinə zərurət yaranır.

Qeyd olunanları nəzərə alaraq, hüququn tətbiqi üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması istiqamətində Ali Məhkəmə Plenumunun imkanları xüsusi əhəmiyyət daşıyır. Plenumun maddi və prosessual hüquq normalarının tətbiqi ilə bağlı izahları və həmin izahlarda təsbit olunmuş hüquqi mövqelər ədalət mühakiməsi sistemi üçün əvəzedilməz rola malikdir və biz bu imkanlardan daha səmərəli istifadə etməliyik. Eyni zamanda kassasiya icraatı çərçivəsində konkret işlərə baxılarkən Ali Məhkəmənin Cinayət kollegiyasının mübahisəli hüquqi məsələlər üzrə məhkəmə təcrübəsinin vahidliyinin təmin olunmasındakı imkanları da diqqətdən kənarda qalmamalıdır.

Bundan başqa, milli məhkəmələr tərəfindən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququna müraciət edilməsi də müəyyən mənada Ali Məhkəmənin qərarları vasitəsilə həyata keçirilir. Qeyd olunan proses isə təkcə milli məhkəmələrin deyil, ümumilikdə ölkənin hüquq sisteminin inkişafına aparır.

Dəyərli həmkarlar,

Ölkəmizin də daxil olduğu kontinental hüquq sistemində hakimlərin qanunun tələblərini rəhbər tutmalı olduqları müəyyən olunsa da, onların cinayət təqibi materiallarını tərəflərin təqdim etdikləri sübutların tədqiqinə əsaslanan daxili inam və hüquq düşüncəsi ilə həll etməli olmaları da təsbit edilib. Heç kimə sirr deyil ki, cinayət işinə baxılması zamanı ortaya çıxan konkret situasiya və hallara münasibətdə qanunların şərhinə hakim yanaşması təcrübədə bir sıra hallarda özündən sonrakı qərarlar üçün istiqamətləndirici rol oynayır.

Ona görə, qarşıda duran əsas vəzifə və məqsədlərdən biri də bütün instansiya məhkəmələrinin hakimləri tərəfindən hökm və digər yekun qərarların kifayət qədər əsaslandırılması olmalıdır.

Digər tərəfdən dəyişən ictimai münasibətlər sisteminin operativ tənzimlənməsi baxımından qanunların tətbiqi təcrübəsindəki ziddiyyətlərin, normativ hüquqi aktların məzmununda olan qeyri-müəyyənliklərin aradan qaldırılmasında önəmli hüquqi alət olan Konstitusiya Məhkəməsinin Plenumunu da yaddan çıxarmaq olmaz. Prokurorluq tərəfindən 2022-ci il ərzində qanunların şərh edilməsinə ilə əlaqədar bu quruma konseptual məsələlərlə bağlı 10 sorğu ünvanlanmış və mən fürsətdən istifadə edərək Konstitusiya Məhkəməsinə ədalət mühakiməsi sisteminin təkmilləşdirilməsi istiqamətində həyata keçirdikləri fəaliyyətə görə dərin minnətdarlığımı ifadə etmək istərdim. Amma eyni zamanda, hesab edirəm ki, bu istiqamətdə də bizim kifayət qədər görüləcək işlərimiz var.

Təbii ki, cinayət mühakimə icraatının həyata keçirilməsində iştirak edən və gündəlik fəaliyyəti qanunların tətbiqi və icrasına nəzarətlə bağlı olan prokurorluq orqanlarının da bu istiqamətdə fəaliyyətini unutmaq olmaz.

Xüsusilə məhkəmələrdə dövlət ittihamının müdafiəsi işinin səmərəliliyinin artırılması böyük əhəmiyyət daşıyır.

Cinayət mühakimə icraatında iştirak edən dövlət ittihamçıları tərəfindən ədalətli, qanuni və əsaslı hökmlərin qəbul edilməsi prosesinə töhfə verilməsi, qanunvericiliyə uyğun olmayan və hüquqi təcrübəyə söykənməyən yekun məhkəmə qərarları mübahisələndirilməklə məhkəmə səhvlərinin aradan qaldırılması

məqsədilə əsaslandırılmış protestlərin verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və bu sahədə fəaliyyətin təkmilləşdirilməsi qarşımızda duran əsas məqsədlərdən biridir.

Hörmətli həmkarlar,

Hesab edirəm ki, Azərbaycan hüquqşünasının, dövlət qurumlarımızın, ümumilikdə məhkəmə-hüquq sistemimizin mövcud çağırış və problemlərin öhdəsindən gəlmək üçün zəruri potensialı mövcuddur və biz qarşımıza qoyduğumuz hədəflərə nail olacağıq.

Çıxışımın sonunda bir daha həmkarlarımı yubiley münasibətilə ürəkdən təbrik edir və məsuliyyətli işlərində nailiyyətlər diləyərək konfransın işinə uğurlar arzu edirəm.

Diqqətinizə görə çox sağ olun.

## Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş beynəlxalq konfransda Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) xanım Səbinə Əliyevanın nitqi

Hörmətli Sədr,

Hörmətli tədbir iştirakçıları, xanımlar və cənablar!

İlk növbədə Ali Məhkəmənin bütün kollektivini, hakimləri Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə təbrik edir, ədalət mühakiməsinin təmini sahəsində həyata keçirdiyiniz məsuliyyətli fəaliyyətinizdə uğurlar arzulayıram.

Ötən əsrin 20-ci illərinin əvvəllərində Azərbaycanda Ali Məhkəmənin yaradılması tarixi zərurətdən irəli gəlmiş və keçən 100 il müddətində ədalət mühakiməsi sahəsində böyük uğurlar əldə edilmişdir.

Dövlət müstəqilliyimizin bərpasından sonra Ulu Öndər Heydər Əliyevin bilavasitə təşəbbüsü və rəhbərliyi ilə hazırlanmış, ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası mühüm qanunvericilik və institusional islahatların həyata keçirilməsinə təkan verməklə ölkəmizdə insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmlərinin, o cümlədən müasir məhkəmə-hüquq sisteminin formalaşdırılmasının hüquqi əsaslarını müəyyən etmişdir.




Bu siyasətin uğurlu davamı olaraq, ölkə Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə ədalət mühakiməsinin həyata keçirilməsində və inkişafında keyfiyyətcə yeni dəyişikliklərə imza atılmış, məhkəmə icraatının effektivliyinin yüksəldilməsi və vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə yeni məhkəmələr təşkil edilmiş, hakimlərin sayı artırılmış, maddi təminatları yaxşılaşdırılmış, onların şəffaf prosedurlar əsasında seçilməklə, ümumilikdə hakim korpusunun əsaslı şəkildə yenilənməsinə nail olunmuşdur. Bununla yanaşı, məhkəmə hakimiyyətinə etimadın möhkəmləndirilməsi, müasir informasiya texnologiyalarının tətbiqi ilə ədalət mühakiməsinə əlçatanlığın daha səmərəli və effektiv təmin edilməsi sahəsində əhəmiyyətli tədbirlər görülmüşdür. Bütün bu islahatlar nəticə etibarilə dövlətin ali məqsədinə xidmət etməklə insan və vətəndaş hüquqlarının və azadlıqlarının effektiv təmin olunmasına yönəlmişdir.

Ölkəmizdə ədalət mühakiməsini həyata keçirən, ali məhkəmə orqanı kimi yüksək hüquqi statusu, məhkəmə sistemində yeri və rolu Konstitusiya ilə müəyyən edilən Azərbaycan Respublikasının Ali Məhkəməsi kassasiya instansiyası olaraq vahid məhkəmə təcrübəsinin formalaşdırılmasına, Avropa Məhkəməsinin qərarlarının öyrənilməsi və məhkəmə təcrübəsində nəzərə alınmasına, bununla da insan hüquq və azadlıqlarının səmərəli təmininə, habelə beynəlxalq standartların ölkəmizdə tətbiqinə öz töhfələrini verməkdədir.

Bu baxımdan Ali Məhkəmə ədalət mühakiməsinin keyfiyyətinin artırılması məqsədilə məhkəmə təcrübəsinin öyrənilməsi və ümumiləşdirilməsi, habelə bu ümumiləşdirmə nəticəsində müəyyən edilmiş, sistemli xarakter daşıyan problemlərin aradan qaldırılması üzrə effektiv konstitusion məhkəmə mexanizmidir.

Qeyd etmək istərdim ki, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Ombudsman təsisatı ilə Ali Məhkəmə və digər məhkəmə orqanları arasında səmərəli əməkdaşlıq əlaqələri qurulmuşdur. Bu əməkdaşlıq ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquqlarının müdafiəsi ilə bağlı Müvəkkilə ünvanlanmış müraciətlərin “Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) haqqında” Konstitusiya Qanunu ilə müəyyən olunmuş qaydada araşdırılması, qanunvericiliyin təhlili və təkmilləşdirilməsi, o cümlədən normativ hüquqi akt layihələrinə rəy və təkliflərin təqdim edilməsi, Ədliyyə

Akademiyasında təşkil olunan kurslarda iştirak edən hakimlər, habelə hakimliyə namizədlərin bilikvə bacarıqlarının artırılması istiqamətində uğurla davam etdirilir.

Bununla belə, qurumlarımız arasında bu əməkdaşlıq əlaqələri xarici ölkələrin təcrübəsi nəzərə alınmaqla daha da genişləndirilə bilər. Belə ki, bir çox ölkələrdə ombudsmanların məhkəmələrlə, xüsusilə də Ali Məhkəmə ilə daha geniş əməkdaşlığı mövcuddur. Bəzi ölkələrdə ombudsmanın səlahiyyətləri daxilində iş üçün əhəmiyyət kəsb edən məlumatları məhkəmələrin diqqətinə çatdırmaqla onlara kömək etməsi, yəni məhkəmənin dostu kimi çıxış etməsi təcrübəsi tətbiq olunmaqdadır. Hesab edirəm ki, insan hüquq və azadlıqlarının daha etibarlı təmin olunması üçün əhəmiyyət kəsb edə biləcək bu və digər müsbət təcrübələr əməkdaşlığımızın yeni istiqamətlər üzrə inkişaf etməsinə şərait yaradacaqdır.

Çıxışımı yekunlaşdıraraq qeyd etmək istərdim ki, bugünkü konfrans yubiley tədbiri olmaqla yanaşı, həm də insan hüquq və azadlıqlarının daha səmərəli müdafiəsi sahəsində birgə əməkdaşlığımızın genişləndirilməsi üçün bir imkandır. Əminəm ki, bu əməkdaşlığımız dövlət maraqları baxımından mühüm nəticələrin əldə olunmasına imkan verəcək.

Bir daha hər birinizi bu yubiley münasibətilə təbrik edir, tədbirin işinə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm!

## Belarus Respublikası Ali Məhkəməsinin sədri Valentin Sukalonun çıxışı

Hörmətli həmkarlar!

Sizi - Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda belarusiyalı hakimlər korpusu adından salamlamaq mənim üçün böyük şərəfdir.

Konfransın yüksək səviyyədə təşkili və keçirilməsi, iştirakçıların geniş nümayəndə dairəsi, şübhəsiz ki, təcrübə mübadiləsinə, aktual hüquqi problemlərin həllinə yardım edəcək, ölkələrimizin məhkəmə-hüquq sistemlərinin gələcək inkişafına mühüm töhfə verəcəkdir.

Belarus Respublikasında məhkəmə-hüquq islahatlarının üçüncü mərhələsi başa çatıb, bu müddət ərzində ölkənin məhkəmə sistemində bütün əsas struktur və funksional dəyişikliklər həyata keçirilib.




Ötən ilin əsas hüquqi hadisəsi məhkəmə islahatlarının nəticələrini də təsbit edən respublika referendumunun nəticələrinə əsasən, Belarus Respublikası Konstitusiyasının təkmilləşdirilməsi oldu.

Konstitusiya islahatı nəticəsində bütün dövlət hakimiyyəti və demokratiya institutları, o cümlədən məhkəmə-hüquq sisteminin qurulması və fəaliyyətinin fundamental prinsipləri gücləndirilib.

Əvvəla, Ali Məhkəmənin konstitusiya statusu ümumi yurisdiksiyalı məhkəmələr sisteminə rəhbərlik edən və qanunla müəyyən edilmiş məhkəmə icraatı formaları vasitəsilə ədalət mühakiməsini həyata keçirən ali məhkəmə orqanı kimi müəyyən edilir.

Bu çox mühüm normativ təsbit 2014-cü ildə məhkəmə sisteminin təkmilləşdirilməsindən sonra reallığa çevrildi. Həmin vaxtdan Belarus Respublikasında ölkənin bir ali məhkəmə orqanının rəhbərlik etdiyi ümumi yurisdiksiya məhkəmələrinin vahid sistemi uğurla fəaliyyət göstərir.

Ali Məhkəmə digər məsələlərlə yanaşı, məhkəmələrin və ədliyyə orqanlarının fəaliyyətinin təşkilati, maddi-texniki və kadr təminatını həyata keçirir.

Eyni zamanda məhkəmələr onlar üçün qeyri-adi olan məhkəmə qərarlarının icrası funksiyasını yerinə yetirməkdən azad edilir. Onların sayı hərbi ədliyyə orqanlarının ləğvi ilə optimallaşdırılıb. Ədliyyə Nazirliyindən təşkilati, kadr və maliyyə asılılığı tamamilə aradan qaldırılıb.

Yuxarı instansiya məhkəmələrinə bütün məhkəmə dəstəyi və idarəçiliyi funksiyalarının verilməsi məhkəmə hakimiyyətinin icra hakimiyyəti orqanlarından həqiqi müstəqilliyini təmin edirdi. Belarus Respublikasının ümumi yurisdiksiya məhkəmələrinin avtomatlaşdırılmış informasiya sisteminin modernləşdirilməsi bu funksiyaların icrasını böyük ölçüdə optimallaşdırmağa imkan verdi.

İkincisi, konstitusiya dəyişikliklərinə uyğun olaraq, Ali Məhkəmənin rəhbərlərinin və hakimlərinin seçki səviyyəsi artırılıb.

Üçüncüsü, ədalət mühakiməsinin təkbaşına, yalnız müstəsna hallarda kollegial şəkildə həyata keçirilməsinə üstünlük verilir.

Həmçinin bütün dövlət orqanları, digər təşkilatlar, vəzifəli şəxslər və vətəndaşlar üçün məhkəmə qərarlarının məcburiliyi müəyyən olunmuşdur. Onları hətta konstitusiya səviyyəsində qanunvericilik statusu və geniş real güc səlahiyyətləri almış Ümumbelarus Xalq Məclisi də ləğv edə bilməz.

Məhkəmə-hüquq islahatları zamanı vətəndaşların məhkəmə müdafiəsinə dair konstitusiya hüququnun gücləndirilməsi məqsədilə Ali Məhkəmə tərəfindən prosessual qanunvericiliyə qlobal təftiş həyata keçirilib.

Qanuni qüvvəyə minməmiş məhkəmə qərarlarının qanuniliyinin və əsaslılığının yoxlanılması mərhələsi kimi ikinci instansiya məhkəmələrinin apellyasiyaya mərhələli keçidi tam başa çatdırılmışdır.

Yuxarı instansiya məhkəmələri məhkəmə qərarlarının düzgünlüyünü yoxlamaq, onları düzəltmək və işə yekun baxılması məqsədilə hər hansı yeni qərar qəbul etmək üçün faktiki olaraq qeyri-məhdud hüquqlara və geniş imkanlara malikdir.

Apellyasiya icraatının tətbiqi işi yeni məhkəmə baxışına göndərmədən mümkün məhkəmə səhvlərinin vaxtında düzəldilməsi problemini əsas etibarilə həll etmişdir.

Nəticədə birinci instansiya məhkəmələrində mülki mübahisələr üzrə təkrar məhkəmə araşdırmalarının sayı 4 dəfə, cinayət işləri üzrə isə 10 dəfə azalıb.

Qanuni qüvvəyə minmiş məhkəmə qərarlarına baxılmasının prosessual proseduru ciddi şəkildə təkmilləşdirilib.

Apelyasiya şikayətindən sonra məhkəmə qərarlarının qanuniliyini və ədalətliliyini yoxlamaq üçün qanunvericiliyə yeni əlavə institut - kasasiya instansiyası tətbiq edilib.

Məhkəmə icraatının son mərhələsi kimi nəzarət yalnız Ali Məhkəmədə cəmləşəcək. Bu, nəzarət məhkəmələrinin sayının azaldılmasına, onların səlahiyyətlərində balansın təmin olunmasına və funksiyaların təkrarlanmasının qarşısını almağa imkan verəcək.

Mülki və iqtisadi prosessual qanunvericiliyin unifikasiyası məqsədilə Ali Məhkəmə tərəfindən mülki və iqtisadi işlər üzrə məhkəmə icraatını tənzimləyən vahid prosessual məcəllə işlənib hazırlanıb.

Məhkəmə-hüquq islahatları tədbirlərinin həyata keçirilməsi məhkəmə yükünün azaldılmasına və məhkəmə prosedurlarının optimallaşdırılmasına, ədalət mühakiməsinin səmərəliliyinin və iqtisadi səmərəliliyinin artırılmasına imkan verib.

Qanunvericilik məhkəmə qərarının motivasiya hissəsinin məcburi hazırlanması hallarının kiçik tam siyahısını nəzərdə tutur. Ötən il ölkəmizin hakimləri yalnız 17% mülki iş üzrə, 40% isə iqtisadi işlər üzrə çıxarılmış qərarların əsaslandırılmasını təşkil ediblər.

Hər il mülki ədalət mühakiməsinin ümumi həcminin təxminən dörddə birinə qiyabi icraatda baxılır və bu prosesdə cavabdeh mübahisə prosesində iştirakdan boyun qaçırdıqda məhkəmə qiyabi hökm çıxarmaq hüququna malikdir.

Cinayət prosesində kiçik cinayətlərdə təqsirləndirilən şəxsin razılığı olduqda qiyabi hökm də tətbiq edilib. Keçən il cinayət işlərinin 4%-i bu cür sürətləndirilmiş qaydada məhkəmə araşdırması olmadan başa çatdırılıb.

Kiçik və orta ağırlıqda olan cinayət işlərinin daha 13%-nə məhkəmə qısaldılmış istintaq qaydasında baxıb. O, təqsirləndirilən şəxsin öz təqsirini boynuna alması və məhkəmə baxışı zamanı tərəflərin razılığı ilə sübutları bilavasitə tədqiq etməməsinə məhkəməyə imkan verdiyi halda tətbiq edilir.

İbtidai məhkəmə istintaqı təkcə mülki deyil, həm də cinayət prosesində tətbiq edilmişdir ki, bu da işlərin baxılmağa düzgün hazırlanmanı təşkil etməyə, mülki mübahisələr üzrə də bu mərhələdə ədalət mühakiməsini tamamlamağa imkan verir.

Məhkəmə prosesinin iştirakçılarına bütün müasir rabitə vasitələri ilə əsasən elektron formada məlumat verilir. Ədalət mühakiməsinin həyata keçirilməsində veb-konfransdan istifadə genişlənir. Dövlət ittihamçıları zərərçəkmişlərin və məhkəməyə gəlməkdən yayınan ittiham tərəfinin şahidlərinin iştirakının təmin edilməsinə cavabdehdirlər. Bütün bunlar məhkəmə iclaslarının təxirə salınması və işlərə uzun müddətə baxılması hallarının azaldılmasına kömək edir.

Hakimlər tərəflərin razılığı ilə hökmün yalnız hökm hissəsini elan edirlər. Eyni zamanda bütün növ məhkəmə icraatlarında məhkəmə iclaslarının gedişi müstəsna olaraq audio və ya videoçəkiliş vasitələrindən istifadə edilməklə qeydə alınır və yazılı şəkildə yalnız qısa protokol tərtib edilir. Nəticədə, əvvəllər şəxsiyyətsizləşdirilmiş bütün məhkəmə qərarları vətəndaşlar üçün açıq olan elektron məlumat bankında yerləşdirilir.

Belarus Respublikasında məhkəmə sisteminin təkmilləşdirilməsinin tərkib hissəsi kimi 2021-ci ildən inzibati məsuliyyətə dair yeni məcəllələr hazırlanmış və tətbiq edilməkdədir, cinayət və cinayət-prosessual qanunvericiliyində genişmiqyaslı düzəlişlər edilmişdir.

Müsbət nəticələrdən biri də təkcə mülki deyil, həm də inzibati icraatda sadə işlər üzrə məhkəmə yurisdiksiyasının azaldılması olub. İstər mülki yurisdiksiya sferasında, istərsə də cinayət prosesinə mediasiya tətbiq etməklə tərəflərin barışması üsullarının dairəsi genişləndirilib.

Qanunvericilikdə, o cümlədən Konstitusiyada edilən dəyişikliklər də Belarus Respublikasının məhkəmə sistemi və hakimlərin statusu haqqında Məcəlləsinin - yenilənmiş məhkəmə sisteminin fəaliyyətini tənzimləyən vahid qanunvericilik aktının hərtərəfli təkmilləşdirilməsinə səbəb olub.

Ümumiyyətlə, məhkəmə islahatlarının üç mərhələsini həyata keçirərək, Belarus ədalət mühakiməsinin milli modelinin yaradılmasında xarici təcrübəni kor-koranə köçürməkdən qoruna bildik.

Biz məhkəmə-hüquq islahatlarını, yeni qanunvericiliyin hazırlanmasını məhkəmə-hüquq sistemində kompleks struktur dəyişiklikləri olmadan, ədliyyə kadrlarının sayını artırmadan və ixtisaslaşmış məhkəmələr yaratmadan, ədalət mühakiməsi prosesini bir dəqiqə belə dayandırmadan həyata keçirdik.

Belarus ədalət məhkəməsinin təkmilləşdirilməsi prosesində əsas sarsılmaz postulat həmişə onun ədalətliliyi olmuşdur. Belarusun məhkəmə sistemində və qanunvericiliyində elan etdiyim islahatların bu prinsipin həyata keçirilməsinə töhfə verəcəyinə şübhəm yoxdur.

Sonda mən Belarus Respublikası Ali Məhkəməsi adından Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə təbrik edirəm.

Yüzillik yubiley münasibətilə Azərbaycan xalqının rifahı naminə məhkəmə sisteminin qarşısında duran vəzifələrin həyata keçirilməsində sizə böyük uğurlar arzulayıram!

Diqqətinizə görə təşəkkür edirəm!

## Rumıniya Ali Kassasiya və Ədalət Məhkəməsinin sədri Korina Alina-Korbunun çıxışı

Hörmətli qonaqlar,

Əziz yoldaş hakimlər,

Xalqın hüquq sisteminə və məhkəmə hakimiyyətinə inamı qanunların vahid tətbiqinə əsaslanan hüquqi müəyyənliyin mövcudluğu ilə ayrılmaz əlaqədədir.




Vətəndaşlar oxşar situasiyalarda digərləri ilə bərabər rəftar olunmağı və müqayisə oluna bilən işlərdə əvvəlki məhkəmə qərarlarına arxalanmaq istəyir ki, hərəkət və ya hərəkətsizliklərinin qanuni nəticələri qabaqcadan proqnozlaşdırıla bilən olsun. Beləliklə, bir əldə hüququnun vahidliyi və ardıcıllığı, digər əldə isə ədalətli məhkəmə mühakiməsi hüququ arasında yaxın əlaqə mövcuddur.

Ali Məhkəmələrin qanunun vahid tətbiq edilməsində rolu mühümdür. Məhkəmə təcrübəsinin vahidləşdirilməsi həm qanun qarşısında bərabərlik prinsipinə hörmət, həm də proqnozlaşdırıla bilənlik və hüquqi müəyyənlik baxımından təsir göstərir.

Hüququn tətbiqi artıq dəqiq müəyyən edilmiş presedent hüququ yaratdıqda, hüquqi müəyyənlik və proqnozlaşdırıla bilənlik səbəblərindən həmin hüquq tətbiqinin təkrar mübahisəyə açılmasına yer olmamalıdır.

Rumıniyanın Konstitusiyasına uyğun olaraq, Ali Kassasiya və Ədalət Məhkəməsi öz məhkəmə funksiyası ilə yanaşı, qanunla nəzərdə tutulmuş mexanizmlərlə məhkəmə təcrübəsinin vahidləşdirilməsi funksiyasını və konstitusional aspektdən Ali Kassasiya və Ədalət Məhkəməsinin əsas vəzifəsi olan digər məhkəmələr tərəfindən qanunun ardıcıl şərhi və tətbiqinin təmin edilməsi rolunu həyata keçirir.

Məhkəmə təcrübəsində ziddiyyətlərin qarşısını almaq və tənzimləmək məqsədinə nail olmaq üçün qanun Ali Məhkəməyə ardıcıl məhkəmə təcrübəsini təmin etmək üçün iki prosessual mexanizm təqdim edir: qanunun maraqları naminə müraciət və hüquqi məsələlər üzrə ilkin qərarın çıxarılması üçün Ali Kassasiya və Ədalət Məhkəməsinə göndəriş.

İki məhkəmə təcrübəsinin vahidləşdirilməsi mexanizmi bir-birini tamamlayır, biri uyğun olmayan təcrübə hallarının qarşısının alınmasına çalışmağa, digəri isə gələcək üçün ardıcıl məhkəmə təcrübəsini təmin etməklə hüquq sahəsində uyğunsuzluqları aradan qaldırmağa yönəlmişdir.

Məhkəmə təcrübəsinin vahidləşdirilməsi funksiyası qanunla nəzərdə tutulmuş iki mexanizmə xas olan iki növ komanda - məhkəmənin bütün hakimləri tərəfindən tərtib edilmiş, hər bir iş üzrə ixtisaslarına uyğun olaraq püşkatma yolu ilə təyin edilmiş Qanunun Maraqlarına dair Apellyasiya Şurası və Hüquqi Məsələlər üzrə İlkin Qərarlara dair Apellyasiya Şurası tərəfindən həyata keçirilir. Qanuna əsasən, həmin işlər 3 ay ərzində həll edilir, qərarlar Rumıniyanın rəsmi qəzetində dərc olunduğu tarixdən etibarən ölkənin bütün məhkəmələri üçün qəti və məcburidir.

Bütün məhkəmə təcrübəsinin onlayn nəşri, Ali Məhkəmənin nəşrlərinin yeni seriyaları, Ali Kassasiya və Ədalət Məhkəməsinin məhkəmə təcrübəsinə və nəşrlərinə sərbəst giriş və həmçinin öz internet saytında dərc olunan məhkəmə təcrübəsinin öyrənilməsi və xülasələri də məhkəmə təcrübəsinin vahidləşdirilməsində tamamlayıcı vasitələr kimi çıxış etməklə, qeyri-rəsmi olmasına baxmayaraq bizim məhkəmə iyerarxiyasının ən yüksək məhkəməsinin məhkəmə təcrübəsinin yayılmasına mühüm töhfələr verir. Hazırda bizim internet saytımızda dərc olunmuş 190.000 tam məzmunlu qərar, həmçinin 6000 müvafiq qərar xülasəsi mövcuddur.

2021-ci ildən etibarən Rumıniya Ali Kassasiya və Ədalət Məhkəməsinin tərkibində Məhkəmə təcrübəsinin öyrənilməsi və vahidləşdirilməsi şöbəsi fəaliyyət göstərir.

Bu şöbənin fəaliyyətə başlaması Ali Məhkəmənin ziddiyyətli məhkəmə praktikalarının yaranmasının qarşısının alınmasına dair mexanizm də daxil olmaqla, məhkəmə təcrübəsinin vahidləşdirilməsi ilə əlaqədar konstitusional və qanuni funksiyasının ən yüksək səviyyəsini təmin etmək üçün Ali Kassasiya və Ədalət Məhkəməsinin səylərinin bir hissəsi idi.

Beləliklə, Məhkəmə təcrübəsinin öyrənilməsi və vahidləşdirilməsi şöbəsi Ali Kassasiya və Ədalət Məhkəməsinin dörd kollegiyası tərəfindən çıxarılan qərarları, o cümlədən Ali Kassasiya və Ədalət Məhkəməsi və 5 hakimdən ibarət şuralar tərəfindən geri qaytarılan mühakimələri yenidən araşdırmalı, məhkəmə təcrübəsində meydana gələn yeni elementlərə, ardıcıl olaraq barəsində qərar qəbul edilən təkrarlanan hüquqi mübahisələrə dair aylıq xülasələr hazırlamalı və məhkəmə təcrübəsində meydana gələn ziddiyyətləri məruzə etməlidir.

Şöbə qanunun maraqları naminə şikayət verilə bilən hüquqi məsələlərlə bağlı məhkəmə təcrübəsini və ya hüquqi məsələlər üzrə ilkin qərarların çıxarılması üçün Ali Kassasiya və Ədalət Məhkəməsinə göndərilən göndərişləri müəyyən edir, nəşr üçün müvafiq qərarları seçir və məlumat bazasına girişi və məsləhətləşməni asanlaşdırmaq üçün hüquq sahələri və hüquq sahələrindəki məsələlər vasitəsilə Ali Kassasiya və Ədalət Məhkəməsinin Kollegiyalarının məhkəmə təcrübəsinin ümumiləşdirilməsinə töhfə verir.

Həmçinin ötən ilin sonunda Ali Kassasiya və Ədalət Məhkəməsi və 16 apellyasiya məhkəməsi milli səviyyədə məhkəmə təcrübəsini vahidləşdirmək, habelə Məhkəmə təcrübəsinin vahidləşdirilməsi şöbəsinin birbaşa vasitəçiliyi də daxil olmaqla milli səviyyədə məhkəmə təcrübəsi ilə bağlı fikir ayrılıqlarını daha tez müəyyən etmək üçün Milli Məhkəmə Təcrübəsi Şəbəkəsinin yaradılması təşəbbüsünü irəli sürmüşdür.

Bütün bu həm rəsmi, həm də qeyri-rəsmi, tamamlayıcı üsullar vasitəsilə Ali Məhkəmə məhkəmə prosesinin sürətini, vətəndaşların ədalət mühakiməsinə inamını və məhkəmə icraatının proqnozlaşdırıla bilənliyini artırmaq yolu ilə məhkəmə təcrübəsinin vahidləşdirməsini gücləndirməyi hədəfləyir. Ali Kassasiya və Ədalət Məhkəməsi, Avropa Ədalət Məhkəməsi və Avropa Məhkəməsinin praktikaları, habelə Rumıniya Konstitusiya Məhkəməsindəki yeniliklər vasitəsilə milli presedent hüququnun ardıcıllığını təmin edir.

Uzunmüddətli perspektivdə biz gözləyirik ki, bütün bu tədbirlər ədalətliliyin keyfiyyətini və məhkəmə icraatının dəqiq proqnozlaşdırılmasını artırmaqla yeni işlərin sayının azalmasını təmin edəcək, beləliklə də Rumıniya məhkəmə sisteminin qarşılaşdığı əsas problemlərdən birini yüngülləşdirəcək.

Sonda qeyd etmək istərdim ki, məhkəmə təcrübəsinin vahidləşdirilməsi üçün milli məhkəmələr arasında əməkdaşlıq kifayət deyil, beynəlxalq səviyyədə də yaxşı əməkdaşlıq tələb olunur ki, buna görə də biz bu gün burada iştirak edən bütün ali məhkəmələr tərəfindən bu istiqamətdə göstərilən narahatlığı alqışlayırıq. Hüquqi problemlər fərqli ola bilsə də, hər birimizin təcrübəsi və ən yaxşı təcrübələri ümumi bir xətt təmin edə bilər.

Diqqətinizə görə minnətdaram!

## Qazaxıstan Respublikası Ali Məhkəməsinin sədri Aslambek Merqaliyevin çıxışı

Hörmətli Ramiz Yaqub oğlu,
Hörmətli həmkarlar!

Konfransda iştiraka dəvət etdiyinizə görə təşəkkür edirəm və Azərbaycan Ali Məhkəməsinin 100 illiyi münasibətilə Sizə təbriklərimi çatdırıram. Bu, sizin qabaqcıl təcrübə ilə tanış olmaq və Sizə öz dərin ehtiramımı bildirmək üçün bir imkandır.

Xalqlarımızın yaxınlığı, tarixi bağlılıq ölkələrimiz arasında münasibətlərin bütün aspektlərində əks olunur. Sıx və konstruktiv əməkdaşlıq ali məhkəmələr arasında da bərqərar olmuşdur.

Bu aspekt Türk Dövlətləri Təşkilatı çərçivəsində əməkdaşlığın inkişafında xüsusi əhəmiyyət kəsb edir. Sevindirici haldır ki, bu təşkilatın platforması əsasında əməkdaşlığımız ildən-ilə möhkəmlənir, daimi dialoq və təcrübə mübadiləsi isə qarşımızda duran məsələlərin həlli üçün ən yaxşı yolların tapılmasına kömək edir.




Bu gün biz məhkəmə-hüquq sisteminin təkmilləşdirilməsi, əhalinin ona etimadının artırılması istiqamətində çox böyük işlər görürük. 5 il ərzində 45 qanun hazırlanıb, onlardan 33-ü istifadə edilir.

Bu cür iddialar üzrə məhkəmə “dövlət orqanının təqsirlilik prezumpsiyası” prizmasından keçir. İl ərzində İPPM çərçivəsində dövlət qurumlarına qarşı işlərin 61%-i təmin edilməmişdir. Halbuki 2021-ci il iyulun 1-dək bu göstərici 15%-ə qədər idi. Cinayət işlərində bəraət hökmləri keçmiş illərə görə daha çox olub: əgər 2018-ci ilə qədər ağır cinayətlərə görə orta hesabla 20 nəfər bəraət alırdısa, 2018-ci ildən bu günə kimi artıq 160-200 nəfərə bəraət verilmişdir. Bəraət alanların sayı 7 dəfə artmışdır. Cinayət işlərinin özü iki dəfə azalmış (65 mindən 35 minə qədər), çünki istintaq orqanları işlərin nəticələrini ehtimal etdikləri üçün anlayaraq işləri dayandırırlar. Mülki məhkəmə prosesinin qlobal tendensiyası mübahisələrin həllinin alternativ yollarının inkişafıdır.

Qanunlar vasitəsi ilə həvəsləndirici tədbirlər tətbiq olunmuşdur ki, tərəflərin özləri də məhkəməyə qədər barışmaq arzusunda olsunlar. “Məhkəmə öncəsi protokol” tərtib edilmişdir. Tərəflər məhkəmə başlamamışdan əvvəl də bir-birlərinə arqumentlərini açıqlayaraq məhkəməyə müraciət edib-etməməklə bağlı qərar verirlər. Bu və digər tədbirlər vasitəsilə məhkəmələrə verilən iddialar bir neçə dəfə - 2,5 dəfə azalmışdır. Ona görə də əvvəllər 2-3% iş barışıqla yekunlaşırdısa, indi bu rəqəm 38% təşkil edir. “Qanunun aliliyi indeksi” beynəlxalq nüfuzlu reytinqə görə, Qazaxıstan 2016-cı ildə 113 ölkə arasında 73-cü yerdə qərarlaşmışdır.

2022-ci ildə 140 ölkə arasında biz artıq 65-ci yerə yüksəlmişik. Keçmiş SSRİ ölkələri arasında cinayət mühakiməsi sahəsində Qazaxıstan üç Baltikyanı ölkə və Gürcüstandan sonra 5-ci yerdə, mülki ədalət mühakiməsi üzrə biz Baltikyanı ölkələrdən sonra 4-cü yerdəyik.

**Vahid məhkəmə təcrübəsi məsələsi**

Bu, həmişə kəskin xarakter daşımış və bu gün konfransın əsas mövzusunun bu olması təsadüfi deyildir. Biz də bu problemin effektiv həllini axtarırıq. İndiyədək məhkəmələr oxşar tələblərlə bağlı müxtəlif məhkəmə qərarları çıxarıblar. Bu da işin onlar üçün necə bitəcəyini proqnozlaşdıra bilməyən vətəndaşların narazılığına səbəb olmaqla yanaşı, həm də hakimləri ya səriştəsizlikdə, ya da şəxsi maraqlarda ittiham etmək üçün əsasdır. Nəticə etibarı ilə məhkəməyə inam azalır. Bununla belə, Ali Məhkəmənin ümumiləşdirmələri və normativ qərarları məhkəmə təcrübəsinin vahidliyini təmin edən əsas vasitələr olaraq qalır.

Biz hazırda ən həssas sahələr üzrə ümumiləşdirmələrin hazırlanması və Ali Məhkəmənin normativ qərarlarının yeniləşdirilməsi istiqamətində işi gücləndiririk. Təbii ki, yüksək texnologiyanın istifadəsi və köməyi olmadan bunu etmək artıq mümkün deyil. Xarici həmkarlarımızın təcrübəsini öyrənərək,

rəqəmsallaşmanı bizim işimizə alternativsiz daxil etmişik. İndi bizim məhkəmə proseslərimizdə süni intellekt elementləri olan İT sisteminin tətbiqi haqqında bir neçə söz demək istəyirəm.

İT sistemi hakimləri məhkəmə praktikasına istiqamətləndirir, ümumi mənzərədən fərqlənən qərarları üzə çıxarır və təhlilə ciddi köməklik edir. İT sistemi icra mərhələsində mülki işin nəticəsini proqnozlaşdırmağa qadir olan sistemdir. Keçən il biz bu xidməti ölkəmizin hakimləri üçün pilot rejimdə işə saldıq. O, dərhal məhşurluq qazandı. Statistikaya görə, mülki hakimlərin əksəriyyəti süni intellektdən oxşar işlərə baxılması üçün tövsiyə və təhlil almadan prosesə başlamırlar.

**Bu sistem necə işləyir?**

Xidmət, "Google"da olduğu kimi, 2018-ci ildən qəbul edilən bütün məhkəmə aktlarının mətnində hər hansı bir məlumat tapmağa imkan verir. "Qutu" gündəlik doldurulur. Analitik filtrlər bir kliklə maraqlı məhkəmə qərarlarını tez bir zamanda axtarmaq üçün bir bölgə, məhkəmə, hakim, iş kateqoriyası və s. seçməyə imkan verir. Sistem müəyyən bir sorğuda tapılan qərarların nə qədərinin apellyasiya şikayətinə və nə qədərinin Ali Məhkəmədə baxılma predmetinə çevrildiyini nümayiş etdirir.

Eyni zamanda biz anlayırıq ki, oxşar xidmətlər ictimaiyyət və hüquqşünaslar üçün əlçatan olmalıdır. Ona görə də bizim açıqlıq və aşkarlıq prinsiplərinə doğru atdığımız yeni addım ondan ibarət oldu ki, biz lazımi məhkəmə məlumatlarını dövlət hökumət platformasında sərbəst şəkildə yerləşdirdik.

İndi Milli Biznes Palatası bu informasiya resursundan istifadə edərək, məhkəmə proseslərinin bütün iştirakçılarına təqdim etmək üçün oxşar analitik xidmətləri inkişaf etdirir. Bu ildən Qazaxıstan məhkəmələrində istifadə edilən ikinci İT məhsulu isə robot texnikasının tətbiqidir. Aydın qərar qəbuletmə alqoritmlərinə əsaslanaraq, robot məhkəmənin mülahizəsinin qanunla ciddi şəkildə məhdudlaşdırıldığı hallarda məhkəmə aktlarının layihələrini hazırlayır. Məsələn, borcluya ölkədən çıxmağı qadağan edən sanksiya verilməsi kimi. Qanunlarımıza görə, üç gün ərzində o, şəxsin 250 avrodan artıq borcunun olub-olmadığını yoxlamalı və borcluya lazımi qaydada xəbərdarlıq etməlidir. Bu şərtlərin hər ikisi yerinə yetirildikdə sanksiya verilir, yerinə yetirilmədikdə isə imtina. Biz müvafiq məlumat bazalarını birləşdirmişik və indi robot materialın qəbulundan bir dəqiqə sonra sanksiyanın layihəsini hazırlayır. Bu halda qərarın imzalanması məsuliyyəti hakimin üzərinə düşür. Konstitusiyanın tələbləri pozulmur. Beləliklə, biz bir tərəfdən məhkəmələri rutinlikdən azad edə, digər tərəfdən isə məhkəmə səhvlərini minimuma endirə biləcəyik. Bu yenilik cəmi altı ay əvvəl tətbiq edilib.

**Ərazi yurisdiksiyası**

Bizim hər bir şəhərdə, hər bir rayonda məhkəmələrimiz var. Orada iki mindən çox hakim çalışır. Yalnız rəsmi məsələlərdə deyil, hakimlərlə ünsiyyət qura bilən yerli icra hakimiyyəti və hüquq mühafizə orqanları var. Korrupsiya risklərini istisna etmək üçün ötən ilin avqust ayından xarici ərazi yurisdiksiyası tətbiq edildi. Məsələn, siz Bakıda məhkəməyə müraciət etmisiniz. Tərəflər ekstraterritorial yurisdiksiya seçiblərsə, robot təsadüfi olaraq minlərlə hakim arasında onu bölüşdürəcək. Məsələn, Gəncədə və ya Sumqayıtda.

Yekun olaraq, hazırda üzərində işlədiyimiz qanunvericilik təşəbbüsləri haqqında məlumat vermək istəyirəm. Bu bizim üçün vacib olan başqa mövzularla bağlıdır. Məhkəmə sədrlərinin seçimi tətbiq olunur. Bu məsələ çoxdan hüquq ictimaiyyəti, sahibkarlar və hakimlər tərəfindən qaldırılmışdır. Bu gün məhkəmə sədrlərinin vəzifəsi prestijli deyil. Vakansiyalar çoxdur. 390 rayon məhkəməsindən 40-da məhkəmə sədri yoxdur. Bu, hər 10 məhkəmə deməkdir. Söhbət təkcə uzaq məhkəmələrdən getmir. Paytaxtda və rayon mərkəzlərində də sədr olmadan fəaliyyət göstərən 15 məhkəməmiz var. Seçkiliyin tətbiqi bu vəziyyəti dəyişməlidir. Hakimlər birliyi təkbaşına namizəd irəli sürə biləcək. Belə olan halda şəffaflıq artacaq və karyera inkişafı sistemi aydınlaşacaq.

Bundan əlavə, bölgə prokurorlarının hakimlərə qarşı əməliyyat-istintaq sanksiyası tətbiq etmək səlahiyyətlərindən məhrum ediləcəyi bir qanun layihəsi hazırlanmışdır. Bu hüquq yalnız Baş prokurora veriləcək. Bu, yerlərdə hüquq mühafizə orqanları tərəfindən hakimlərə təsir məsələsini həll edəcək. Nəhayət, biz bütün inzibati mübahisələr üzrə məhkəmədən əvvəl həll yollarının tətbiq edilməsi istiqamətində iş aparırıq. İnzibati məhkəmələrin işi inzibati orqanların işinin keyfiyyətindən birbaşa asılıdır. Təklif etdiyimiz mexanizm səhvləri tez və məhkəməsiz düzəltməyə, idarəetmə praktikasının vahidliyini təmin etməyə imkan verəcəkdir. Bu, məhkəmələrin yükünü azaltmaq üçün deyil, sadəcə aşağı orqanların fəaliyyətinə lazımi şəkildə idarə nəzarəti vasitəsidir.

Hörmətli həmkarlar!

Hazırda üzərində çalışdığımız məsələlərin yalnız bir hissəsini açıqladım. Onların hamısı cəmiyyətimizin Qazaxıstan məhkəmələrinə inamını və möhkəm etimadını təmin etmək məqsədi daşıyır. Bunun üçün biz qanunun aliliyini, ədalət mühakiməsinin yüksək keyfiyyətini və pozulmuş hüquq və qanuni maraqların bərpasını təmin etməyə borcluyuq.

Azərbaycanlı həmkarlarımızı Ali Məhkəmənin bir əsrlik yubileyi münasibətilə bir daha təbrik edirəm. Əməkdaşlığımız bizim məhkəmə sistemləri üçün xeyli faydalı olmuşdur və bunun daha da çox bəhrəsi olacaqdır.

Bütün konfrans iştirakçılarına möhkəm can sağlığı, ailə səadəti və qarşıya qoyduqları bütün niyyətlərinin həyata keçməsini arzulayıram!

Diqqətiniz üçün təşəkkür edirəm!

## Çex Respublikası Ali Məhkəməsinin sədri Petr Anqialossinin çıxışı

### Vahid Məhkəmə təcrübəsinin formalaşdırılmasında Ali Məhkəmənin rolu

Möhtərəm sədrlər, Hörmətli hakimlər və qonaqlar!

İcazənizlə müzakirələrə töhfə vermək və vahid məhkəmə təcrübəsinin mərhələli şəkildə formalaşdırılmasında Çex təcrübəsini təqdim etmək üçün yaradılan fürsətə görə öz təşəkkürümü bildirim. Konstitusiyanın 92-ci maddəsində nəzərdə tutulduğu kimi, Çex Respublikasının Ali Məhkəməsi mülki və cinayət işləri üzrə ən yüksək səlahiyyətli məhkəmədir və bu baxımdan mühüm rol oynayır. Çex Ali Məhkəməsinin sədri kimi bir neçə qeydi təqdim etməkdən şərəf duyuram.




Bir fərdin işinə digər, eyni və ya müqayisə edilə bilən şərtlər altında olan işlə eyni cür baxılması hüquqi müəyyənlik prinsipinə və qanuni gözlənti prinsipinə bağlıdır və bu baxımdan əhəmiyyətli dərəcədə qanunun aliliyinə bağlıdır. Son hüquqi tənzimləyici bazada, hətta konstitusiya quruluşundan kənarda da qərar qəbuletmə fəaliyyətinin nəticələrinin vahidliyi tələbi getdikcə daha çox vurğulanır[1]. Buna görə də vahid məhkəmə təcrübəsi hələ də aktual mövzudur.

Ali Məhkəmənin presedent hüququnun vahidləşdirilməsi barədə müzakirə aparmaq onun qərarlarının məcburi qüvvəsi məsələsini heç olmasa qismən qeyd etmədən çətindir. Eyni işlər üzrə yuxarı məhkəmənin hüquqi mülahizəsinin məcburiliyi barədə fikir ayrılığı azdır. Bununla yanaşı, fərdi prosessual qaydalar özləri bu kimi məcburiliyi yaradır.

Müstəsna hallarda, məcburi hüquqi mülahizədən kənara çıxmaq hakimin intizam məsuliyyətinə cəlb edilməsinə səbəb ola bilər. Ümumilikdə kontinental hüquqda tez-tez olduğu kimi, qərarlaşdırılmış president hüququna da xüsusi diqqət yetirilir. Ali Məhkəmə ən yüksək məhkəmə orqanı kimi mülki və cinayət mühakimə icraatında məhkəmələrin yurisdiksiyasına aid edilən məsələlərdə qərarların qəbulunun vahidliyini və qanuniliyini təmin edir.

Qərar qəbulu zamanı Ali Məhkəmənin presedent hüququnu ardıcıl surətdə əks etdirməklə hüquqi müəyyənlik konstitusiya prinsipini və faktiki oxşar işlərdə vahid qərar qəbul edilməsinə dair qanuni gözləntiləri yerinə yetirmək aşağı instansiya məhkəmələrinin vəzifəsidir. Bu baxımdan yuxarı instansiya məhkəmələrinin qərarları çox vaxt digər məhkəmələrin sonrakı qərarları üçün əsas yaradır. Əlavə edilməlidir ki, Konstitusiyanın 95-ci maddəsinə görə hakim yalnız qanuna tabedir. Buna görə də, aşağı instansiya məhkəmələri formal olaraq yuxarı məhkəmələrin presedent hüququna bağlı deyillər. Həqiqətən də presedent hüququndan gələn nəticələrə məhəl qoymamaq aşağı instansiya məhkəmələrinin hüququdur, lakin belə təşəbbüs - əgər o, konstitusiyaya uyğun olacaqsa, ədalətli məhkəmə araşdırması çərçivəsindən kənarda baş verə bilməz. Belə olan halda, nə üçün yuxarı məhkəmənin fikirlərini bölüşmədiyini və nə üçün həmin nəticələrin yeni hüquqi mülahizə ilə əvəz edilməsinin zəruriliyini ehtiyatla əsaslandırmaq aşağı məhkəmənin vəzifəsidir. Ali Məhkəmənin qərarlarından əsaslandırılmamış kənaraçıxma özbaşınalıq kimi görünə bilər.

"Məhkəmələr və Hakimlər haqqında" Qanunda göstərildiyi kimi, Ali Məhkəmə öz "[hüquqi] mülahizə"lərini (opinions) dərc etməlidir. Qeyd olunan qanunda nəzərdə tutulur ki, Ali Məhkəmə mülki və cinayət mühakimə icraatı üzrə məhkəmələrin yekun qərarlarına nəzarət edir və qiymətləndirir, məhkəmə qərarlarının vahidliyi naminə ayrı-ayrı işlər üzrə məhkəmələrin qərar qəbuluna dair rəylər (opinions) qəbul edir.

[1] Məsələn, Mülki Məcəllənin 13-cü maddəsində (Akt No. 89/2012 Coll.,) xüsusilə vurğulanır ki, hüquqi müdafiəyə müraciət edən hər bir şəxs əsas xüsusiyyətlərinə görə onun işi ilə eyni olan və artıq qərar verilmiş başqa işlə müqayisədə öz işinin oxşar şəkildə həll edilməsini ağlabatan şəkildə gözləyə bilər. Əgər iş başqa cür həll edilibsə, hüquqi müdafiəyə müraciət edən hər bir şəxs bu qərarın səbəbi ilə bağlı inandırıcı əsaslandırma alma hüququna malikdir.

Məhkəmə sədrinin, Kollegiya sədrinin və ya Böyük Palatanın sədrinin təklifi ilə Ali Məhkəmə hər hansı konkret işə bağlılığı olmayan qanunun mücərrəd şərhini verə bilər. Rəy (opinion) Ali Məhkəmənin Kollegiyalarından biri tərəfindən verilir. Alternativ olaraq, əgər məsələ hər iki Kollegiyaya aiddirsə və ya onlar arasında mübahisə predmetidirsə, o zaman Ali Məhkəmənin sədri rəyin Plenum tərəfindən qəbulunu təklif edə bilər. O da qeyd olumalıdır ki, rəyin qəbulu sonrakı mərhələdə presedent hüququnda əlavə dəyişiklikləri məhdudlaşdırır, ona görə ki, bunu yalnız yeni rəyin verilməsi ilə aradan qaldırmaq olar.

Ali Məhkəmənin Böyük Palatasının məhkəmə qərarlarının vahidliyinə töhfəsi də həmçinin əhəmiyyətlidir. Böyük Palata Ali Məhkəmənin məhkəmə tərkibi (panel) tərəfindən artıq formalaşdırılmış hüquqi mövqeyindən fərqli hüquqi mövqeyə gəldikdə qərar qəbul edir. Sözügedən işə istinad edərkən, məhkəmə tərkibi qərarda əksini tapan alternativ mövqeyi üçün əsaslandırma təqdim edir. Qeyd etmək lazımdır ki, hər Kollegiya üçün üçün yalnız bir Böyük Palata (Grand Panel) var. Böyük Palatanın önəmliliyi Konstitusiya Məhkəməsi tərəfindən də vurğulanıb. Belə ki, Konstitusiya Məhkəməsinin qərarına görə işin Böyük Palataya göndərmədən əvvəlki hüquqi mövqedən (rəydən) yayınmaq konstitusiya ilə təmin edilmiş hüquqların pozulmasıdır.

Məhkəmə qərarlarının vahidliyindən danışarkən, Çex Ali Məhkəməsinin digər bir fəaliyyətini – Məhkəmə Qərarları və Rəylərinin toplusunun nəşrini qeyd etmək zəruridir. “Məhkəmələr və Hakimlər haqqında” Qanunla Ali Məhkəmənin sözügedən toplunu dərc etmək səlahiyyəti var. Bu toplunun nəşrinin mümkünlüyü məhkəməyə müəyyən dövrdə xüsusi əhəmiyyət kəsb edən işlərə və hüquqi mülahizələrə diqqəti cəlb etməklə aşağı məhkəmələrlə, eləcə də digər peşəkarlarla dolayısı ilə əlaqə yaratmaq imkanı verir. Bu baxımdan, topluda dərc edilmiş fərdi işlər müvafiq Kollegiya daxilində aparılan müzakirələrin nəticəsidir.

Mülki Məcəllənin 2958-ci maddəsinə münasibətdə yalnız tövsiyə xarakteri daşıyan mexanizmlər arasında mənəvi zərərin ödənilməsi üzrə məcburi olmayan metodologiya da var ki, o da yuxarıda qeyd olunan Məhkəmə Qərarları və Rəyləri Toplusunda dərc olunur. Bununla da Ali Məhkəmə məhkəmə qərarlarının qəbulunda müəyyən dərəcədə proqnozlaşdırılabilənliyə nail olmaq üçün qanunla nəzərdə tutulmuş qeyri-dəqiq meyarların doldurulmasına kömək edir.

Baxmayaraq ki, Konstitusiya Məhkəməsi bununla bağlı bəzi tənqidi sözlər söyləyib, bu metodologiya sadə təlimatdır. Nəhayət, Konstitusiya Məhkəməsi özü bildirdi ki, aşağı məhkəmələr bunu rəhbər tutsalar, konstitusiya qanunu ilə müəyyən edilmiş tələblərə cavab verə bilərlər. Bununla belə, bu, onların şəraitin müəyyən kənaraçıxmalara yol verib-vermədiyini nəzərdən keçirəcəkləri və qərarları üçün düzgün əsaslandırma təmin edəcəkləri ehtimalından asılıdır.

Qeyd edilənləri nəzərə alaraq, icazənizlə bildirim ki, məhkəmə qərarlarının vahidliyi proses tərəfləri üçün hüquqi müəyyənliyin təməl daşıdır. Çex Ali Məhkəməsi bu işə öz töhfəsini hakimlərinin gündəlik fəaliyyəti də daxil, müxtəlif yollarla verir və həmçinin bunu etmək üçün institusional olaraq təchiz edilmişdir. Buna görə də Ali Məhkəmənin bu məsələdə rolu heç bir halda marginal hesab oluna bilməz.

Diqqətinizə görə təşəkkür edirəm!

## Qırğızıstan Respublikası Ali Məhkəməsinin sədri Zamirbek Bazarbekovun çıxışı

Hörmətli Ramiz Rzayev!

Hörmətli Beynəlxalq Konfransın iştirakçıları!

Xanımlar və cənablar!

İlk növbədə Qırğız Respublikasının Ali Məhkəməsi adından və şəxsən öz adımdan Azərbaycan Respublikasının Ali Məhkəməsini əlamətdar tarix - 100 illiyi münasibətilə təbrik edirəm.

Bu gün biz onun şahidi oluruq ki, Azərbaycan Respublikasının Ali Məhkəməsi formalaşdığı və inkişaf etdiyi illər ərzində həm öz ölkəsində, həm də onun hüdudlarından kənarda nüfuz qazanmış, hüququn tətbiqi və ədalət mühakiməsinin həyata keçirilməsinin mühüm məsələləri üzrə səlahiyyətli, hərtərəfli əsaslandırılmış mövqelər formalaşdırmışdır.




Və burada sizin xidmətlərinizi qeyd etməmək mümkün deyil, hörmətli Ramiz Rzayev! 18 ilə yaxındır ki, siz Azərbaycan Respublikasının məhkəmə sisteminə rəhbərlik edirsiniz. Sizin bilavasitə rəhbərliyiniz altında Azərbaycanın hüquq sisteminin ədalət və humanizm prinsiplərinə uyğun inkişafında Ali Məhkəmənin rolu durmadan artır, insan hüquq və azadlıqlarının cəmiyyətin ali dəyəri elan edildiyi ölkədə qanunun aliliyi, vətəndaşların hüquq və mənafelərinin müdafiəsi təmin edilir, məhkəmə hakimiyyətinə etimad və hörmət artır, habelə onun nüfuzu möhkəmlənir.

Hesab edirəm ki, Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş konfransın mövzusu çox aktualdır, çünki məhkəmə təcrübəsinin vahidliyi ədalət mühakiməsinin əsas prinsiplərindən birinin – hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinin həyata keçirilməsinə yönəlmişdir. Əks halda ədalət mühakiməsinin ədalətliliyi cəmiyyəti hər zaman narahat edəcək.

Konstitusiya səviyyəsində elan edilmiş hamının qanun və məhkəmə qarşısında bərabərliyi prinsipinin həyata keçirilməsi yalnız qanunun vahid tətbiqi ilə mümkündür. Qanunun aliliyi və ədalət mühakiməsinin ədalətliliyi ideyalarının həyata keçirilməsi üçün hüququn tətbiqi təcrübəsində hüquqi standartların tətbiqinə vahid yanaşma zəruridir.

Bu baxımdan məhkəmə təcrübəsi xüsusi əhəmiyyət kəsb edir ki, ölkənin Konstitusiyası və digər normativ hüquqi aktları onun ərazisində bütün məhkəmələr tərəfindən düzgün və vahid tətbiq edilsin. Yuxarıdakıları nəzərə alaraq vahid məhkəmə təcrübəsinin formalaşdırılması zərurəti, onun ardıcıllığı və aşağı məhkəmələr tərəfindən nəzərə alınması sualı yaranır.

Məhkəmə təcrübəsinin vahidliyi ədalət mühakiməsinin məqsədlərinə nail olmaq vasitəsi hesab edilməlidir, çünki o, məhkəmələr tərəfindən hüquqi mübahisələrə baxılmasına vətəndaş cəmiyyətinin inamının bir növ göstəricisi kimi çıxış edir.

Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi zərurəti bir sıra amillərlə bağlıdır.

Birincisi, hüququn bir çox sahələrində Qırğız Respublikasının qanunvericiliyi dəyişir və bəzən kəskin şəkildə dəyişir ki, bu da hüququn tətbiqi praktikasında bir çox suallar doğurur və hüquq normalarının ikili başa düşülməsinə səbəb ola bilir.

İkincisi, normativ hüquqi aktların əhəmiyyətli bazası, habelə ayrı-ayrı ifadələrin qeyri-müəyyənliyi və bulanıqlığı onların tətbiqində çətinliklər yaradır, müvafiq olaraq normativ aktlar arasında çoxsaylı ziddiyyətlər hüququn düzgün başa düşülməsində və tətbiqində böyük çətinliklər yaradır və işlərə baxılarkən səhvlərə yol aça bilir.

Məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi məsələsində Ali Məhkəməyə xüsusi rol verilir.

Qırğız Respublikası Ali Məhkəməsinin funksiyaları bir tərəfdən məhkəmələrin səlahiyyətləri - ədalət mühakiməsinin həyata keçirilməsi ilə eyni xarakter daşıyır, digər tərəfdən bu orqanın aparıcı rolu ilə əlaqədar xüsusiyyətlərə malikdir və aşağı instansiya məhkəmələrinin məhkəmə qərarlarına baxmaq, habelə

Qırğızıstan Respublikası qanunvericiliyinin tətbiqi ilə bağlı məhkəmə təcrübəsi məsələlərinə dair izahatlar vermək səlahiyyətləri ilə tamamlanır.

Qırğız Respublikası Ali Məhkəməsinin məhkəmə hakimiyyətinin ali orqanı kimi bu funksiyası Qırğız Respublikasının Konstitusiyasında, habelə "Qırğız Respublikasının Ali Məhkəməsi və yerli məhkəmələr haqqında" Qanunda təsbit edilmişdir.

Ali Məhkəmənin Plenumunun izahı məhkəmə təcrübəsinin ümumiləşdirilməsinə, məhkəmə statistikasının təhlilinə və Ali Məhkəmədə baxılan işlər üzrə qəbul edilmiş qərarlara əsaslanan qərar formasında verilir. Eyni zamanda, başa düşmək lazımdır ki, Ali Məhkəmənin Plenumunun belə bir qərarı müstəqil hüquq normaları yaratmır, yalnız hüquq normalarının tətbiqi qaydasını izah edir, yəni qanunun düzgün tətbiqi ilə bağlı məhkəmələrə göstərişlər verir, burada əsas məqsəd qanun normalarına əsaslanan vahid məhkəmə təcrübəsinin formalaşdırılmasıdır.

Ölkəmizin mövcud qanunvericiliyinə əsasən, Ali Məhkəmənin Plenumunun məhkəmə təcrübəsi məsələlərinə dair izahları Qırğız Respublikasının bütün məhkəmələri və hakimləri üçün məcburidir.

Lakin bu, həmişə belə olmayıb.

Bu onunla əlaqədardır ki, Ali Məhkəmə Plenumunun qərarlarının yerli məhkəmələr üçün məcburi olması norması bir çox mübahisəli məsələlərə səbəb olub. Bəzi alimlər və hüquqşünaslar hesab edirdilər ki, məcburiyyət tələbi "hakimlər müstəqildir və yalnız Konstitusiyaya və qanuna tabedir" prinsipinə ziddir.

1993-cü ildən 2003-cü ilə qədər Qırğız Respublikası Ali Məhkəməsi Plenumunun məhkəmə təcrübəsi məsələlərinə dair izahları tövsiyə xarakteri daşıyırdı.

Daha sonra 2003-cü ildə qəbul edilən 18 fevral tarixində qəbul edilən Konstitusiyanın yeni redaksiyasının müəllifləri nəzərə aldılar ki, izahların məqsədi təkcə məhkəmələrin diqqətini qanunların düzgün şərhinin zəruriliyinə cəlb etmək deyil, həm də hakimlərin bu təlimatlara riayət etmək vəzifəsidir ki, baxılan işlər qüvvədə olan qanununvericiliyə uyğun olaraq həll edilsin.

İşlərə baxılması üzrə məhkəmə təcrübəsi göstərmişdir ki, Ali Məhkəmənin Plenumunun izahlarının məcburi icrası prinsipinin olmaması ədalət mühakiməsinin həyata keçirilməsinin keyfiyyətinə mənfi təsir göstərmiş və bu da Ali Məhkəmə tərəfindən aşağı instansiya məhkəmələrinin aktlarının mütəmadi ləğvinə səbəb olmuşdur.

Lakin Konstitusiyanın 23 oktyabr 2007-ci il tarixli növbəti redaksiyasında aşağı instansiya məhkəmələrinin Ali Məhkəmənin Plenumunun izahlarının mütləq tətbiq etməli olması tələbi çıxarılmışdır.

Daha sonra 27 iyun 2010-cu il tarixli yeni Konstitusiyada Qırğız Respublikasının bütün məhkəmələri və hakimləri üçün məhkəmə təcrübəsi ilə bağlı Qırğız Respublikası Ali Məhkəməsi Plenumunun izahlarının məcburi olması ilə bağlı norma geri qaytarılmışdır.

Yuxarıda qeyd edildiyi kimi, Plenumun qərarlarının Qırğız Respublikasının məhkəmələri və hakimləri üçün məcburi aydınlaşdırılması prinsipi 5 may 2021-ci il tarixli qüvvədə olan Konstitusiyada da qorunub saxlanılmışdır.

Ali Məhkəmənin Plenumunun bütün məhkəmələr və hakimlər üçün məcburi izahları haqqında müddəa Ali Məhkəmənin ali məhkəmə orqanı kimi nüfuzunu nümayiş etdirir. Bundan əlavə, nəzərə almaq lazımdır ki, Ali Məhkəmə Plenumunun qərar layihəsi rəsmi qəbul olunmazdan əvvəl müəyyən prosedurdan keçir (qərar layihəsi onunla bağlı rəy almaq üçün aşağı instansiya məhkəmələrinə göndərilir, Ali Məhkəmənin məhkəmə kollegiyalarında, habelə Ali Məhkəmə yanında Elmi Məsləhət Şurasının iclasında müzakirə edilir, bundan sonra daxil olmuş düzəlişlər nəzərə alınmaqla yekunlaşdırılır). Plenumun iclasında qərarın hər bir bəndi üzrə praktiki işçilərin mövqeləri dinlənilir və müzakirə edilir.

Plenumun qərarının qəbulu ilə bağlı bu cür diqqətlə aparılan iş onda olan izahın əhəmiyyətindən xəbər verir, həm də konkret məhkəmə işlərinin həlli zamanı onların nəzərə alınmasının zəruriliyi qənaətini təsdiqləyir.

Qırğızıstan Respublikası Ali Məhkəməsinin Plenumu müxtəlif kateqoriyalı işlər üzrə məhkəmə təcrübəsi ilə bağlı qərarlar qəbul etmişdir. Məsələn: vərəsəlik münasibətləri sahəsində, girov haqqında, iflas haqqında, cəza təyin olunması haqqında, dələduzluq haqqında, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilmiş cinayətlərə dair işlər üzrə, istintaq hakimləri tərəfindən məhkəməyədək icraatda məhkəmə nəzarətinin həyata keçirilməsinə dair dövlət orqanlarının və yerli özünüidarə orqanlarının qərarlarına, hərəkətlərinə (hərəkətsizliyinə) etiraz edilməsi haqqında və digər qərarları göstərmək olar.

Beləliklə, deyə bilərik ki, Ali Məhkəmənin Plenumunun izahları və vahid məhkəmə təcrübəsinin inkişafı zəruridir, çünki onlar qanunvericiliyin tələblərinə əsaslanır, qanunun düzgün başa düşülməsinə və tətbiqinə, oxşar situasiyalarda mübahisələrin həllində məhkəmələrin vahid yanaşması və məhkəmə səhvlərinin qarşısını almağa kömək edir.

Bundan əlavə, məhkəmə təcrübəsi həmişə ədalət mühakiməsinin əsas məqsədinə - qanuni və əsaslandırılmış məhkəmə aktının qəbuluna nail olmağa xidmət edir.

Diqqətinizə görə təşəkkür edirəm!

## Qətər Dövləti Ali Məhkəməsinin sədr müavini Ahmed Ali Al-Binalinin çıxışı

Mərhəmətli və Rəhmli Allahın adı ilə

Həmd aləmlərin rəbbi olan Allaha məxsusdur. O, bizi müsəlman adlandırmış və bizləri aləmlərə şahid etmişdir. Peyğəmbərlərin ən şərəflisi, cənabımız və peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və bütün səhabələrinə salavat və salam olsun.

Möhtərəm dost Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev cənabları,

Hörmətli Ali və appelyasiya məhkəmələrinin sədrləri

Möhtərəm dostlar və qardaşlar,

Sizi İslamın salamı ilə salamlayaraq: Əssələmu aleykum va rahmətullahi va barakatuhu - deyirəm.

Dost Azərbaycan Ali Məhkəməsinin təsis olunmasının yüzilliyi ilə əlaqədar əldə olunmuş nəcib dəyərləri xatırlamaq üçün bu gün Qətər Dövlətinin nümayəndə heyəti ilə birlikdə sizin aranızda olmaqdan sevinc duyuram.




Tarix sübut edir ki, müxtəlif çeşidli və ixtisaslı hakimlər hər zaman hüquq və azadlıqların, ədalət və ədalətə əsaslanan mənəvi dəyərlərin müdafiəçiləri olublar. Onlar həmçinin yaradılışın mövcudluğunun əsası və sütunu, uca və nöqsansız olan Allahın ədalət üzərində yaradılmış mülkünün əsas tərənnümçüsü olmuşlar.

Ali məhkəmələr dövlətlərin konstitusiyalarının və onların qanunvericilik sisteminin müddəalarına uyğun olaraq məhkəmə işinin əsas interfeysi və güzgüsü, məhkəmə instansiya və orqanlarının işini nizamlayan orqan və birləşmənin təminatçısıdır. Ölkə boyunca məhkəmə qanunvericiliyi və qanunun aliliyinin təmin edilməsi məhz onlara həvalə olunmuşdur. Şübhəsiz ki, müasir konsepsiyada sosial ədalət insanın sosial, iqtisadi və mədəni hüquqlar toplusundan istifadə etmək hüququ ilə bilavasitə bağlıdır. Bu hüquqlar dövlətin qəbul etdiyi beynəlxalq sazişlərə əsaslanır.

Bu baxışa əsaslanaraq, 2004-cü ildən etibarən Qətər Dövlətinin Konstitusiyasında xüsusi bir fəsil yer alır. Həmin fəsil məhkəmə hakimiyyətinin işini qüvvəyə mindirir, onu tənzimləyir, onu icraedici orqanlardan tam müstəqil edir, hakimlərin tam müstəqil şəkildə Əlahəzrət Əmir Şeyx Təmim bin Həməd Al Taninin adından hökm verməyi təmin edir. Onların üzərində qanundan savayı heç bir səlahiyyət sahibi yoxdur.

Qətərin məhkəmə strukturunun başında birinci instansiya və appelyasiya məhkəməsində təcəssüm olunan iki aşağı məhkəmə mərhələsi, qanunun roluna və onun nəticələrinin düzgünlüyünə nəzarət edən edən Kassasiya Məhkəməsi dayanır. Burada biz Qətər Dövləti və dost Azərbaycan Respublikasındakı məhkəmə orqanlarının prinsipcə oxşarlığını görmüş oluruq.

Sonda Qətər Dövlətinin Ali Məhkəməsinin sədrinin və digər məhkəmə hakimlərinin və üzvlərinin salamlarını, təbriklərini çatdırmaqdan məmnunluğumu bildirirəm.

Hər bir müvəffəqiyyət Allahdandır.

Allahın salamı, rəhməti və bərəkəti sizin üzərinizə olsun.

## Macarıstan Ali Məhkəməsinin sədr müavini Andras Patyinin çıxışı

Hörmətli sədrlər, hakimlər, xanımlar və cənablar!

İcazə verin, Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyinə həsr olunmuş bu möhtəşəm beynəlxalq konfransa dəvətə görə sədr Ramiz Rzayevə səmimi minnətdarlığımı bildirim. Vahid məhkəmə təcrübəsinin formalaşmasında ali məhkəmələrin roluna həsr olunmuş konfransın panel hissəsində mən vahid məhkəmə təcrübəsi ilə bağlı məsələlərə cavabdeh olan sədr müavini kimi Macarıstan Kuriyasının (Ali Məhkəmə) məhkəmələrin presedent hüququnun vahidliyinin təmin edilməsində rolunu qısaca təqdim etmək istərdim.

Macarıstan Konstitusiyasının 25-ci maddəsinin 3-cü bəndinə əsasən, Kuriya ölkənin ali məhkəmə orqanı kimi hüquqi mübahisələrə dair qərar qəbul etməklə yanaşı, məhkəmələrin presedent hüququnun vahidliyini təmin edir və məhkəmələr üçün məcburi olan vahid qərarlar qəbul edir. Qeyd olunanlara əsaslanaraq, bunları müəyyən etmək olar: Birincisi, məhkəmə təcrübəsinin vahidliyi konstitusiyanın tələbidir, ikincisi, bütün Macarıstan məhkəmələri və hakimləri məhkəmələrin yurisdiksiyasının vahidliyini təmin etməyə çalışsalar da, Kuriya Macarıstan Konstitusiyasında təsbit edildiyi kimi, bu vahidliyin əsas təminatçısıdır.




Qanunun vahid tətbiqini təmin etmək üçün Kuriya bir sıra vasitələrdən istifadə edir. Bu baxımdan Kuriyanın vahid məhkəmə təcrübəsinə dair qərarlar və vahid məhkəmə təcrübəsi ilə bağlı şikayətlərə dair qərarlar qəbul etmək, palata rəyi vermək, yurisdiksiya ilə bağlı təhlillər aparmaq və öz fərdi qərarlarını presedent kimi dərc etmək hüququ vardır. Qeyd etmək lazımdır ki, 1 aprel 2020-ci il tarixindən etibarən məhkəmələrin presedent hüququnun və məhdud presedent sisteminin vahidləşdirilməsi üzrə yeni sistemə əsasən, Kuriyanın hüquqi mübahisəyə qəti şəkildə son qoyan bütün fərdi qərarları, Məhkəmə Qərarları Toplusunda dərc edildikdən sonra Kuriyanın hər bir məhkəmə kollegiyası, eləcə də aşağı instansiya məhkəmələri üçün məcburidir.

Vahid məhkəmə təcrübəsi ilə bağlı qərarlar vahid presedent hüququnu təmin etmək və ya əvvəllər vahid məhkəmə təcrübəsinə dair verilmiş qərarı dəyişdirmək və ya ləğv etmək üçün yeni qərar qəbul olunmasına ehtiyac varsa və ya Kuriya kollegiyası Məhkəmə Qərarları Toplusunda dərc edilmiş qərardan hüquqi nöqteyi-nəzərdən kənara çıxmaq istəyirsə, Kuriyanın sədri, sədr-müavini, Palatanın sədri, Kollegiya sədrləri, Kuriyanın məhkəmə heyəti və Baş prokurorun vəsatətinə əsasən başlanan icraat çərçivəsində qəbul olunur. Vahid məhkəmə təcrübəsinə dair şikayətlər üzrə qərarlar, konkret işin tərəflərinin fərqli məhkəmə təcrübəsinə istinad edərək verdiyi şikayətlərə əsasən başlanan icraatlar nəticəsində qəbul edilməlidir. Vahid məhkəmə təcrübəsinə dair şikayətlər üzrə icraatlar Macarıstan məhkəmə sistemində yeni hüquqi müdafiə vasitəsidir, çünki belə şikayətlər 1 iyul 2020-ci il tarixdən etibarən iş üzrə tərəflərin ərizəsinə əsasən təqdim edilə bilər.

Vahid məhkəmə təcrübəsi ilə bağlı icraat bu yaxınlarda Avropa İttifaqının Ədalət Məhkəməsinin ilkin qərar qəbuletmə icraatı modelinə əsaslanılaraq, vahid məhkəmə təcrübəsi ilə bağlı şikayət icraatına inteqrasiya edilmişdir. 1 yanvar 2022-ci il tarixindən etibarən Kuriyada belə şikayətlərlə bağlı daimi fəaliyyət göstərən iki panel yaradılmışdır. Qanunvericiliyə əsasən panelin tərkibinə Kuriyanın sədri və minimum səkkiz əlavə hakim daxil olmalıdır. Hazırda iki belə Panel fəaliyyət göstərir və onların hər birinin 21 üzvü vardır. Onlara Kuriyanın müvafiq kollegiyasının hakimləri, Kuriyanın əksər hakimləri və ya Kuriyanın bütün hakimləri (Plenum kimi) qoşula bilər və Panellər Kuriyanın Panel sədrləri və yüksək səviyyəli məhkəmə sədrlərindən ibarət tərkibdə fəaliyyət göstərirlər. Panellərin sədrləri panellərin hakimləri sırasından soyadlarının əlifba sırasına uyğun seçilir. İşlərin bölüşdürülməsi avtomatikdir və iki panel növbə

ilə işlərə baxır. Hər iki panelə Kuriyanın sədri rəhbərlik edir. Kuriyanın vahid məhkəmə təcrübəsinin təmin edilməsinə cavabdeh olan sədr müavini hər iki panelin üzvüdür. Şikayətlərin məqbulluğu barədə qərar müvafiq panelin bütün tərkibi tərəfindən qəbul edilir. 2022- ci ildə Kuriya vahid məhkəmə təcrübəsi ilə bağlı 41 işə baxmışdır, onlardan 23-nə mahiyyəti üzrə baxılmış, 16-sı mahiyyəti üzrə baxılmadan rədd edilmiş və ikisi yenidən qeydiyyata alınmışdır. Bundan əlavə, 2022- ci ildə Kuriya vahid məhkəmə təcrübəsinə dair 12 qərar qəbul etmişdir.

Yeni vahid məhkəmə təcrübəsi ilə bağlı qərarlar və vahid məhkəmə təcrübəsi ilə bağlı şikayətlərə dair qərarlar sisteminə əlavə olaraq, Kuriyanın üç kollegiyasının, yəni Cinayət Kollegiyasının, Mülki Kollegiyanın və İnzibati Kollegiyanın rəyləri mühüm rol oynamaqda davam edir. Qanunların vahid tətbiqini təmin etmək üçün Kuriyanın kollegiyaları aşağı instansiya məhkəmələrinin təcrübəsinə nəzarət edir və mübahisəli məhkəmə məsələləri üzrə rəy verir. Bu rəylərin məcburi qüvvəsi yoxdur, lakin praktikada bütün məhkəmələr tərəfindən lazımi qaydada nəzərə alınır.

Son olaraq, Kuriyanın hüquqi təhlil ilə bağlı fəaliyyətini qeyd etmək istərdim. Hər ilin əvvəlində Kuriyanın sədri, Kuriya kollegiyalarının rəyini aldıqdan sonra hüquqi təhlil işçi qrupları tərəfindən araşdırılacaq bir sıra mövzuları müəyyənləşdirir. İşçi qruplarının rəhbərləri və qrup üzvlərinin əksəriyyəti Kuriya hakimləri olmalıdır. Digər tərəfdən, qalan üzvlər aşağı instansiya məhkəmələrinin hakimləri, prokurorlar, hüquqşünaslar, qanuni nümayəndələr, elmi işçilər və digər hüquq peşəkarları arasından seçilirlər. Hər bir işçi qrupunun yekun məhkəmə qərarlarına əsaslanan nəticələri Kuriyanın müvafiq palatası tərəfindən təsdiqlənəcək hesabata daxil edilməlidir. Təsdiq edilmiş icmal hesabatlar daha sonra işçi qrupun araşdırma mövzusu ilə bağlı ədliyyə sisteminin üzvlərinə təlimat vermək üçün Kuriyanın internet saytında dərc olunur.

Yekunda qeyd etmək olar ki, Macarıstanın məhkəmə təcrübəsinin vahidləşdirilməsi sistemi və bu çərçivədə həyata keçirilmiş son islahatlar Kuriyanın Macarıstan məhkəmə sistemi daxilində qanunun vahid tətbiqini maneəsiz təmin etməsinə zəmanət verə bilmişdir.

Diqqətinizə görə təşəkkür edirəm və konfransın qalan hissəsində sizə səmərəli müzakirələr arzulayıram!

## Özbəkistan Respublikası Ali məhkəməsinin sədr müavini Xəlilillo Turaxujayevin çıxışı

Salam, hörmətli konfrans iştirakçıları!
Xanımlar və cənablar!

İcazə verin, Özbəkistan Respublikasının məhkəmə korpusunun adından Azərbaycan Ali Məhkəməsinin yaranmasının 100 illiyi münasibətilə səmimi təbriklərimi və bu cür əlamətdar tədbirdə iştirak üçün dəvətə görə minnətdarlığımı çatdırım.

Ötən illər ərzində müasir məhkəmə sisteminin yaradılması üçün Azərbaycan Respublikası Ali Məhkəməsi tərəfindən çox işlər görülüb. Onun əsasını hakimlərin müstəqilliyi və sərbəstliyi, ədalət mühakiməsinin əlçatanlığı və açıqlığı, məhkəmə prosesində çəkişmə imkanı təşkil edir.

Bu əlamətdar gündə Sizə və Azərbaycan Respublikasının bütün hakimlər korpusuna müvəffəqiyyət, məqsədyönlülük və yeni peşə nailiyyətləri arzu edirəm.




Hörmətli həmkarlar!

Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin formalaşmasında oynadığı rol haqqında danışarkən, ilk növbədə, qısa olaraq son illər ərzində ölkəmizdə məhkəmə sistemində edilmiş əhəmiyyətli dəyişikliklər üzərində dayanmaq istərdim.

Özbəkistanda həyata keçirilən islahatların əhəmiyyətli istiqamətlərindən biri məhkəmə-hüquq sisteminin demokratikləşməsi və liberallaşdırılmasıdır.

Belə ki, son 6 il ərzində respublikamızda məhkəmə-hüquq sahəsində 50-dən çox sərəncam verilib və qətnamə qəbul olunub.

Məhkəmələrin əsl müstəqilliyinin təmin edilməsinə və vətəndaşların hüquqlarının, azadlıqlarının və qanuni maraqlarının etibarlı şəkildə müdafiə olunmasına dair təminatların möhkəmləndirilməsinə, vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının artırılmasına xüsusi diqqət yetirilir.

Ölkədə mülki, cinayət, inzibati və iqtisadi məhkəmə icraatı sahəsində vahid ali məhkəmə hakimiyyəti orqanı, daha dəqiq desək, Ali Məhkəmə fəaliyyət göstərir. Bu da məhkəmə sistemində idarəetmə funksiyalarının təkrarlanmasının aradan qaldırılmasına və vahid məhkəmə və hüquq tətbiq təcrübəsinin formalaşmasına gətirib çıxarmışdır. Bu müddəa Konstitusiyanın 112-ci maddəsində təsbit edilmişdir.

Hakimlərin ixtisaslaşmalarının ciddi şəkildə qorunub saxlanması və məhkəmə icraatı növləri üzrə ayrı-ayrı məhkəmə kollegiyalarının yaradılması şərtilə, ümumi yurisdiksiya məhkəmələri, habelə müstəsna olaraq publik hüquq münasibətlərindən irəli gələn işlərə baxılmasında ixtisaslaşan rayonlararası inzibati məhkəmələr yaradılmışdır.

Məhkəmə sisteminin təkmilləşdirilməsi prosesi bu gün də fasiləsiz olaraq davam etməkdədir.

Oliy Majlisə (Ali Məclisə) və Özbəkistan xalqına yönəlmiş Özbəkistan Respublikasının dövlət müstəqilliyinin 31 illiyinə həsr olunmuş müraciətdə ölkəmizin Prezidenti məhkəmə-hüquq sistemində bundan sonra da islahatların aparılacağına dair məsələlərə xüsusi diqqət yetirmişdir.

Cari ilin yanvar ayında Prezidentin ədalət mühakiməsinə və məhkəmələrin fəaliyyətinin effektivliyinin artırılmasına keçidin daha da genişləndirilməsi üzrə əlavə tədbirlər haqqında sərəncamlarının verilməsi ölkəmizdəki məhkəmə islahatının əhəmiyyətli mərhələsi olmuşdur. Həmin sərəncamlara əsasən, dəyişikliklər aşağıdakılardır:

2023-2026-cı illər üzrə məhkəmə sisteminin keyfiyyətcə yeni səviyyəyə qaldırılması üzrə qısamüddətli Strategiya və onun həyata keçirilməsi üzrə tədbirlər Proqramı təsdiqlənmişdir.

Yuxarı instansiya məhkəmələri tərəfindən məhkəmə qərarlarına təkrar baxılması qaydasında islahatlar aparılır: məhkəmələrin müstəqilliyinin gücləndirilməsi və hakimlərin hüquqlarını məhdudlaşdıran

əməliyyat-axtarış tədbirlərinin yalnız Baş prokurorun sanksiyası əsasında aparılmasının müəyyən edilməsi yolu ilə hakimlərin toxunulmazlığının təmin edilməsi üzrə tədbirlər görülmüşdür.

Məhkəmə icraatının bütün mərhələlərində tərəflərin çəkişmə imkanı və bərabərliyi prinsiplərinin ədalət mühakiməsinin icraatında əməkdaşlığın göstərilməsi üzrə İxtisaslaşdırılmış prokurorlar korpusunun yaradılması yolu ilə tam həcmdə həyata keçirilməsinə istiqamətlənmiş yeni mexanizmlər tətbiq edilir.

2023-2026-cı illər üzrə məhkəmə sisteminin informasiya siyasətinin konsepsiyası tərtib olunur.

Məhkəmə-hüquq sahəsində edilən bu dəyişikliklər məhkəmələrin fəaliyyətinin effektivliyinin və ədalət mühakiməsinin icraatı səviyyəsinin artırılmasına xidmət edəcək, habelə məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmləndirilməsinə, məhkəmələrin açıqlığına və şəffaflığına, vətəndaşların və sahibkarların hüquqlarının və qanuni maraqlarının müdafiəsinə dair təminatların gücləndirilməsinə səbəb olacaqdır.

Hörmətli iştirakçılar!

Məruzəmin mövzusuna qayıdaraq, Ali Məhkəmənin Plenumunun vahid məhkəmə təcrübəsinin formalaşmasında oynadığı əhəmiyyətli və müstəsna rolunu vurğulamaq istərdim.

Belə ki, 2021-ci ildə yeni redaksiyada qəbul edilmiş "Məhkəmələr haqqında" əsas xüsusi Qanunun müddəalarına uyğun olaraq, Ali məhkəmə Plenumuna: məhkəmə təcrübəsinin ümumiləşdirilməsi materiallarına baxılması və qanunvericiliyin tətbiq edilməsi məsələləri üzrə izahların verilməsi; Ali Məhkəmənin kollegiyalarının fəaliyyəti haqqında, qanunvericiliyin tətbiq edilməsi təcrübəsi və respublikanın məhkəmələri tərəfindən Ali məhkəmə Plenumunun qanunvericiliyin tətbiq edilməsi məsələləri üzrə izahlarının yerinə yetirilməsi, məruzələrin dinlənməsi kimi səlahiyyətlər verilmişdir.

Məhkəmə təcrübəsinin dəqiq və vahid şəkildə formalaşması məqsədilə Ali Məhkəmənin Rəyasət Heyətinin "Özbəkistan Respublikası Ali məhkəməsi Plenumunun Qətnamələrinin layihələrinin hüquqi-texniki aspektinin tərtib edilməsi və rəsmiləşdirilməsi qaydası haqqında" Qətnaməsi qəbul edilmişdir.

Vahid məhkəmə təcrübəsinin formalaşdırılması prosesində ümumi qəbul edilmiş prinsiplərin və beynəlxalq hüquq normalarının, qabaqcıl dövlətlərin xarici təcrübəsinin, elmi təşkilatların, alimlərin və mütəxəssislərin tövsiyələrinin, habelə hüquq normalarının izahı sahəsində ictimai rəyin öyrənilməsi əhəmiyyətli məna kəsb edir.

Beləliklə, təkcə 2022-ci il ərzində 23 məhkəmə təcrübəsi ümumiləşdirməsi həyata keçirilmiş, onların nəticələrinə əsasən, Ali məhkəmə Plenumunun 6 qətnaməsi qəbul edilmişdir.

Sistematik əsaslarla aşağı instansiya məhkəmələri ilə birlikdə Ali Məhkəmə Plenumunun qətnamələrinin izahlarının məhkəmə təcrübəsində düzgün və dəqiq tətbiq edilməsi ilə bağlı izahedici tədbirlər keçirilir.

Bundan əlavə, işlərə baxılması keyfiyyətinin yaxşılaşdırılması və vahid hüquq tətbiqi təcrübəsinin formalaşdırılması məqsədilə Ali Məhkəmə tərəfindən hakimlik ixtisasının və peşəkarlığın artırılması üzrə fəaliyyət həyata keçirilir, habelə məhkəmə təcrübəsi ümumiləşdirmələri və metodik vəsaitlər nəşr olunur.

Ali Məhkəmə yanında fəaliyyət göstərən Elmi-konsultativ şurasının praktik əhəmiyyətini və vacibliyini qeyd etmək istərdim. Bu Şuranın əsas vəzifəsi məhkəmə təcrübəsində irəli gələn qanunvericiliyin tətbiqi məsələləri üzrə elmi əsaslı tövsiyələrin hazırlanmasıdır. Şura ictimai əsaslarla fəaliyyət göstərir və məhkəmə sədrlərindən, ədliyyə işçilərindən, prokurorlardan, vəkillərdən və elmi cəmiyyət üzvlərindən ibarətdir.

Hörmətli həmkarlar!

Mükəmməlliyin sərhədlərinin olmadığını dərk edərək, biz, ədalət mühakiməsi sahəsində yüksək standartlara nail olmaq və insan hüquqlarını təmin etmək məqsədilə qərarlı şəkildə açıq dialoqa, məhsuldar əməkdaşlığa və xalqlarımız arasındakı dostluğun möhkəmləndirilməsinə hazırıq.

Diqqətinizə görə minnətdaram!

## Türkmənistan Ali Məhkəməsinin sədr müavini Toynazar Xudaynazarovun çıxışı

Hörmətli konfrans iştirakçıları!

İlk növbədə Azərbaycan Ali Məhkəməsinin 100 illiyinə həsr olunmuş konfransda iştirak etdiyim üçün Ali Məhkəmənin rəhbərliyinə minnətdarlığımı bildirirəm.

Azərbaycan Respublikası Ali Məhkəməsinin kollektivini 100 illik yubileyi münasibətilə Türkmənistan Ali Məhkəməsinin sədri və kollektivi adından ürəkdən təbrik edirəm.




Şərəfli və çətin missiya olan ədalət mühakiməsinə xidmət etmək vəzifəsi hakimlərdən və məhkəmə işçilərindən yüksək bilik, təcrübə, həmçinin şərəf, ləyaqət və fədakarlıq kimi şəxsi keyfiyyətlərə malik olmağı tələb edir. Məhkəmə hakimiyyətinin nüfuzu daha çox onun nə dərəcədə yaxşı fəaliyyət göstərməyindən və hər bir əməkdaşının öz vəzifələrini vicdanla yerinə yetirməsindən asılıdır.

Azərbaycan Respublikası Ali Məhkəməsinin

100 illik yubileyində bu illər ərzində Ali Məhkəmənin yaradılmasına öz töhfəsini verərək günü-gündən ədalətin möhkəmlənməsində zəhmət çəkən şəxslərə ən səmimi ehtiramlarımı ifadə edirəm.

Bütün hakimlərə və məhkəmə işçilərinə səmimi qəlbdən tükənməz enerji, peşəkar mükəmməlliyin yeni zirvələri, cansağlığı və firəvanlıq arzulayıram. Arzu edirəm ki, sizin zəhmətiniz gələcəkdə məhkəmə sisteminin təkmiləşdirilməsinə öz töhfəsini versin.

Hazırda Azərbaycanla Türkmənistan arasında dostluq münasibətləri bir çox sahələrdə zənginləşərək yeni müstəvilərə ucalmışdır.

Azərbaycan Respublikasının dövlət siyasəti insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində, o cümlədən də məhkəmə təcrübəsi sahəsində bizim üçün böyük maraq doğurur və biz bu müsbət təcrübənin öyrənilməsinə xüsusi önəm veririk. Əlaqələrimizin möhkəmlənməsi üçün hər iki ölkənin məhkəmə orqanlarının qarşılıqlı fəaliyyət göstərməsi böyük əhəmiyyət kəsb edir və bu əlaqələr gələcəkdə də davam etdiriləcəkdir.

Konfrans iştirakçılarına səmimi qəlbdən uğurlu və məhsuldar iş, cansağlığı və firəvanlıq arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm!

## Rusiya Federasiyası Ali Məhkəməsinin sədri Pyotr Serkovun çıxışı

Hörmətli sədr!

Hörmətli konfrans iştirakçıları!

Ötən ilin dekabrında Rusiya Federasiyası Ali Məhkəməsi 100 illik yubileyini qeyd etmişdir. Bu illər ərzində o, Rusiya dövlətçiliyində öz rolunu sabit saxlamış və möhkəmləndirmişdir. Bununla əlaqədar, icazə verin, Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimləri və Aparat işçilərini bu cür bayram münasibətilə təbrik edim. Qoy, bundan sonra da sizin fəaliyyətiniz Azərbaycan Respublikasını yaratmış xalqın rifahını təmin etsin.

İcazə verin, konfransda iştirak etmək üçün dəvətə və məhkəmə təcrübəsinin vahidliyinin təmin edilməsi ilə bağlı təcrübə mübadiləsi imkanına görə də minnətdarlığımı bildirim. Aydındır ki, bu vəzifə hər bir ali məhkəmə, o cümlədən Rusiya Federasiyasının Ali Məhkəməsi üçün prioritet məsələdir. Faktiki olaraq, söhbət Rusiya Federasiyasının bütün ərazisində məhkəmə-hüquq normaları sistemini tətbiq edərkən səhv etmək riskini azaltmaqla Rusiya ədalət mühakiməsinin keyfiyyətinin yaxşılaşdırılmasından gedir.

Rusiya Federasiyasının Ali Məhkəməsi federal konstitusiya əsasında formalaşmış məhkəməyə aid mülki məsələlər, iqtisadi mübahisələrin həlli, cinayət, inzibati və digər məsələlər üzrə ali məhkəmə orqanıdır. Qeyd etmək lazımdır ki, Rusiya dövləti məhkəmə sisteminin fəaliyyətinə xüsusi əhəmiyyət verir.

Rusiya Federasiyası Konstitusiyasının 20-dən çox maddəsinin məhkəmə orqanlarının fəaliyyətinin tənzimlənməsinə yönəlməsi də bunu göstərir.

Dinamik işləyən və ardıcıl şəkildə inkişaf edən məhkəmə sisteminin əsas vəzifəsi vətəndaşların, bütün çoxmillətli Rusiya ictimaiyyətinin bilavasitə qüvvədə olan hüquq və azadlıqlarının müdafiəsindən ibarətdir.

Məhkəmə təcrübəsinin vahidliyinə nail olmaq istiqamətində işlər obyektiv xüsusiyyətlərin olduqca spesifik şəraitində həyata keçirilir. Bura coğrafi xüsusiyyətlər və statistik məlumatlar aiddir.

Beləcə, Rusiya Federasiyasının növbəti göstəricilərlə əyani şəkildə təsvir olunmuş ərazi ölçülərini nəzərə almaq lazım olur. Petropavlovsk-Kamçatski şəhəri Kamçatka diyarının, Rusiyanın ən şərqi subyektinin inzibati mərkəzidir. Onu Moskva şəhərindən 10 min kilometrdən çox məsafə və 9 saat qurşağı ayırır. Bizim Ali Məhkəmədə iş günü başlayanda orada artıq yekunlaşır. Qeyd olunan obyektivlik bir sıra digər regionlara da aiddir.

İkinci çətinlik ümumi yurisdiksiya məhkəmələri və arbitraj məhkəmələri tərəfindən həll edilən mübahisələrin çoxluğu və müxtəlifliyindədir. Belə ki, 2022-ci ildə Rusiya Federasiyasının məhkəmələri tərəfindən 40 719 538 işə, onlardan 25 693 919 mülki, 1 696 179 iqtisadi, 5 304 607 inzibati, 7 259 094 inzibati xətalar haqqında və 765 739 cinayət işlərinə baxılmışdır.

Üçüncü çətinlik hakim korpusunun sayının çoxluğu ilə bağlıdır. Hazırda federal məhkəmə hakimlərinin ümumi ştat sayı 29 976 vəzifədən ibarətdir, onlardan 25 483-ü ümumi yurisdiksiyalı federal məhkəmə və 4 493-ü federal arbitraj məhkəməsinin hakimləridir. Bundan əlavə, 7 733 sülh məhkəməsinin hakimi çalışır. Beləliklə, Rusiyada ədalət mühakiməsini 37 709 hakim həyata keçirir.

Məhkəmə təcrübəsi vahidliyinin təminatı məsələsi aşağıdakı əsas formalarda yerinə yetirilir.

İlk növbədə məhkəmə quruluşuna dəyişikliklər haqqında 29 iyul 2018-ci il tarixli 1-FKQ (1-ФКЗ) №-li Federal Konstitusiya qanununu qeyd etmək yerinə düşərdi. Bu qanuna əsasən ümumi yurisdiksiyalı məhkəmələrdə 9 kassasiya dairə məhkəməsi və 5 apellyasiya məhkəməsi yaradılmışdır. Bundan əlavə, 1 kassasiya və 1 apellyasiya hərbi məhkəməsi yaradılmışdır. Arbitraj məhkəmə sistemində ötən əsrin 90-cı illərinin ortalarında 10 dairə məhkəməsi, 2003-cü ilin iyulunda isə 21 apellyasiya məhkəməsi formalaşdırılmışdır. Məhkəmə sisteminin müntəzəmliyinin artırılması Rusiya ədliyyəsinin cari fəaliyyətində aksentləri bölüşdürür və RF Ali Məhkəməsinin diqqətini məhkəmə praktikasının konseptual məsələlərinə yönəldir.

Rusiya Federasiyası Ali Məhkəməsi tərəfindən məhkəmələrin fəaliyyətində yaranan müəyyən məsələlərin həllinə dair konstitusiya müddəaları və federal konstitusiya qanunlarının[2] normaları ilə nəzərdə tutulmuş səlahiyyətlərin reallaşdırılması məhkəmə təcrübəsi vahidliyinin təmin edilməsinin daha çox tələb

[2] Rusiya Federasiyası Konstitusiyası, maddə 126; “Rusiya Federasiyasının məhkəmə sistemi haqqında” Federal konstitusiya qanunu, maddə 19, hissə 4; “Rusiya Federasiyası Ali Məhkəməsi haqqında” Federal konstitusiya qanunu, maddə 5, hissə 3, bənd 1.

olunan forması olaraq qalır. Bununla əlaqədar Ali Məhkəmə Plenumunun qərarlarında təfsirlərin məhsuldarlığını qeyd etmək fərəh doğurur. 1992-ci ildən başlayaraq, Plenum 700-dən artıq bu cür qətnamə qəbul edib ki, bu da şübhəsiz, məhkəmə qərarlarının qanunilik və əsaslılıq (inandırıcılıq) səviyyəsinin yüksəlməsinə təsir edib. Onlar, bir qayda olaraq, bir mövzuda birləşmiş 30-40 maddədən təşkil olunur.

Burada məzmun məhkəməyə konkret işi necə həll etməyi diqtə etmir, məhkəmələrdə yer alan çoxlu sayda hüquqi vəziyyətlərin rasional və sistemli dərkini translyasiya edir.

Məhkəmə təcrübəsinin vahidliyi üçün başlıca istiqamət kimi Rusiya Federasiyası Konstitusiyasının hüquqi normalarının ideya məzmunu çıxış edir. Konstitusiya hüquq və vəzifələri anlayışının deklarativ olmaması üçün Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun "ədalət mühakiməsinin həyata keçirilməsi zamanı məhkəmələr tərəfindən Rusiya Federasiyası Konstitusiyasının tətbiqinin bəzi məsələləri haqqında" 1995-ci il 31 oktyabr tarixli qərarında göstərilir ki, işə baxılan zaman məhkəmələr baxılan hüquq münasibətlərini tənzimləyən qanun və digər normativ aktın məzmununu qiymətləndirməli və bütün lazımi hallarda Rusiya Federasiyası Konstitusiyasını birbaşa fəaliyyət aktı qismində tətbiq etməlidirlər.

Cinayət mühakimə üsulu sahəsində "Məhkəmə hökmü haqqında", "Rusiya Federasiyasının Cinayət-prosessual Məcəlləsi normalarının məhkəmələr tərəfindən tətbiqi haqqında" kimi qətnamələri qeyd etmək olar. Plenumun mülki məsələlərə baxılmasına dair qətnaməsində Konstitusiya normalarının tətbiqinə əsaslanan xeyli mühüm təfsirlər verilmişdir. Məsələn, "Məhkəmə qərarı haqqında", "Rusiya Federasiyası məhkəmələri tərəfindən Rusiya Federasiyası Əmək Məcəlləsinin tətbiqi haqqında", "Vətəndaşlar tərəfindən əmək pensiyaları hüququnun reallaşdırılması ilə əlaqədar işlərin baxılması zamanı məhkəmələrdə yaranan bəzi məsələlər haqqında".

Bundan əlavə, RF Ali Məhkəməsi tərəfindən hər rüb üçün cari qanunvericilik və məhkəmə təcrübəsində hüquq tətbiqetmənin müxtəlif məsələlərini işıqlandıran İcmalları hazırlanır. Göstərilən İcmallar kassasiya, apellyasiya, diyar, vilayət və onlara bərabər məhkəmələrə, federal hakimiyyət orqanlarına, elmi müəssisələrə göndərilir, həmçinin RF Ali Məhkəməsinin rəsmi nəşrində - RF Ali Məhkəməsinin Bülletenində dərc olunur və RF Ali Məhkəməsinin rəsmi saytında yerləşdirilir.

Rusiya Federasiyası Ali Məhkəməsinin Plenum qərarlarında və Rəyasət heyəti tərəfindən təsdiq olunan məhkəmə təcrübəsi İcmallarında təfsirin vacibliyi prosessual normalarla tənzimlənir. Qeyd olunan təfsirin eyniliyinin və göstərilən normaların tətbiqinin pozulması qanuni qüvvəyə minmiş məhkəmə qərarlarının ləğvinə nəzarət qaydasında əsas verir[3].

Məhkəmə təcrübəsi vahidliyinin və qanuniliyinin təmin olunmasında RF Ali Məhkəməsinin rolu həm də onunla müəyyən olunur ki, RF Ali Məhkəməsinin Rəyasət Heyəti nəzarət instansiya məhkəməsi qismində Rusiya Federasiyasının istənilən məhkəməsinin qanuni qüvvəyə minmiş qərarlarını nəzərdən keçirir.

Ali Məhkəmənin Plenumu və ya Rəyasət Heyətinin qərarında hüquq normalarının tətbiqi təcrübəsinin dəyişdirilməsi bu normaların tətbiq olunduğu məhkəmə qərarlarına yeni şərtlər üzrə baxılmasına əsas verir[4].

RF Ali Məhkəməsinin tabe məhkəmələrlə prosessual əlaqəsinin məhkəmələrin və hakimlərin müstəqilliyi kimi konstitusiya prinsipinin qorunması yolu ilə həyata keçirilməsi haqqında müddəa çox vacibdir. Bu o deməkdir ki, cinayət, mülki işlərə və inzibati xəta pozuntularına yenidən baxılarkən Rusiya Federasiyası Ali Məhkəməsi məhkəmə qərarlarının ləğvi zamanı:

birinci instansiya məhkəməsinin müəyyən etmədiyi və ya onun təkzib etdiyi faktları müəyyən etmir;

hər hansı faktların isbatı və ya isbatsızlığı məsələlərini əvvəlcədən həll etmir;

bir sübutun digərlərindən üstünlüyünə, həmçinin işə təkrar baxılması zamanı tabe instansiya tərəfindən hansı qərarın verilməsinə dair nəticə çıxarmamalıdır.

Əsasən hüquq normalarının rəsmi məhkəmə təfsirinin üç dərəcəsi haqqında danışmaq lazımdır. Qeyd olunan iyerarxiyanın əsasında konkret işlərə apellyasiya və kassasiya qaydasında baxılan zaman Ali məhkəmənin Məhkəmə kollegiyasında qəbul olunan aktlar dayanır[5]. İkinci dərəcə Rusiya Federasiyası Ali Məhkəməsi Rəyasət Heyətinin məhkəmə təcrübəsi icmalları ilə təsdiqlənən və nəzarət qaydasında nəzərdən keçirilən

---

[3] RF MPK, maddə $391^{9}$, bənd 3; RF APK, maddə $308^{8}$, bənd 3; RF İMK maddə 341, bənd 3.

[4] RF MPK,maddə 392, bənd 5, hissə 4;RFAPK, maddə 311, bənd 5, hissə 3;RF İMK maddə 350, bənd 5, hissə 1.

[5] RF CPK m. 35, h. 5; m. $389^{3}$, h. 2, b.5; "Rusiya Federasiyası Ali Məhkəməsi haqqında" 05.02.2014-cü il tarixli 3-FKQ №-li Federal Konstitusiya qanunu m. 5, 8, 10; RF MPK m. $390^{2}$, h.1; RF MPK m.$390^{4}$; RF MPK m. $390^{13}$, h. 1; RF APK m. $291^{1}$; RF İMK m. $291^{6}$, h. 7 - 11 h. 1 m. 20, h. $2^{1}$ m. 322, m.323; RF CPK m. $401^{3}$, h.1, b. 2, b. 4, h.3, b.2.

işlərə dair qərarlardan təşkil olunur. Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun qərarları daha yüksək hüquqi qüvvənin təfsiri kimi çıxış edir.

Gətirilən dəlillər ehtimal etməyə əsas verir ki, Ali Məhkəmə mövcud qanunvericiliyin məhkəmələr tərəfindən vahid şərhini və tətbiqini təmin etmək üçün sistemli iş aparır. Ədalət mühakiməsinin cəmiyyətə mənəvi məmnunluq və dövlətə nüfuz qazandırmasına xüsusi diqqət ayrılır. Bu səbəbdən də məhkəmə təcrübəsinin vahidliyi etik məsələləri aktuallaşdırır.

Bir məsələni də qeyd etmək vacibdir. Ali Məhkəmə Plenumunun formalaşdırdığı hüquqi mövqelər yalnız məhkəmələrin fəaliyyətinə ciddi təsir göstərmir. Onların qanunverici orqan tərəfindən hüquq normaları formatına çevrilməsinə dair bir sıra nümunələr var. Bundan əlavə, Rusiya Federasiyası Ali Məhkəməsi Plenumunun qərarları hüquq ictimaiyyəti, o cümlədən xarici tədqiqatçılar tərəfindən həm hüquq tətbiqi üçün, həm də elmi məqsədlərlə aktiv istifadə olunur.

Diqqətiniz üçün təşəkkür edirəm!

## Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin yekun nitqi

Hörmətli xanımlar və cənablar,

Çox hörmətli qonaqlar!

Hesab edirəm ki, Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransın qarşıya qoyduğu əsas məqsədlərinə çatdığını söyləmək olar.

Bu gün biz Azərbaycan Respublikası Ali Məhkəməsinin 100 ildə keçdiyi şərəfli bir tarixi vərəqlədik. Həmçinin Sizin məhkəmə sisteminin təkmilləşdirilməsi və inkişaf perspektivləri ilə bağlı çox dəyərli çıxışlarınızı dinlədik. Xüsusilə vahid məhkəmə təcrübəsinin yaradılması sahəsində fikir mübadiləsi apardıq, qənaətlərimizi bölüşdük.

Konfrans "Ali Məhkəmənin vahid məhkəmə təcrübəsinin yaradılmasında rolu" mövzusuna həsr olunmuşdu. Mövzu ilə bağlı təklifləriniz çox önəmlidir. İrəli sürdüyünüz müddəalar və təkliflər nəzərə alınacaqdır.

Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılmasını və məhkəmələrin hüquqi məsələlərin həllinə yanaşmasının sabitliyini təmin etməyə imkan verən mexanizmlər daha da təkmilləşdiriləcək və mən əminəm ki, qarşıdakı illərdə biz bu sahədə yaxşı nəticələr əldə edəcəyik.

Mən konfransın işində fəal iştirakınıza, fikirlərinizə və təkliflərinizə görə Sizə öz dərin təşəkkürümü bildirirəm. Hər birinizə gələcək fəaliyyətinizdə uğurlar və ailə həyatınızda əmin-amanlıq arzulayıram.

Sağ olun!

## Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə bir qrup şəxsin təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq, Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi münasibətilə qərara alıram:

Məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Şərəf” ordeni ilə**

Rzayev Ramiz Yaqub oğlu

**2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Yusifov Şahin Yaşar oğlu

**3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə**

Abiyeva Kəmalə Nəbi qızı
Ağazadə Müzəffər Abusət oğlu
Əsədov Bağır Həbib oğlu
Əsgərov Çingiz İsgəndər oğlu
Hacıyev Sənan Firudin oğlu
Kazımov Tahir Ləlәkişi oğlu
Məmmədov Xəqani Səyyad oğlu
Nəsibov Hafiz Qənbər oğlu
Rəsulbəyova Nigar İmran qızı

**“Tərəqqi” medalı ilə**

Abbasov Aqil Əzizağa oğlu
Abdullayev Bəşir Tarverdi oğlu
Abdulov Rəşad Məhərrəm oğlu
Babayev Zəki Baba oğlu
Bədəlov Kəmaləddin Nurəddin oğlu
Cəfərov Vidadi Cəfər oğlu
Dadaşov İlqar Ağa Babaş oğlu
Əhmədov Əhməd Abbas oğlu
Əhmədova Mehparə Tofiq qızı
Əliyev Ələsgər Əliabbas oğlu
Əliyev Zaur Əli oğlu
Həsənov Mahir Əsgər oğlu
Həsənov Vüqar Təvəkgül oğlu
Hüseynov Abiddin Qabil oğlu
Hüseynov İlqar Kamil oğlu
Xıdırov Əhliman Mehman oğlu
Kərimov Səyyad Əli oğlu
Qəribov Bəhman Fərhad oğlu
Qılıcov İlqar Səyyad oğlu
Quliyev Zakir Müslüm oğlu
Məmmədli Bəhram Məmməd oğlu
Məmmədov Vidadi Məmməd oğlu
Mövsümov Nazim Rasim oğlu
Nəbizadə Rahib Sahib oğlu
Novruzov Ələsgər Əli İskəndər oğlu

Nurməmmədov Əhməd Güləhməd oğlu
Rəcəbov İlkin Əbülfəz oğlu
Seyidov Əziz Cəfər oğlu
Şamayev Elşad Yaquboviç
Şəfiyev İspəndiyar Əsəd oğlu
Vəliyeva Elşanə Rafiq qızı.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 11 fevral 2023-cü il**

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

## “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 762-VIQD nömrəli Qanununun tətbiqi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 762-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə qərara alıram:

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixji 762-VIQD nömrəli Qanunu ilə təsdiq edilmiş “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı haqqında Əsasnamə”nin 2-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Əsasnamənin 2-ci maddəsində “orqan (qurum)” dedikdə Azərbaycan Respublikasının Ali Məhkəməsi nəzərdə tutulur.

2. “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə verilsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar “Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 762-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev /**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, “ 14 ” Yanvar 2023-cü il**
**№ 1980**

## Bir qrup hakim və məhkəmə işçiləri Ali Məhkəmənin yubiley medalı ilə təltif olunub

2023-cü il 6 fevral tarixində Azərbaycan Respublikasının Ali Məhkəməsində "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi" Azərbaycan Respublikasının yubiley medalının təqdimetmə mərasimi keçirilib.



Tədbiri giriş sözü ilə açan Ali Məhkəmənin sədri Ramiz Rzayev bildirib ki, bu il Ali Məhkəmənin fəaliyyətinin 100 ili tamam olur. Ali Məhkəmənin 100 illik yubileyi çox əlamətdar bir ilə təsadüf edir. Bu il xalqımız müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycan dövlətinin, eyni zamanda Azərbaycanda məhkəmə sisteminin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlı olduğunu bildirən Ramiz Rzayev Azərbaycan Respublikası Ali Məhkəməsinin tarixi, Ulu Öndərin və onun davamçısı Prezident İlham Əliyevin məhkəmə-hüquq sistemində apardıqları islahatlar barədə danışıb.



Sədr qeyd edib ki, müstəqilliyin bərpasından sonrakı dövrdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti ilə məhkəmə-hüquq sistemində mərhələli şəkildə islahatlar aparılıb. Müstəqil Azərbaycan Respublikası Ali Məhkəməsinin hüquqi statusu, məhkəmə sistemində yeri və rolu ölkənin Əsas Qanunu olan 1995-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyasında müəyyən olunub.

Ulu Öndərin davamçısı, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi dönəmində ölkəmizdə ədalət mühakiməsinin inkişafında keyfiyyətcə yeni dəyişikliklər baş verib, vətəndaşların məhkəmələrə müraciət imkanlarının asanlaşdırılması məqsədilə məhkəmələrin səlahiyyətləri genişləndirilib, maddi təminatları yaxşılaşdırılıb, hakimlərin şəffaf prosedurlar əsasında seçilməklə tərkibinin əsaslı şəkildə yenilənməsinə nail olunub.



"Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı məhkəmə-hüquq sisteminin inkişafında yeni mərhələnin başlanmasının və məhkəmə-hüquq islahatlarının davamlılığının real göstəricisidir. Fərmanın məqsədi müasir dövrün tələblərinə cavab verən, cəmiyyətdə yüksək nüfuza malik ədalət mühakiməsinin formalaşdırılması prosesinin sürətləndirilməsi olduğunu qeyd edən Ali Məhkəmənin sədri bildirib ki, bu Fərman ədalət mühakiməsinin səmərəliliyinin artırılması sahəsində işin müasir çağırışlara uyğun yeni mərhələdə aparılmasına, hüquqların məhkəmə müdafiəsinin daha da güclənməsinə müsbət təsirini göstərib.

Ali Məhkəmənin 100 illiyi münasibətilə Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 762-VIQD nömrəli Qanunu ilə "Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923–2023)" Azərbaycan Respublikasının yubiley medalı təsis edilmiş vəƏsasnaməsi təsdiq edilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü il 14 yanvar tarixli Fərmanı ilə “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923–2023)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif etmək səlahiyyəti Azərbaycan Respublikası Ali Məhkəməsinin sədrinə həvalə edilib.

Daha sonra Ali Məhkəmənin sədri Ramiz Rzayev “Azərbaycan Ali Məhkəməsinin 100 illiyi (1923-2023)” Azərbaycan Respublikasının yubiley medalı ilə təltif olunan bir qrup hakim və məhkəmə işçilərinə yubiley medallarını təqdim edib.





## Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş ağacəkmə aksiyası keçirilib

2023-cü ildə Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi tamam olur. Bununla əlaqədar olaraq noyabr ayından etibarən Ali Məhkəmə tərəfindən silsilə tədbirlərin keçirilməsinə başlanılıb.

2022-ci il noyabrın 12-də Azərbaycan Respublikasının Ali Məhkəməsi Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə paytaxtın Qaradağ rayonu Müşfiqabad qəsəbəsində ağacəkmə aksiyası keçirib. Ali Məhkəmənin hakimləri və əməkdaşlarından ibarət 250-dən artıq insanın qatıldığı aksiyada Ali Məhkəmənin sədri Ramiz Rzayev və ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev də iştirak ediblər.

Konstitusiya günündə Ali Məhkəmənin yaradılmasının 100 illiyinə həsr olunmuş aksiya zamanı mindən artıq şam və zeytun ağacları əkilib. Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub. Həmçinin əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.





## Yüz ilin salnaməsi kitabı

2023-cü ildə “Azərbaycan Respublikasının Ali Məhkəməsi: Bir Əsrlik Yol” kitabı nəfis tərtibatla çap olunub.

Kitab Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayevin müəllifliyi və rəhbərliyi ilə redaksiya qrupu tərəfindən Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyi münasibətilə hazırlanıb.

Kitabda Ali Məhkəmənin 100 ildə keçdiyi tarixi inkişaf yolu dolğun əksini tapıb.

Azərbaycan Respublikasının məhkəmə sistemi yüksək inkişaf mərhələsindədir. Bu nailiyyət ən qədim zamanlardan təşəkkül tapmış Azərbaycan dövlətçilik ideyaları və təcrübəsi ilə bağlıdır.

Qədim zamanlardan başlayaraq Azərbaycanda məhkəmə hakimiyyətinin təşəkkülü, Azərbaycan Xalq Cümhuriyyətində məhkəmə hakimiyyətinin təşkili üçün görülən işlər, Sovet hakimiyyəti dövründə və dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkəmizin məhkəmə sistemi və fəaliyyəti, müstəqillik dövründə davamlı islahatların keçirilməsi nəticəsində məhkəmələrin müasirləşdirilməsi barədə kitabda müfəssəl məlumat verilir.

Kitabda xronoloji ardıcıllıqla, faktlarla və təhlillərlə Azərbaycan Respublikası Ali Məhkəməsinin yaranması və formalaşmasına, onun ölkədə ali məhkəmə orqanı və kassasiya məhkəməsi kimi fəaliyyətinə geniş yer ayrılıb. Ali Məhkəmənin ölkədə vahid məhkəmə təcrübəsinin formalaşdırılmasında rolu, monitorinq fəaliyyəti, qanunvericilik təşəbbüsü hüququ, dövlət hakimiyyətinin digər qolları, habelə İnsan Hüquqları üzrə Avropa Məhkəməsi ilə əlaqələri ətraflı şərh olunub.

Həmçinin kitabda Ali Məhkəmənin quruluşu və tərkibi, beynəlxalq əlaqələri, fəaliyyətinin təmin edilməsi məsələləri əks olunub.

Kitab Azərbaycanda məhkəmə hakimiyyətinin təşkili, Azərbaycan Respublikası Ali Məhkəməsinin tarixi və fəaliyyəti ilə maraqlananlar üçün faydalı ola bilər



## Ali Məhkəmədə "Açıq qapı" günləri

2023-cü ildə Azərbaycan Ali Məhkəməsinin yaradılmasının 100 illiyi tamam olur.

Bununla əlaqədar olaraq noyabr ayından etibarən Ali Məhkəmə tərəfindən silsilə tədbirlərin keçirilməsinə başlanılıb.

2022-ci il noyabrın 18-dən fevralın 10-dək Ali Məhkəmə tədbirlər çərçivəsində vətəndaşlar üçün öz qapılarını açıb.

Vətəndaşlar Ali Məhkəmənin inzibati binası ilə tanış olub, məhkəmə iclas zallarını, Plenum zalını, məhkəmənin kitabxanasını və Məhkəmə tarixi muzeyini ziyarət ediblər.

Ali Məhkəmə ilə tanışlıq çərçivəsində vətəndaşlara məhkəmələrin dövlət quruluşunda yeri və rolu, məhkəmənin iş rejimi və sair barədə məlumatlar verilib, vətəndaşların sualları cavablandırılıb.

Həmçinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən məhkəmə-hüquq islahatları, o cümlədən ədalət mühakiməsinə əlçatanlığın asanlaşdırılması, vətəndaşların müraciət imkanlarının genişləndirilməsi, elektron sistemlərin tətbiqi və digər yeniliklər barədə məlumatlar diqqətə çatdırılıb.

Sonda vətəndaşlar xoş təəssüratlarını bölüşüb, tanışlıq səfərinin yüksək səviyyədə təşkil olunması üçün Ali Məhkəmənin rəhbərliyinə təşəkkürlərini bildirib, xatirə şəkli çəkdiriblər.





## Ali Məhkəmənin 100 illiyinə həsr olunmuş futbol turnirinə yekun vurulub

2023-cü il fevralın 10-da Azərbaycan Ali Məhkəməsinin 100 illik yubileyinə həsr olunmuş futbol turniri yekunlaşıb. Turnirdə Azərbaycan Respublikasının Ali Məhkəməsi, Bakı və Sumqayıt apellyasiya məhkəmələri və bəzi şəhər və rayon məhkəmələrindən ümumilikdə 16 komanda iştirak edib. 4 qrupda mübarizə aparan komandalarda ən çox xal toplayan iki komanda növbəti mərhələyə vəsiqə qazanıb.

3-cü yer uğrunda keçirilən oyunda Bakı şəhərinin Sabunçu və Yasamal rayon məhkəmələrinin komandaları üz-üzə gəliblər. Oyun 5-3 hesabı ilə Yasamal Rayon Məhkəməsinin xeyrinə yekunlaşıb.

Final görüşündə isə Azərbaycan Respublikasının Ali Məhkəməsi və Bakı Apellyasiya Məhkəməsinin komandaları qarşılaşıblar. Gərgin keçən final oyununda Ali Məhkəmənin komandası 2-1 hesabı ilə qalib gəlib və turnirin qalibi adını qazanıb.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədr müavini Çingiz Əsgərov tərəfindən futbol turnirinin iştirakçılarına medallar və kubok təqdim edilib.

Turnirdə ən çox qol vuran Bakı şəhəri Yasamal Rayon Məhkəməsinin əməkdaşı İsmayıl İmanov da kubokla təltif edilib.





## Azərbaycan Respublikasının Ali Məhkəməsi və ADA Universiteti arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb

2023-cü il fevralın 6-da ADA Universitetində Azərbaycan Respublikasının Ali Məhkəməsi və ADA Universiteti arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib.




ADA Universitetinin rektoru, professor Hafiz Paşayev qonaqları salamlayaraq, onları universitetdə görməkdən məmnun olduğunu bildirib. Rektor qeyd edib ki, ADA Universiteti Ali Məhkəmə ilə artıq xeyli müddətdir ki, əməkdaşlıq edir. ADA Universitetinin tələbələri həm Ali Məhkəmədə, həm də ölkənin digər məhkəmələrində təcrübə keçirlər. Mövcud əməkdaşlıq münasibətlərinin daha da irəli aparılması üçün bu gün ADA Universiteti və Ali Məhkəmə arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalamaq üçün mərasim təşkil olunub. Rektor vurğulayıb ki, Memorandum tələbələrin Ali Məhkəmədə təcrübə keçməklə yanaşı, onlara Ali Məhkəmənin nəzdində yaradılacaq hüquq klinikasında da iştirak imkanları yaradacaq.

Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev öz növbəsində bildirib ki, ADA Universiteti çağdaş standartlara uyğun yüksək təhsil verən, nəinki ölkəmizdə, hətta ölkəmizdən kənarda belə yüksək nüfuza sahib təhsil ocaqlarından biridir. Bu möhtəşəm təhsil ocağının ərsəyə gəlməsi hörmətli rektor, professor Hafiz Paşayevin gərgin əməyinin sayəsində mümkün olub.

Ali Məhkəmənin sədri qeyd edib ki, bu gün imzalan Memorandum tarixi bir vaxtda - Ali Məhkəmənin yaradılmasının 100 illik yubileyi ərəfəsində baş tutur. Bu il həmçinin xalqımız müasir Azərbaycanın qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycan dövlətində hər bir sahənin inkişafı Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır.

Ali Məhkəmənin sədri qeyd edib ki, memorandumu imzalamaqda məqsəd mövcud əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsinə və inkişaf etdirilməsinə nail olmaqdır. Bunun üçün Memorandumda bir sıra mühüm lahiyələrin həyata keçirilməsi nəzərdə tutulub. Əsas istiqamətlərdən biri Ali Məhkəmənin ADA Universitetində hüquqşünaslıq üzrə yüksək ixtisaslı kadrların hazırlanmasına yardım etməkdir. Əlbəttə, bunun üçün metodik materiallar, dərs vəsaitləri, monoqrafiyalar və digər elmi əsərlər hazırlanmalıdır. Bu işlərin görülməsində qarşılıqlı rəylərin, tövsiyələrin verilməsi xüsusi önəm daşıyır.

Əməkdaşlıq haqqında Anlaşma Memorandumunu Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev və ADA Universitetinin rektoru, professor Hafiz Paşayev imzalayıblar.

Sonda Ali Məhkəmənin sədri tərəfindən ADA Universitetinə hüquq sahəsinə aid kitablar və suvenir hədiyyə edilib.

# Azərbaycan Respublikasının Ali Məhkəməsi və Bakı Dövlət Universiteti arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumu imzalanıb

2023-cü il fevralın 22-də Azərbaycan Respublikasının Ali Məhkəməsi və Bakı Dövlət Universiteti arasında Əməkdaşlıq haqqında Anlaşma Memorandumunun imzalanma mərasimi keçirilib.



Ali Məhkəmənin sədri Ramiz Rzayev qonaqları salamlayaraq, onları Ali Məhkəmədə görməkdən məmnun olduğunu bildirib. Ali Məhkəmənin sədri qeyd edib ki, bu il fevralın 13-də Ali Məhkəmənin fəaliyyətinin 100 illik yubileyi tamam olub. Həmçinin bu il mayın 10-da xalqımız müasir Azərbaycanın qurucusu, Ulu öndər Heydər Əliyevin 100 illik yubileyini qeyd etməyə hazırlaşır. Müstəqil Azərbaycan dövlətində hər bir sahənin inkişafı ilə yanaşı, Ali Məhkəmənin inkişafı da Ulu Öndərin fəaliyyəti ilə sıx bağlıdır.

1919-cu ildə Azərbaycan Xalq Cumhuriyyətinin Parlamenti tərəfindən təsis edilmiş Bakı Dövlət Universiteti ölkəmizin ən qocaman universitetidir. Ölkəmiz müstəqilliyini bərpa edənədək, universitet statusu daşıyan yeganə təhsil ocağı da məhz Bakı Dövlət Universiteti idi. İlk dəfə Hüquq fakültəsi də məhz bu universitetdə yaradılıb və uzun illər Hüquq fakültəsi yalnız bu universitetdə mövcud olub. Universitetin məzunları sırasında Azərbaycan xalqının Ulu Öndəri Heydər Əliyev də daxil olmaqla, ölkəmizin görkəmli alim və dövlət xadimləri, məşhur hüquqşünasları olub. Əvvəllər olduğu kimi, bu gün də Bakı Dövlət Universitetinin məzunlarının istər dövlət orqanlarında, istərsə də özəl sahələrdə aparıcı vəzifələrdə çalışdığını bildirən Ramiz Rzayev qeyd edib ki, Ali Məhkəmənin hakimləri və əməkdaşlarının əksəriyyəti Bakı Dövlət Universitetinin məzunlarıdır.

Sədr vurğulayıb ki, Ali Məhkəmə Bakı Dövlət Universiteti ilə uzun illərdir ki, əməkdaşlıq edir və hər il Bakı Dövlət Universitetində hüquqşünaslıq ixtisası üzrə təhsil alan xeyli sayda tələbə Ali Məhkəmədə, eləcə də ölkəmizin digər məhkəmələrində təcrübə proqramlarında iştirak edirlər.

Memorandumun imzalanmasında əsas məqsədin mövcud əməkdaşlıq münasibətlərinin daha da genişləndirilməsi və inkişaf etdirilməsi olduğunu vurğulayan Ali Məhkəmənin sədri gələcəkdə birgə elmi konfransların, dəyirmi masaların və görüşlərin keçirilməsinin nəzəri və təcrübi biliklərin daha da artırılmasına mühüm töhfə verəcəyini bildirib.

Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev Ali Məhkəmədə ilk dəfə olduğunu, məhkəmənin binasının olduqca zövqlə inşa olunduğunu qeyd edib və tədbirin təşkilinə görə Ramiz Rzayevə təşəkkürünü bildirib. Rektor Ali Məhkəmənin hakimlərini və əməkdaşlarını Ali Məhkəmənin 100 illik yubileyi münasibətilə təbrik edib və onlara peşəkar fəaliyyətlərində uğurlar arzulayıb. Rektor Anlaşma Memorandumunun Bakı Dövlət Universitetinin tələbələri üçün Ali Məhkəmədə təcrübə keçmək imkanı yaratmaqla onların bilik və təcrübələrinin artırılmasına böyük töhvə verəcəyini vurğulayıb. Rektor bildirib ki, Ali Məhkəmənin hüquq sahəsində çox böyük təcrübəsi var və universitetin Hüquq fakültəsinin professor-müəllim heyəti və tələbələri bu təcrübədən yararlanmalıdırlar.

Azərbaycanda hüquq və digər sahələrdə nəzəri və təcrübi biliklərin artırılmasına yeni töhfə verəcək Əməkdaşlıq haqqında Anlaşma Memorandumunu Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev və Bakı Dövlət Universitetinin rektoru Elçin Babayev imzalayıblar.

Sonda Ali Məhkəmənin sədri tərəfindən Bakı Dövlət Universitetinə hüquq sahəsinə aid kitablar və suvenir hədiyyə edilib.

**Azərbaycan Respublikası Ali Məhkəməsinin mətbəəsində yığılaraq**
**31 may 2023-ci il tarixdə 64 səhifə həcmində çap olunmuşdur.**
**Tirajı 500 ədəd**
**Ünvan: Bakı şəhəri, Xətai rayonu,**
**Yusif Səfərov küç.26, 1193-cü məhəllə**
**Tel: 489-07-07 (daxili nömrə 18-280)**